**FUAD ƏLİYEV**

**MİRABDULLA ƏLİYEV**

# *NAXÇIVAN XANLIĞI*

BAKI 2007

Redaktoru və
ön sözün müəllifi: Zəhmət Şahverdiyev

Tarix elmləri namizədi, dosent

ISBN 978-9952-34-165-2

947,54-dc22
Azərbaycan – Tarix
Fuad Əliyev, Mirabdulla Əliyev, Naxçıvan xanlığı,
Bakı, «Şərq-Qərb», 2007, 120 səh

Kitabda Naxçıvan xanlığının yaranması, onun sosial-iqtisadi vəziyyəti, o cümlədən xanlığın siyasi tarixində xan hakimiyyətinin təbiəti, xanların şəxsi keyfiyyətləri, xanlıqlararası münasibətlər dolğun tarixi faktlarla göstərilmişdir. Bundan əlavə kitabda son on ildən artıq müddətdə Naxçıvanın qədim tarixi, bu diyarın zəngin arxeoloji irsinin öyrənilməsi ilə əlaqədar aparılmış araşdırmalar, elmi dövriyyəyə gətirilmiş yeni faktlar da öz əksini tapmışdır.

"Şərq-Qərb", 2007

# NAXÇIVAN TARİXİ, XANLIQ DÖVRÜNÜN YERİ VƏ ROLUNA DAİR

Azərbaycanın tarixi-coğrafi ərazilərindən olan Naxçıvan bölgəsi, ölkənin ümumi tarixi taleyini bölüşdürməklə birgə, özünəməxsus xüsusiyyətləri ilə də məhşurdur. Ümummilli lider Heydər Əliyev «Uluslararası qaynaqlarda Naxçıvan» beynəlxalq simpoziumunun (Naxçıvan, 11-13 iyul 1996-cı il) iştirakçılarına məktubunda yazırdı: Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində rolu danılmazdır»[1].

Naxçıvan Azərbaycan tarixində problemi Azərbaycan tarixi kitablarında[2], müvafiq dövrlər və problemlər üzrə ümumi tədqiqatlarda əksini tapmışdır[3]. Onlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın vətəni tarixindəki əvəzedilməz mövqeyini aydınlaşdırmağa imkan verir. Bununla birgə Naxçıvan tarixinin bütün dövrlərinə, bölgənin Naxçıvan və Ordubad şəhərlərinin keçdiyi inkişaf yoluna dair monoqrafik araşdırmalar aparılmışdır.

---

[1] Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı, 1996, səh.3.

[2] Azərbaycan tarixi. Üç cilddə, Bakı,1958-1963; Azərbaycan tarixi. Yeddi cilddə, Bakı, 1998-2003; Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, 1996 və b.

[3] З.М.Буниятов.Азербайджан в VII-IX вв. Баку, 1965; M.X.Şərifli. IX əsrin ikinci yarısı – XI əsr Azərbaycan feodal dövlətləri. Bakı, 1978; А.А.Ализаде. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956 və b.

Naxçıvanın qədim tarixi diyarın zəngin arxaeloji irsinin tədqiqilə aşkara çıxarılmışdır. Naxçıvan arxaelogiyası Azərbaycan eləcə də dünya arxaelojiyasını misilsiz tarixi abidələrlə (Kültəpə, Gəmiqaya və b.), onların tədqiqindən irəli gələn yeni elmi müddəalarla zənginləşdirilmişdir. Naxçıvanın bütövlükdə bəşər sivilizasiyasının, o cümlədən şəhər mədəniyyətinin ilk beşiklərindən olması, regionun həyatında vacib yer tutması arxaeloji qaynaqlarla sübut edilmişdir. [1]

Naxçıvan azərbaycanda qədim dövlətlərin yaranması proseslərində fəal iştirak edib, ölkənin ərazisində ilk mərkəzləşdirilmiş dövlət olan Mannanın (e.ə. IX-VI əsrlər) tərkibinə daxil olub. Manna süquta uğradıqdan sonra Naxçıvan Midiya və Əhəmi dövlətlərinə tabe edilib. Makedoni yalı İskəndərin imperiyasının süqutu ilə azərbaycanın yenidən müstəqilliyini bərpa etdi. Bu zaman Azərbaycanın cənubunda Atrapatena, şimalında Albaniya dövlətləri təşəkkül tapdı. Naxçıvan e.ə.IV-I əsrlərdə Atrapatenanın, e.I əsrindən isə Albaniyanın tərkibində idi. Səsani dövlətinin yüksəlişi zamanı. Digər azərbaycan torpaqları kimi, Naxçıvan da tabe edildi.[2]

VII-IX əsrlər bütün Azərbaycan kimi Naxçıvanda da mühüm dəyişikliklər dövrü oldu, islam dini yayıldı. Ərəb xilafətinin dağılması nəticəsində Azərbaycan yenidən müstəqillik əldə etdi, əvvəlcə Sacilər, sonra isə səlairlər dövlətlərinin tərkibində oldu. Azərbaycan Atabəylər dövründə (1136-1225) Naxçıvan yüksək inkişaf mərhələsinə çatdı, dövlətin siyasi mərkəzlərindən birinə çevrildi. Naxçıvanın sosial iqtisadi və mədəni həyatında da yüksəliş özünü göstərdi. Naxçıvan memarlıq məktəbi yarandı.[3]

Monqol hücumları zamanı Naxçıvan böyük dağıntılara məruz qaldı, lakin Qazan xanın (1295-1304) islahatları nəticəsində yenidən

---

[1] О.А.Абибуллаев. энеолит и бронза на территории Нахичеванской АССР. Баку,1982; V.Əliyev. Qədim Naxçıvan. Bakı, 1979; yenə onun: Naxçıvan – Azərbaycanın tarixi diyarıdır. Bakı, 2002; yenə onun: Культура эпохи средней бронзы Азербайджана. Баку, 1988; V.Baxşəliyev, A.Seyidov. Naxçıvanın qədim tarixi (etüdlər). Bakı, 1985 və b.

[2] С.М.Кашкай. Из истории Маннейского царства. Баку, 1977; И.Алиев. История Мидии. Баку, 1960; A.Fazili. Atropatena (e.ə.IV– e.VII əsrləri). Bakı, 1992; Т.М.Мамедов. Кавказская Албания в IV-VII вв. Баку, 1983; Ф.М.Мамедова, Политическая история и историческая география Кавказской Албании. Баку, 1986.

[3] N.Vəlixanlı. Naxçıvan - ərəblərdən monqollaradək (VII_XII). Bakı, 2005; R.Məmmədov. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, 1977; З.М.Буниятов. Государство Атабеков Азербайджана. Баку, 1986.

bərpa edildi. Naxçıvan XIV əsrin sonlarında yenidən müharibə meydanına çevrildi. Teymurləng 1387-ci ildə Naxçıvanı tutdu. Əlincə qalası isə 1387-1401-ci illərdə düşmənə müqavimət göstərdi.[1]

Naxçıvanın XV əsr tarixi Azərbaycanın Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətləri ilə bağlıdır. Azərbaycan səfəvi dövlətinin yaranması (1501) Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açdı. Lakin Səfəvilər dövlətinin mövcud olduğu dövrdə (1501-1736) osmanlılarla aparılan müharibələr (1514-1555; 1578-1590; 1602-1612; 1616-1618; 1623-1639; 1723-1727; 1730-1736) Naxçıvandan da yan keçmədi, əksinə, ona böyük dağıntı və fəlakətlər gətirdi[2]. 1724-cü ildə Osmanlı dövləti Naxçıvanı tutmağa nail oldu. Burada osmanlı idarə sistemi (1724-1735) yaradıldı. Osmanlılar 1727-ci ildə o zaman adlandığı kimi, Naxçıvan sancağının müfəssəl dəftərini tərtib etdilər. Bu dəftər Naxçıvan tarixinə dair mühüm qaynaqdır[3] .

Nadir şahın dövründə də (1736-1747) Naxçıvan çətin günlər yaşadı. Nadir şahın öldürülməsindən sonra Azərbaycan, xanlıqların timsalında müstəqilliyini bərpa edə bildi. Bu dövrdə Azərbaycanda yaranmış xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Naxçıvan xanlığı 1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiyaya ilhaq edildi.

XIX-XX əsirin əvvəllərində bütün Şimali Azərbaycan torpaqlarında olduğu kimi Naxçıvanda da Rusiya işgal rejimi quruldu. Çar hökumətinin köçürmə siyasəti nəticəsində Naxçıvanın "erməniləşdirilməsinə" cəhd edildi. 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın əsas mərkəzlərindən biri də Naxçıvan oldu[4]. Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918-1920)

---

[1]V. Piriyev. Naxçıvan tarixindən səhifələr (XIII - XIV əsrlər). Bakı, 2004; yenə onun: Azərbaycan XIII – XIV əsrlərdə. Bakı, 2003.

[2] C.İbrahimov. Azərbaycanın XV əsr tarixinə dair oçerqlər. Bakı, 1958; T.H.Nəcəfov. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVIəsr – XVII əsrin əvvəlləri), Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu). Bakı, 1999, səh.62-72; А.А.Рахмани. Азербайджан в конце XVI и XVII веке (1590-1700 гг.) Баку, 1981; T.Mustafazadə. Naxçıvan vilayəti XVIII yüzillikdə.

[3] Naxçıvan Muxtar Respublikası (məqalələr toplusu), səh. 38-61. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2001.

[4] Z.Şahverdiyev. Naxçıvan bölgəsi XIX – XX əsrin əvvəllərində. Proqram. Bakı, 2007; İ.Kazımov. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı, 2007; А.Пашаев. Город Ордубад в XIX – начале XX вв. (Историко-этнографическое исследование). Баку, 1998; M.S.Ordubadi. Qanlı illər. Bakı, 1991.

Qarabağ və Zəngəzur kimi Naxçıvan üçün də gərgin keçdi. Buna baxmayaraq, ermənilərin Naxçıvanı Azərbaycandan qoparmaq siyasəti baş tutmadı[1]. Ermənilər bu siyasəti sovet dövründə də davam etdirdi. 1921-ci ilin martında bağlanmış Türkiyə – RSFSR Moskva və oktyabrda imzalanmış Kars müqaviləsi Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq etdi. Moskva müqaviləsinin 3-cü maddəsində deyilir: «Razılığa gələn hər iki tərəf hazırki müqavilənin 1 (B) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycanın bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir»[2] . Bu məsələ Kars müqaviləsinin 5-ci maddəsində də öz əksini tapdı: «Türkiyə hökuməti Azərbaycan və sovet hökumətləri hazırki müqavilənin 3 saylı əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar»[3] . Müəyyən tarixi hadisələrdən sonra 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edildi[4].

Ermənilər 1921-ci ildə Moskva və kars müqavilələrinin şərtlərini pozaraq MSSR-in torpaqlarına iddialar irəli sürməyə davam etdi. Ümummilli lider Heydər Əliyevin «Naxçıvan Muxtar respublikasının 75 illiyinin keçirilməsi haqqında» 1999-cu il 4 fevral tarixli fərmanında deyilir: «Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olması rəsmən qəbul etməyə məcbur olsa da bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb öz ərazisinə birləşdirməyə nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri,

[1] İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996; Ə.Əliyev. Əlincə yaddaşı. Bakı, 2004; V.Ünüvarlı. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006.

[2] Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). Bakı, 1999, səh. 16.

[3] Yenə orada, səh. 25.

[4] Q.Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958; S.Sadıqov. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı,1995.

Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş və indi o bu çirkin niyyətlərindən əl çəkmir».

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) Naxçıvan geniş inkişaf yoluna qədəm qoydu. 1980-ci illərin sonlarında ermənilərin Azərbaycana qarşı ərazi iddialarının genişlənməsi, SSRİ rəhbərliyinin təcavüzkarı dəstəkləməsi, respublika rəhbərliyinin aciz mövqeyi xalqın ayağa qalxmasına səbəb oldu. 1990-cı ildə Heydər Əliyevin Naxçıvana qayıtması və Muxtar Respublika Ali Məclisinin Sədri seçilməsi ilə Naxçıvan Azərbaycanının ərazi bütövlüyü və istiqlaliyyəti uğrunda mübarizəsinin mərkəzinə çevrildi. 1993-cü ilin iyun hadisələri zamanı xalqın təkidli tələbi ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Heydər Əliyev respublikaya ikinci rəhbərliyi dövründə (1993-2003) blokadada olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni tərəqqisi üçün böyük işlər görüldü. Naxçıvanın statusu 1995-ci ilin noyabrında qəbul edilmiş Konstitusiyada təsbit edildi. Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsində deyilir: «Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir».

Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən prezident İlham Əliyev də Naxçıvan MR-in inkişafına xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, Naxçıvan MR həyatın bütün sahələrində yeni uğurlar qazanır, təcavüzkar Ermənistanın ideoloji və hərbi təzyiqlərinə cəsarətlə cavab verir.

***

Naxçıvan tarixinə ümumi nəzər aydın şəkildə göstərir ki, onun ən mühüm səhifələrindən biri xanlıqlar dövrüdür. Xanlıqlar dövrü həm ona qədər olan hadisələri, həm də sonrakı hadisələri dərk etmək üçün mühüm əhəmiyyətə malikdir. Lakin buna baxmayaraq, Naxçıvan xanlığının tarixi uzun müddət xüsusi tədqiqat obyekti olmamışdır. Yalnız 1986-cı ildə Mirabdulla Əliyev «Naxçıvan xanlığı və onun Rusiyaya birləşdirilməsi» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. 1980-cı illərin sonlarında genişlənən müstəqillik ideyası və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini elan etməsi ölkənin

tarixi keçmişinə, o cümlədən Naxçıvan xanlığınan tarixinə marağı artırdı. Belə bir sosial

tələbə cavab olaraq, tanınmış tarixçi, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor F.M.Əliyev M.Əliyevlə birlikdə 1996-cı ildə "Naxçıvan xanlığı (1747-1828)" kitabını çap etdirdi[1]. Kitab aktuallığına, qoyulan problemlərin dairəsi və həllinə, faktik bazasına görə bu gün də əhəmiyyətin saxlamaqdadır. Lakin hər bir kitabın təkrar nəşrində olduğu kimi burada da onun tarix elminin müasir səviyyəsindən yenidən nəzərdən keçirilməsi zərurəti ortaya çıxır. Bu işdə "Naxçıvan xanlığı (1747-1828)" kitabının ilk nəşrində nəzərə alınmamış, yaxud yeni işıq üzü görmüş əsərlər də mühüm rola malikdir[1].

Naxçıvan xanlığının meydana gəlməsi digər Azərbaycan xanlıqları ilə eyni qanunauyğunluğa malik olsa da, bəzi xüsusiyyətlərə malik idi. Bu xanlıq əmələ gəlməsi ərəfəsində Naxçıvanın idarəsi ilə bağlı idi. Müəlliflər haqlı olaraq qeyd edir ki, "İran hakimiyyəti dövründə Azərbaycanın başqa vilayətlərindən fərqli olaraq (seçmə mənimdir – Z.Ş) Naxçıvan diyarını şah tərəfindən təyin edilmiş iki hakim idarə edirdi. Naxçıvan ölkəsinin hakimi və suvari bölmələrinin başçısı" Nadiriin "şah seçkisi"ndə Naxçıvan hakimi Mirzə Rza iştirak edib. Bu mərasimdə baş verən bir hadisə də xüsusi şərh tələb edib. Bu mərasimdə baş verən bir hadisə də xüsusi şərh tələb edib. Bu mərasimdə baş verən bir hadisə də xüsusi şərh tələb edir Müəlliflər yazır: «Mənbələrin verdiyi məlumata görə, erməni katalikosu Abram Kpetasi Muğan qurultayından sonra Nadir şahın hüzurunda Mirzə Rzanın hərəkətlərini ifşa edərək demişdi: "sən Naxçıvan torpağını məhv etmiş, rəiyyətlərdə mal-dövlət qoymamısan… Sən hazırda Naxçıvan vilayətində 1000 tümən rüşvət almısan. Əgər şah əmr etsə, mən səndən hesabat tələb edərəm, çünki rəiyyətlərin pulu ya onlara qaytarılmalıdır, ya da şaha verilməlidir. Nə üçün sən o pulları mənimsəmisən". Bu hadisə Mirzə Rzanın cəzalandırılması, həmçinin vəzifəsindən uzaqlaşdırılması ilə başa çatır.

---

[1]F.Əliyev, M.Əliyev. Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996.

[1]S.Budaqova. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı,1995; Naxçıvan tarixinin səhifələri. Bakı, 1996; Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 2002; B.Budaqov, Q.Qeybullayev. Naxçıvan diyarının yer yaddaşı. Bakı, 2004; N.Quliyev. Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat). Bakı, 2006; Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (2006-ı il iyulun 9-10-da keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan,2006 və b.

Deyilənlərə tənqidi münasibat zəruridir. Erməni katolikosunun Naxçıvan əhlinə belə can yandırması tamamilə şübhəli görünür. Ona görə də bu hadisənin mahiyyəti aydınlaşdırılmalıdır. Katolikos bununla Naxçıvanda idarə sisteminə rəhbərlik edən şəxsləri gözdən salmağa, digər tərəfdən Nadirə sədaqətini sübut etməyə çalışır. Ən əsası isə ermənilərin mövqeyini yeni şahın yanında möhkəmləndirməklə, onların xeyrinə imtiyazlar əldə etməyə cəhd edir. Fikrimizcə bu hadisə ilə Qarabağ məliklərinin Gəncə xanlığının tabeçiliyindən çıxarılması arasında əlaqə vardır.

Naxçıvan xanlığının ərazisi, xüsusilə onun inzibati ərazi bölgüsü də əlavə izah tələb edir. Bu məsələyə H.Məmmədovun "Naxçıvan sancağının müfəssəl dəftəri" əsəri və S.Budaqovun "Naxçıvan diyarının tarixi coğrafiyası" əsəri müəyyən aydınlıq gətirir. "Naxçıvan sancağının müfəssəl dəftəri"nə görə diyarda 14 nahiyə (Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvazeyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgat, Sisyan, Dərələyəz) var idi. H.Məmmədov buradan belə nəticəyə gəlir ki, "Naxçıvan sancağının ərazisi XVI-XVIII əsrlərdə Naxçıvan MR-ın ərazisindən də xeyli böyük olmuş, müasir Ermənistan Respublikasının bir sıra rayonlarının, o cümlədən Əzizbəyov, Yexeqnadzor, Cermuk, Sisyan və Meqri rayonlarının ərazisini də əhatə etmişdir"[1] .

Naxçıvan xanlığının ərazi və inzibati bölgüsündə əsas dəyişikliklər 1797-ci ildən sonra baş verir. S.Budaqova yazır ki, İran hakimiyyəti dövründə Naxçıvan xanlığı inzibati baxımdan iki tümənə bölünmüşdür ki, bunlardan biri Naxçıvan, digəri isə Ordubad tümənləri idi. 1797-ci ildən etibarən Naxçıvan xanlığına daxil olan mehri və Qafan mahalları İbrahim Xəlil xan tərəfindən işğal olunub, Qarabağ xanlığına birləşdirilmişdir. Naxçıvan və Ordubad tümənləri öz növbəsində bir neçə mahala bölünürdü. 1813-1828-ci illərdə Naxçıvan tüməni dörd mahaldan (Naxçıvan, Əlincə, Xok və Dərələyəz), Ordubad tüməni isə beş mahaldan (Ordubad, Əylis, Dəstə, Cənnab və Bilev) ibarət idi[2] .

Naxçıvan xanlığınan əhalisi, xüsusilə onun etnik tərkibi haqqında məsələyə də aydınlıq gətirilməlidir. Bu problemlər N.Quliyevin "Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik təhlil)" kitabında

[1] Naxçıvan sancağının müfəssəl dəftəri, səh. 11.
[2] S.Budaqova. Naxçıvan diyarının tarixi coğrafiyası, səh. 26.

xüsusi tətqiqat obyekti olub. Müəllif xanlığın əhalisinin sayını 1747 və 1797-ci il hüdudlarında ayrıca hesablayır və belə nəticəyə gəlir ki, Naxçıvan xanlığı əhalisinin say dinamikası (1747-ci il hüdudlarından), xanlığın yaranması ərəfəsində 45140 nəfər, ləğvi dövründə 42497 nəfər olub. 1797-ci il hüdudlarında həmin rəqəmlər müvafiq olaraq, 33650 və 29463 nəfər idi[1] .

Naxçıvan xanlığı əhalisinin əksəriyyətinin azərbaycanlılar təşkil edirdi. Bunu həm faktik material, həm də yer adlarının tədqiqi təsdiq edir. Naxçıvan əhalisi tərkibindəki ermənilər buraya gəlmə idi. Bu əsasda onları iki yerə ayırmaq mümkündür: 1) xanlığın ləğvinədək gələnlər; 2) 1828-ci il Türkmənçay müqaviləsindən sonra kütləvi şəkildə köçürülənlər. Çar Rusiyasının Şimali Azərbaycanda köçürmə siyasətini tədqiq edən müəllifə görə 1828-1829-cu illərdə Şimali Azərbaycana 6976 erməni ailəsi köçürülmüşdür ki, onlardan 2557 ailə (36,65%) Naxçıvanda, 3000 ailə (43%) Qarabağda, 1395 ailə (20%) irəvanda yerləşdirilmişdir[2] .

"Naxçıvan xanlığı" kitabının strukturuna nəzər saldıqda burada K.Marksın tarixi materialistcəsinə anlayış nəzəriyyəsinin əsas götürüldüyü aydın hiss edilir. Bu bir tərəfdən xanlığın sosial-iqtisadi vəziyyətinə dair bölmənin siyasi tarixdən əvvəl verilməsində, digər tərəfdən ona geniş yer ayrılmasında əks olunur. Lakin bütövlükdə Azərbaycan xanlıqlarının o cümlədən Naxçıvan xanlığının həyatında siyasi amillər daha önəmli yer tutub, iqtisadi vəziyyət siyasi stabillikdən asılı olub. Bu baxımdan xanlığın yaranması ilə onun siyasi tarixi ardıcıl verilsə, iqtisadi problemlər axıra saxlansa daha məqsədə müvafiq olardı.

Naxçıvan xanlığının siyasi tarixində xan hakimiyyətinin təbiəti, xanların şəxsi keyfiyyəti, xanlıqlararası münasibətlər, xanlığın Kartli-Kaxeti çarlığı, Zəndlər və Qacarlarla, Osmanlı imperiyası və Rusiya ilə münasibətləri mühüm rola malik idi.

Naxçıvan xanlığının əsasını kəngərli tayfasından olan Heydərqulu xan qoymuşdu. Tarixi faktları ümumiləşdirsək, Naxçıvan xanlığının siyasi hakimiyyətin aşağıdakı nümayəndələrini qeyd edə bilərik: Heydərqulu xan (1747-1763/6), müxtəlif vaxtlarda: Hacı xan,

[1] N.Quliyev. Naxçıvan xanlığının əhalisi, səh. 41-42.
[2] Х.Ю.Вердиева. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.). Баку,1999, стр. 108.

Rəhim xan, Əliqulu xan, Abbasqulu xan, Cəfərqulu xan, Şükürəli xan, (1785-1787), Kəlbəli xan (1787-1720), Nəzərəli xan, Kərim xan (1823-1827), Ehsan xan (1827-1828).

Naxçıvanda xan hakimiyyəti Heydərqulu xandan sonra kəskin siyasi mübarizə ilə müşayiət olunmuşdu. Cəfərqulu xan və ya Abbasqulu xanın hakimiyyətə gətirilməsi uğrunda mübarizə Naxçıvan xanlığında xan hakimiyətini zəiflətmiş, xarici qüvvələrin xanlığın işlərinə müdaxiləsinə şərait yaratmışdır. Qarabağ, Gəncə, Quba və digər Azərbaycan xanlıqlarından fərqli olaraq, xanın tam irsi hakimiyyəti qurulmamışdı. Burada Naxçıvan xanlığına dair şəcərə cədvəllərini xüsusi qeyd etmək lazımdır. Göstərilən şəcərə cədvəllərində illərin göstərilməsinin təmin edilməsi daha yaxşı olardı.

Naxçıvan xanları içərisində Kəlbəli xan xüsusilə fərqlənirdi. Onun daxili və xarici siyasəti nəticəsində xanlıqda qismən siyasi sabitlik təmin edilmiş, iqtisadi həyatda dəyişiklik baş vermişdi. Bir neçə xarakterik fakt: Fətəli şah tərəfindən İrəvanda yaşamağa icazə verilən Kəlbəli xanın nüfuzunun artması, P.Sisianovun Eçmiədzin katalikosu ətrafında mübahisələrin həll edilməsi üçün ona müraciət etməsi, Yermolovun missiyasının Kəlbəli xan tərəfindən qarşılanması və s. Onun nüfuzlu lider olmasını göstərir.

Naxçıvan xanlığı tarixində ən mühüm süjetlərdən biri xanlıq ilə Rusiya arasındakı münasibətlərdir. Faktlar göstərir ki, istər 1804-1813, istərsə də 1826-1828-ci illər Rusiya İran müharibələrinin gedişində Naxçıvan müqavimətsiz Rusiyaya təslim olub. Bu faktlar məlum olduğu halda, mahiyyəti kifayət qədər aydınlaşdırmır. Burada Qacarların Naxçıvan xanlığına qarşı qəddar siyasəti (Kəlbəli xanın kor edilməsi və i.a) həlledici rol oynamışdı

Məlumdur ki, Rusiyanın Azərbaycan xanlıqlarına münasibətində iki xətt tətbiq edilirdi: ya müqavilələr imzalanır, ya da müqavimət göstərən xanlıqlar ləğv edilirdi. Çar hökumətinin yerli nümayəndələri Qarabağ, Şəki və Şirvandan fərqli olaraq Naxçıvan xanlığı ilə müqavilə bağlamadı. Bu, Naxçıvan xanlığının həmin xanlıqlardan fərqli statusa malik olması ilə bağlı idi. Lakin Naxçıvan xanlığının Rusiyaya münasibətdəki mövqeyi də əvəzsiz qalmadı. Bu, Naxçıvanın Rusiya işğalından sonrakı ilk dövrü ilə bağlı idi. Çar I Nikolayın 1828-ci il 21 mart fərmanı ilə ləğv edilmiş Naxçıvan və İrəvan xanlıqları əsasında "erməni vilayəti" yaradılmışdı.

Məsələ burasındadır ki, Naxçıvan xanlığının rəsmən ləğv edilməsinə baxmayaraq, ona "etimad" göstərilmiş, bir növ muxtariyyəti saxlanılmışdır. Bu 1840-cı il 10 aprel islahatına kimi (kitabda səhvən 1850-ci il verilmişdir) davam etmişdir.

"Naxçıvan xanlığı" kitabında sosial-iqtisadi və siyasi problemlərə müəyyən qədər yer ayrıldığı halda, xanlığın mədəni həyatı diqqətdən kənarda qalmışdı. Bu mühüm problemin də gələcəkdə tədqiqata cəlb edilməsi zəruridir.

**Zəhmət Şahverdiyev**

## GİRİŞ

Hər bir xalqın həyatında bəzən elə tarixi hadisələr baş verir ki, bu hadisələr həmin xalqın ictimai – siyasi və iqtisadi həyatında dərin iz buraxır və xalqın taleyini həll edir. Belə hadisələrdən biri də XIX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunmasıdır.

Şimali Azərbaycanın Rusiyaya ilhaq edildiyi dövrdə burada feodal pərakəndəliyi hökm sürürdü, ölkənin nə siyasi, nə də vahid iqtisadi mərkəzi var idi; həmin dövrdə Azərbaycan bütöv dövlət olmayıb xırda dövlətlər qurumundan – xanlıqlardan ibarət idi.

1804-cü ilin yanvarında işğal edilmiş Gəncə xanlığından başqa Azərbaycanın şimalında yerləşən digər xanlıqlar Rusiya dövlətinə birinci Rusiya – İran müharibəsinin gedişində zorla birləşdirilmişdi.

Yalnız Naxçıvan xanlığı Gülüstan müqaviləsinə (1813) əsasən hüquqi cəhətdən Rusiyanın deyil, İran dövlətinin hakimiyyəti altına düşmüşdü. Əslində Naxçıvan xanlığı hələ 1797-ci ildən İranın işğalına məruz qalmışdı. Həmin dövrdən Naxçıvan xanı Kəlbəli xan İran dövlətinin yeni hakimi Ağa Məhəmməd şahın tələbinə baxmayaraq, tabe olmaq əmrini rədd etdiyi üçün ciddi cəzalandırılmışdı. Belə ki, Naxçıvan qalası zəbt olunduqdan sonra Kəlbəli xanın gözləri çıxarılmış və əsir kimi İrana göndərilmişdi. Həmin dövrdən başlayaraq Türkmənçay müqaviləsinə qədər (1828) Naxçıvan xanlığı faktiki olaraq İran dövlətinin ucqar bir əyalətinə çevrilmişdi.

Yuxarıda deyilənlərə əsaslanaraq, Naxçıvan xanlığının tarixini şərti olaraq iki mərhələyə bölmək olar: XVIII əsrin ortalarından 1797-ci ilə qədər; 1797-ci ildən Türkmənçay müqaviləsinin (1828) bağlanmasınadək.

Naxçıvan xanlığı ikinci Rusiya – İran müharibəsindən sonra Türkmənçay müqaviləsinin şərtlərinə əsasən Rusiya dövlətinin tərkibinə daxil olmuşdusa da, əslində bu xanlıq rus qoşunlarının həmləsi nəticəsində zəbt edilmişdi. Bu xanlığın Rusiyaya ilhaq edilməsi ilə Şimali Azərbaycan torpaqlarının tamamilə Rusiya ərazisindən qatılması prosesi başa çatdı. Beləliklə, tarixi ədalətsizlik nəticəsində zorla Rusiyaya birləşdirməklə, Azərbaycan məfhumu xəritələrdən silinib Rusiyanın ucqarlarından birinə çevrildi.

Şimali Azərbaycan torpaqlarının Rusiyanın tərkibinə qatılması, əslində rus çarizminin uzun müddət davam edən işğalçılıq siyasətinin acı bəhrəsi idi.

Məlum olduğu kimi, birinci (1804-1813) və ikinci (1826-1828) Rusiya-İran müharibələri dövründə döyüşçülərin sayına görə İran ordusu Rusiya ordusundan üstün idi. Buna baxmayaraq, qələbə hər dəfə Rusiya ordusunun tərəfində olmuşdu. Bu qələbəni Cənubi Qafqazdakı xristianların təxribatçı əməlləri ilə izah etsək, heç də səhv olmaz. Rus tarixçisi professor A.V.Fadeyev haqlı olaraq yazır ki, Cənubi Qafqazda xalq kütlələrinin köməyilə hüsn-rəğbəti olmadan azsaylı Rusiya ordusu mərkəzdən uzaq bir yerdə, çoxsaylı orduya malik düşmənlə aparılmış uzunmüddətli döyüşlərdə qələbə çala bilməzdi[1].

Bununula belə, tətbiq olunan dövrdə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının mütərəqqi xarakteri heç də Azərbaycanda və habelə bütün Cənubi Qafqazda çarizmin müstəmləkəçilik siyasətinin həyata keçirilməsini təkzib etmir. Lakin çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq, bu tarixi aktın Cənubi Qafqaz xalqlarının taleyində mütərəqqi rolunu etiraf etməmək olmaz.

Yuxarıda qeyd edildiyi kimi, ikinci Rusiya-İran müharibəsi dövründə (1826-1828) Rusiya tərəfindən işğal edilən torpaqlardan biri də Naxçıvan xanlığı olmuşdur.

Hər iki Rusiya-İran müharibəsi dövrünün, habelə Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsi prosesinin tətqiqi həm də ona görə aktualdır ki, müasir dövrdə bir sıra burjua ideoloqları və təbliğatçıları Azərbaycanın Şimal xanlıqlarına İranın tərkib hissəsi kimi baxmış, XVII əsrin ortalarında müstəqillik əldə edən xanlıqları İrandan ayıra bilməmişlər. Halbuki hər bir xanlıq öz-özlüyündə müstəqil dövlət qurumu olmuş, müstəqil daxili və xarici siyasət həyata keçirmişdir.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın şimal xanlıqları arasında özünün siyasi və ictimai-iqtisadi tarixinə görə müstəsnalıq təşkil edən Naxçıvan xanlığı bu günə qədər tarixi ədəbiyyatda öz əksini tapmamışdır. Məhz bunu nəzərə alaraq, oxuculara qısa da olsa, orta əsr Azərbaycan tarixində mühüm rol oynayan Naxçıvan xanlığı barədə məlumat verməyi məqsədəuyğun hesab etmişik.

[1] А.В.Фадаеев. Россия и Кавказ в первой трети XIX в.М., 1960, стр. 260-261.

Naxçıvan xanlığının tarixini bilmək bir də ona görə vacibdir ki, nankor erməni ideoloqları heç bir əsas olmadan bu torpağı Ermənistanın tərkib hissəsi kimi qələmə verməyə çalışırlar.

Naxçıvan xanlığının tarixini öyrənməkdən ötrü müəlliflər XIX əsrin əvvəllərində Qafqaza dair Rusiyada nəşr edilən tarixi ədəbiyyatla tanış olmuş, onlara tənqidi cəhətdən yanaşaraq bir sıra faktiki materiallardan faydalanmış, habelə bu günə qədər tarix elminə məlum olmayan yeni arxiv sənədlərini üzə çıxarmışlar.

Əsərin yazılışına Mərkəzi Dövlət Hərbi Tarix Arxivindən (MDHTA), Rusiyanın Xarici Siyasət Arxivindən (RXSA), Azərbaycanın, Gürcüstanın, Ermənistanın mərkəzi tarix arxivlərindən götürülmüş bir sıra sənədlərdən ilk dəfə istifadə olunmuşdur. Həmin arxiv sənədlərindən rus zabitlərinin mərkəzə göndərdikləri məlumatları, Qafqazdakı rus ordusu qərargahının sənədləri, Naxçıvan hakim feodallarından Kəlbəli xanın, Cəfərqulu xanın, Abbasqulu xanın, Şıxəli bəyin rus dilinə tərcümə edilmiş məktublarını, Kartli-Kaxeti çarı II İraklinin Naxçıvan xanlığının siyasi vəziyyətinə, habelə özünün Naxçıvan xanlığına dair rus hakimlərinə göndərdiyi məktubları göstərmək olar[1] . Əsərdə müəlliflər tərəfindən rus qafqazşünası A.P.Berjenin (1826-1886) XIX əsrdə nəşr etdirdiyi aktlardan da istifadə olunmuşdur.

Kartli-Kaxeti çarı II İraklinin yanında rezident olmuş rus ordusunun polkovniki S.D.Burnaşevin raportlarında xüsusilə zəngin faktlar vardır. Arxiv sənədləri arasında II Yekaterinanın, knyaz Q.A.Potyomkinin məktubları, raport və sərəncamlarındakı faktlar da diqqəti cəlb edir. Rus sərkərdələrindən P.S,Potyomkinin, Qudoviçin, Sisianovun, Kotlyarevskinin, Nebolsinin və başqalarının da raportlarında, məktublarında maraqlı faktlara rast gəlmək olur.

Naxçıvan xanlığı haqqında çox qiymətli məlumatlar həmin dövrdə diplomatik fəaliyyət göstərən rus yazıçısı Aleksandr Sergeyeviç Qriboyedovun yazılarında da vardır. A.S.Qriboyedov ikinci Rusiya-İran müharibəsi dövründə aparılan danışıqlarda iştirak etdiyindən hadisələrin şahidi olmuşdur. “Qafqaz” məcmuəsində A.S.Qriboyedovun tərcümeyi-halı haqqında nəşr edilmiş sənədlər qiymətli materialla zəngindir. Həmin məcmuədəki sənədlər arasında Kəlbəli xanın, Nəzərəli xanın, Ehsan xanın və Şıxəli bəyin Rusiya hərbi xadimləri ilə məktublaşmaları vardır. Maraqlıdır ki,

---

[1] “Кавказский сборник ”, т. XXX, Тифлис, 1910.

Nəzərəli xanın və Həsən xanın siyasi xadim kimi fəaliyyəti ilk dəfə A.S.Qriboyedov tərəfindən göstərilmişdir.

Məlum olduğu kimi, 1816-cı ildə A.P.Yermolovun rəhbərliyi ilə Rusiya imperiyasının səfirliyi İrana göndərilmişdi. Həmin səfirlik və A.P.Yermolovun apardığı danışıqlar haqqında ədəbiyyatlarda geniş material olmasına baxmayaraq, nədənsə A.P.Yermolovun Naxçıvanda olması və Kəlbəli xan ilə danışıqları bu günə qədər tarixi ədəbiyyatlarda öz əksini tapmamışdır. İlk baxışda bu hadisə diqqəti o qədər cəlb etməsə də, A.P.Yermolovun başçılığı ilə İrana göndərilən nümayəndə heyətinin tərkibində iştirak etmiş Vasili Boraznanın[1], A.E.Sokolovun[2] və başqalarının[3] verdikləri məlumatlarda Yermolovla Kəlbəli xanın görüşlərindən maraqlı faktlar gətirilir. Xüsusilə Kəlbəli xanın söhbətləri daha maraqlıdır; birinci, Kəlbəli xanın sözlərindən aydın olur ki, o, hüquqi cəhətdən İrandan asılı olsa da İran şahlığına nifrət bəsləyir.; ikincisi, danışıqların gedişindən aydın olur ki, o, gözlərindən məhrum olsa da həmişə Naxçıvan xanlığının müstəqilliyinə çalışmış, xanlığın siyasi həyatında fəal iştirak etmişdir.

XVIII əsrin ikinci yarısından başlayaraq Türkmənçay (1828) müqaviləsinə qədərki dövrdə Naxçıvan baş verən ara müharibələri və yadelli işğalçılara qarşı mübarizə, birinci və ikinci Rusiya – İran müharibələri dövründə Naxçıvan xanlığının müharibə meydanına çevrilməsi xanlığın həm siyasi, həm də təsərrüfat həyatına ağır zərbə vurmuşdu. Bu müharibələr Naxçıvan xanlığında məhsuldar qüvvələrin zəifləməsinə, maddi mədəniyyət abidələrinin, o cümlədən yazılı mənbələrin məhv olmasına gətirib çıxarırdı. Bunlar da Naxçıvan xanlığına aid bir çox faktların üzə çıxarılmasına çətinlik törədir. 1936-cı ildə Tiflis şəhərində nəşr olunmuş "XVII – XIX əsrlərdə Naxçıvan əlyazmaları sənədləri"[4] mübaliğəsiz demək olar ki, Naxçıvan xanlığına aid yeganə "yerli" materialdır.

---

[1] Василий Борозна. Краткое описание путешествия Росийского императорскогопосольства в Персию в 1817 г. СПб., 1821.

[2] Дневные записки о путешествии российско-императорского посольства в Перси. В 1816-1817 годах, веденные советниом этого посольства Соколовым. М., 1910.

[3] Журнал посольства в Персию генерала А.П.Ермолова. Чтение в Императорском общестие истории и древностей российских при Московском Университета. Апрель-июнь, кн. 2, М.,1863.

[4] Нахичеванские рукописные документы XVII-XIX вв. Вах: Передняя Азия в документах (серия памяти Ю.Н.Марра), кН. I, Тбилиси, 1936.

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra hökumətin göstərişinə əsasən rus hərbi xadimləri, məmurları burada əvvələr mövcud olan vəziyyəti öyrənməklə əlaqədar bir sıra əsərlər yazmışlar ki, onlardan da bir mənbə kimi istifadə edilmişdir. XIX əsrin ikinci yarısında Naxçıvan vilayəti ilə əlaqədar məsələləri öyrənən rus alimi K.N.Nikitinin yazılarında oxuyuruq: "Rus dövlətinə birləşdirilməsindən əlli il keçsə də şəhərin görünüşü və daxili həyatı son dərəcə az dəyişmişdir"[1]. Rus şərqşünası, görkəmli tarixçi İ.P.Petruşevski yazır ki, Rusiyaya birləşdirilməsinə baxmayaraq, Naxçıvan xanlığı 1840-ci ilədək mövcud olmuşdur[2]. Bu fikirdən aydın olur ki, XIX əsrin 40-cı illərinədək Naxçıvanda keçmiş xanlıq idarə üsulu davam etmişdir. Tədqiqatçı N.Q.Boqdanova həmçinin belə bir fikrə gəlir ki, "çarizm öz ağalığının birinci dövrlərində Azərbaycanda xanlıq idarə üsulunu saxlamışdı"[3]. Beləliklə, elə qənaətə gəlmək olar ki, Naxçıvan xanlığı Rusiyaya ilhaq edilədikdən sonra yazılmış əsərlər həmin mövzunun tədqiq olunmasında ilk mənbə kimi istifadə oluna bilər. Belə əsərlərdən biri də "Naxçıvan əyalətinin statistik təsviri"[4] adlanır.1833-cü ildə nəşr olunmasına baxmayaraq bu əsər əslində Naxçıvan xanlığının Rusiyaya ilhaqından əvvəlki dövrünədək olan məsələləri də özündə əks etdirir. Ona görə də bu əsəri Naxçıvan xanlığına aid ilk mənbə kimi qəbul etmək olar.

Naxçıvan xanlığının tarixinə dair ilk mənbələrdən biri kimi İ.İ.Şopenin "Rusiya imperiyasına birləşdiyi dövrdə Ermənistan əyalətinin tarixi abidələrinin vəziyyəti" əsəri çox maraqlıdır. Əsərin müəllifinin yazdığına görə, qraf Paskevik 1829-cu ilin aprelində başlamış və 1832-ci ilin mayında başa çatdırmışdı.İ.İ.Şopen bu əsərində İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalından əvvəlki vəziyyətini də əks etdirir.

---

[1] К.Н.Никитин. Город Нахичевань и Нахичеванский уезд. Bax: Сборник материалов для описа ния местностей и племен Кафказа. Вып. II, Тифлис, 1882.

[2] И.П.Петрушевский. Система русского колониального управления в Азербайджане в I пол. XIX в.

Bax: Колониальная политика российского царизма в Азербайджане. М.-Л., 1936, стр. 8.

[3] Н.Г.Богданова. Аграрные отношения в Азербайджане в 1870-1917 гг. "Исторические записки", № 12, 1941, с. 208.

[4] Статическое описание Нахичеванской провинции, Тифлис, 1833.

Naxçıvan xanlığının tarixi və bu xanlığın Rusiyaya ilhaq edilməsi ilə əlaqədar bəzi faktlara XVIII əsrdə, XIX əsrin ikinci yarısı, XX əsrin əvvələrində yaşayıb-yaratmış rus qafqazşünaslarının əsərlərində də təsadüf etmək olar. Belə əsərlərin arasında yuxarıda adı çəkilən rus ordusunun polkovniki S.D.Burnaşevin 1793-cü ildə Kurskda nəşr olunmuş "İran Azərbaycanı vilayətlərinin təsviri və onların siyasi vəziyyəti" əsəri böyük elmi əhəmiyyət kəsb edir. Lakin inqilaba qədərki müəlliflərin əksəriyyəti Rusiya dövlətinin müstəmləkəçilik siyasətini alqışlayaraq siyasi hadisələrin təhlilini düzgün verməmiş, həmin hadisələri rəsmi sənədlərdə olduğu kimi təsvir etmiş, çarizmin Qafqazda yeritdiyi siyasətə haqq qazandırmışlar. Belə müəlliflərdən biri də akademik P.Q.Butkovdur (1775-1857)[1] P.Q.Butkov 1796-cı ildə rus ordusunun tərkibində Azərbaycana yürüşdə iştirak etmiş, müxtəlif diplomatik və hərbi-tarixi sənədlərlə tanış olmuş, yürüş zamanı topladığı əlyazmalar və sənədlər əsasında faktiki materiallarla zəngin olan qiymətli əsər yazmışdır. O da müasirlər kimi, hadisələrin izahına birtərəfli yanaşmış və göstərmişdir ki, Rusiyanın məqsədi Qafqaz hesabına ərazisini genişləndirmək deyil, yalnız Asiyada Rusiya ticarətini inkişaf etdirməkdən ibarət idi.

Cənubi Qafqazda rus çarizminin yeritdiyi siyasətlə əlaqədar bir sıra faktlara akademik N.F.Dubrovinin "Rusların Qafqazda hökmranlığı və müharibələrinin tarixi" (СПб., 1871)adlı əsərində də rast gəlmək olar. Əsərin adından göründüyü kimi, müəllif əslində çarizmin Qafqazda apardığı müharibələrin tarixini təsvir etməyi qarşısına məqsəd qoymuşdur. Ona görə də həmin əsərdə iqtisadi məsələlərə demək olar ki, yer verilməmişdir. İnqilabdan qabaq Nazçıvan əyaləti haqqında yazılan əsərlər arasında K.N.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" məqaləsini xüsusi qeyd etmək lazımdır. Məqalə 1882-ci ildə çap olunsa da müəllifin keçmiş hadisələrlə bəzi təsvirləri həmin məqalədən Naxçıvan xanlığının tarixinin öyrənilməsində istifadə etməyə imkan verir. Məsələn, müəllif Naxçıvan qəzasının sərhədləri məsələsinə toxunaraq yazır: "İranlıların, tatarların və neyalıların (Naxçıvan vilayəti-red.) sahib olduqları ərazidə Naxçıvan xanlığı yarandı. Maraqlıdır ki, verilmiş həmin sərhəd Naxçıvan

---

[1] П.Г.Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1802 гг. СПб., 1869, т. I-III.

xanlığının sərhədinə uyğundur”[1].S.P.Zelinskinin “Üç mahal” (Naxçıvan, Ordubad, Dərələyəz)[2] məqaləsi də belə əsərlərdəndir. Bu məqalədə əyalətin iqliminə, kənd təsərrüfatının vəziyyətinə, əhalinin məşğuliyyətinə və başqa məsələlərə də toxunulmuşdur.

Həmin əsərdə Azərbaycan tarixçilərinin yazılarından da istifadə edilmişdir. Onların arasında A.A.Bakıxanovun[3] və Mirzə Adıgözəlbəyin[4] adlarını xüsusilə qeyd etmək lazımdır. Hər iki müəllif öz tədqiqatlarını Şirvan və Qarabağa həsr etsələr də həmin əsərlərdə Naxçıvan xanlığına aid qiymətli faktlar vardır.

Xarici ölkələrdə, xüsusilə İranda nəşr olunmuş kitablarda isə XIX əsrin əvvələrində Cənubi Qafqazda baş vermiş hadisələri o qədər də işıqlandırmamışlar. Belə ki, İran tarixçilərindən Bina Əli-Əkbər, Əhməd Tac Bəxş və başqaları İranın Cənubi Qafqaz ərazisində apardığı müharibələrə haqq qazandırmağa çalışırlar. Rzaqulu xan Hidayət, Əbdülrazaq ibn Nəcəfqulu kimi tarixçilər isə İrandan kənarda Azərbaycan xanlıqlarının mövcud olmasını belə, inkar edirlər.

XIXəsrin 20-ci illərində Naxçıvan xanlığının və bütövlükdə Cənubi Qafqazın taleyi, habelə ikiinci Rusiya-İran müharibəsi və beynəlxalq vəziyyətlə əlaqədar məsələlər haqqında L.S.Semyonovun əsərində xeyli material vardır.[5]

Hacı Murad İbrahimbəyli “Rusiya və Azərbaycan XIX əsrin birinci yarısında”adlı əsərində Rusiya-İran müharibələrinin hər ikisini təsvir edərək Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı üzərində xüsusi dayanır. Onun əsərində nəinki Naxçıvan xanlığının,habelə bütün Şimali Azərbaycanın rus qoşunları tərəfindən işğal olunması müsbət bir hadisə kimi qələmə alınmışdır.

Naxçıvan xanlığının tarixini tədqiq edərkən yuxarıda göstərilən arxiv materiallarından, ilk mənbələrdən, rus tarixçilərinin əsərlərindən, habelə müasir tədqiqatçıların əsərlərindən əlavə, bir sıra başqa əsərlərindən də istifadə olunmuşdur.

---

[1] К.Н.Никитин. Город Нахичевань и Нахичеванский уезд.Вах: Сборник материалов для описания местностей и племен Кафказа. Вып. II,Тифлис, 1882, стр, 127.

[2] Сборник сведений о Кавказе, т. IV, Тифлис, 1880.

[3] А.А.Бакыханов. Гюлистан-и Ирам, Баку, 1991.

[4] Mirzə Adıgözəl bəy. Qarabağnamə. Bakı, 1950.

[5] Л.С.Семенов.Россия и международные отношения на Среднем Востоке в 20-е годы XIX в. Л., 1963.

*XANLIĞIN YARANMA TARİXİNDƏN*

Uzun müddət İranın hökmranlığı altında olmuş Azərbaycan XVIII əsrin ortalarında yenidən istiqlaliyyət əldə etdi. Həmin dövrdə Azərbaycan vahid dövlət deyil, siyasi cəhətdən müstəqil dövlət qurumlarından – xanlıqlarından ibarət idi.

Belə siyasi müstəqillik əldə edən xanlıqlardan biri də mərkəzi qədim Naxçıvan şəhəri olan Naxçıvan xanlığı idi. Azərbaycan xanlıqları təqribən XVIII əsrin ortalarında yaransalar da, hər bir xanlıq özünə xas uzun tarixi yol keçmişdir.

Məlum olduğu kimi, XVI əsrdə Azərbaycanın geniş ərazisində mərkəzi Təbriz şəhəri olan Səfəvilər dövləti yaranmışdı. Bu dövlət yarandığı gündən Osmanlı Türkiyəsinə qarşı apardığı uzun sürən müharibələrdə döyüş meydanına çevrilmiş Naxçıvan diyarı gah Osmanlı Türkiyəsinin, gah da Səfəvilərin əlində olmuşdur. 1554-cü ildə Osmanlı qoşunları Səfəvi dövlətinin ərazisinə 12-ci dəfə yürüş etdilər. Tarixi mənbələrdə bu yürüş "Naxçıvan yürüşü" adlanır. Düşmənin bu yürüşünün qarşısını ala bilməyəcəyini başa düşən Səfəvi şahı I Təhmasib öz qoşunlarını geri çəkmişdi. Naxçıvan əhalisinin əksəriyyəti də şah qoşunları ilə birlikdə Naxçıvanı tərk etməyə məcbur olmuşdu.

1554-cü il iyulun 28-də Naxçıvan şəhərini ələ keçirən Türkiyə sultanı I Süleymanın qoşunları şəhəri yerlə yeksan etdilər. Lakin türk əsgərləri üçün ərzağın və atlara yemin çatışmaması üzündən işğalçılar tezliklə şəhəri tərk etməli oldular. Naxçıvanı tərk edərkən türk əsgərləri Sultan I Süleymanın əmri ilə şəhəri yandırdılar.

Türk qoşunları şəhərdən çıxıb getdikdən sonra, Naxçıvanda bərpa işləri başlandı. Şah II İsmayılın dövründə (1576-1577) Şərəf xan Bidlisi Naxçıvanın hakimi təyin edildi. Lakin onun hakimliyi uzun sürmədi. 1578-ci ildə o, 400 nəfərə yaxın adamı ilə Bidlis şəhərinə gələrək orada möhkəmləndi. Çünki bu dövrdə türk qoşunlarının Azərbaycana və Gürcüstana yeni yürüşü başlanmışdı. Mustafa Lələ paşanın başçılığı ilə Osmanlı qoşunları müvəffəqiyyət qazanaraq bir sıra şəhərləri, o cümlədən Naxçıvanı ələ keçirsələr də obyektiv səbəblər üzündən tezliklə şəhəri yenidən tərk etməyə məcbur oldular.

İradəcə zəif olan Şah Məhəmməd Xudabəndinin (1578-1587) hakimiyyəti dövründə Səfəvi dövləti inzibati cəhətdən parçalandı. Ölkə bir neçə bəylərbəyiliklərə bölündü. Bu zaman Naxçıvan əyaləti qızılbaş tayfalarından olan kəngərlilərin irsi mülkiyyətinə çevrildi.

XVI əsrin axırlarında Naxçıvan şəhəri yenidən Osmanlı ordusunun işğalına məruz qaldı. Sultan III Muradın hakimiyyəti dövründə Naxçıvandan və onun ətrafından 40000 nəfər əsir alınıb Türkiyəyə aparıldı. Fərhad paşanın komandanlığı altında 1588-ci ildə Naxçıvana yürüş edən Osmanlı qoşunları şəhəri təkrar talan etdilər.

1590-cı ildə səfəvilərlə osmanlılar arasında bağlanmış müqaviləyə görə Azərbaycanın bir sıra torpaqları ilə yanaşı, Naxçıvan da Türkiyənin işğal zonasında qaldı. Türk komandanlığı şəhərin coğrafi baxımdan strateji əhəmiyyətini nəzərə alaraq, Naxçıvanı özlərinin əsas müdafiə məntəqələrinə çevirdi və ən seçmə qüvvələrini burada saxladı. Naxçıvanın idarəsi Xıdır paşaya tapşırıldı.

1603-cü ildə Səfəvilərlə Osmanlılar arasında yenidən müharibə başlandı. Bu dəfə qələbə çalan Səfəvi qoşunları Təbrizdən türk əsgərlərini qovduqdan sonra Naxçıvan istiqamətində hərəkət etdilər. Naxçıvanda yerləşən türk qarnizonu müqavimət göstərə bilməyib şəhəri tərk etdi. Bu qələbədən sonra Səfəvilər dövlətinin taxtında atasını əvəz edən I Şah Abbas xüsusi qoşunun başında Naxçıvan daxil oldu.

Beləliklə, müəyyən fasilədən sonra Naxçıvanda yenidən qızılbaşların hakimiyyəti bərpa olundu. Lakin bu heç də naxçıvanlıların rifah halının yaxşılaşmasına gətirib çıxarmadı. Naxçıvanda yenə də İran feodallarının istismarı bərpa edildi. Bu isə geniş xalq kütlələrinin narazılığına səbəb oldu. Yerli əhalinin qəzəbindən ehtiyat edən I Şah Abbas Naxçıvan əhalisinin doğma torpaqlarından Fərhadabada köçürülməsi barədə fərman verdi. Əhalinin çox hissəsi bu köçürülmədən yayınmaq üçün şəhəri tərk edərək əlçatmaz yerlərə çəkildi. I Şah Abbas strateji əhəmiyyətini nəzərə alaraq, Naxçıvan şəhərinin İran ordusu üçün müdafiə məntəqəsinə çevrilməsi haqqında göstəriş verdi..Şah öz yaxın adamı Sultan Maqsudu Naxçıvana hakim təyin etdi.

Səfəvi qoşunları Naxçıvanla yanaşı, həmkinin osmanlılardan geri alınmış Təbriz, İrəvan və digər şəhərlərdə də möhkəmləndilər. Lakin Osmanlı imperiyasının hakim qüvvələri yaranmış vəziyyətlə barışmaq istəmədiklərindən, yenidən Səfəvilər üzərinə hərbi yürüşə

başladılar. Bu yürüşdə Osmanlı qoşunlarına Sinan paşa Ciqaloğlu komandanlıq edirdi.

I Şah Abbas düşmənin gözlənilməz hücumunun qarşısınıalmağa hazır olmadığından Araz çayının sol sahilindəki ərazilərin boşaldılması və yerdə qalan ərzağın məhv edilməsi haqqında sərəncam verdi ki, gələcəkdə osmanlılar buradan İrana qarşı müdaxilə məqsədləri üçün istifadə edə bilməsinlər. I Şah Abbasın əmri ilə Naxçıvan diyarının əhalisi İranın içərilərinə köçürüldü. Mənbələrə əsaslanan professor İ.P.Petruşevski yazır ki, 1605-ci ildə Naxçıvan bölgəsində 70 minə qədər yerli əhali İranın cənub-şərqinə köçürülmüşdü.[1]

Əhaliyə divan tutan şah ordusu, həm də Naxçıvanda türk əsgərlərinin daldalana biləcəyi tikintiləri darmadağın edirdi. Mənbələrdə deyilir ki, Naxçıvandan Vana qədər bir ev də olsun salamat qalmamışdı.

Tezliklə Ömər ağanın komandanlığı altında türk ordusu müqavimətə rast gəlmədən Naxçıvanın xarabalıqlarına sahib oldu. Ərzaq və yem olmadığı üçün işğalçılar çox ciddi çətinliklər qarşısında qaldılar. Qışın yaxınlaşması və ərzaqın çatışmaması türk qoşunu içərisində narazılığı artırdı. Əmirgünə xanın nbaşçılığı altında Səfəvi ordusu bu vəziyyətdən istifadə edərək əks-hücuma keçdi və ciddi müqavimət görmədən qələbə çaldı. Bu hadisə haqqında müasirlərindən biri belə yazır: “I Şah Abbas Əmirgünə xanı çoxlu döyüşçülərlə Ömər ağanın üzərinə göndərdi. Əmirgünə xan cəsarətlə vuruşaraq Ömər ağanı qətlə yetirdikdən sonra onun qoşununa ağır zərbə endirdi. O, öldürülmüş türk əsgərlərinin başlarını əsirlərlə birlikdə öz qoşunları ilə Təbriz ətrafında düşərgə salan I Şah Abbasa göndərdi”.

Naxçıvana hakim təyin edildikdən sonra Əmirgünə xan bərpa işlərinə başladı. Lakin şəhərdə aparılan bərpa işləri tam başa çatmadı. 1635-ci ildə Türkiyə sultanı IV Murad Naxçıvanı yenidən işğal etmək üçün Mehmet paşanın komandanlığı altında buraya qoşun göndərdi. XVII əsrdə Naxçıvanda olmuş türk səyyahı Övliya Çələbi yazır ki,türklər tərəfindən tutulduqdan sonra “həmin yerlər insanların yaşadığı gözəl məskənlərə çevrildi, şəhəri 10 min böyük ev bəzəyirdi, şəhərdə məscid və ibadət yerlərinin sayı 70-ə çatır, 40 məhəllə məscidi, 20 qonaq evi, 7 hamam, 1000 dükan var. Minarələrin əksəriyyəti

---

[1] И.П.Петрушевский. Иран в XVII в. Вах: История Ирана с древних времен до конца XVIII века. Л., 1958, стр. 277.

çox gözəldir... Bir sözlə, cənnətə bənzər gözəl məscidlər çoxdur. Xüsusilə Əhməd Paşa Ciqaloğlu, Nadir Cəfər paşa məscidləri daha gözəldir. Həmin məscidlər çox gözəl bəzədilmişdir. İstanbul minarələrinə bənzər 33 minarəsi var”[1].

Səfəvilərlə osmanlılar arasında bağlanılmış sülh müqaviləsinə əsasən (1639) XVII əsrin 40-cı illərindən başlayaraq Azərbaycan ərazisində gedən müharibələr dayandığından, XVII əsrin ilk üç onilliyindən fərqli olaraq, ölkədə bərpa işləri xeyli genişlənmişdi, əhali dinc quruculuq işlərinə başlamışdı.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, Övliya Çələbi həmin dinc quruculuq illərində Azərbaycana gəldiyindən hər yerdə tez-tez gördüyü tikintilər haqqında belə məlumat verirdi. Əslində isə IV Sultan muradın qoşunları Naxçıvanın işğalı zamanı nəinki əhalini soyub talamış,həm də şəhəri yandırmışdılar. Fransız səyyahı Taverniye Sultan Muradın qoşunları tərəfindən Naxçıvanın xarabazarlığa çevrilməsi haqqında yazır ki, Naxçıvan öz dövrünə görə iri şəhərlərdən biri idi. Lakin IV Sultan Muradın qoşunları tərəfindən darmadağın edildi. Gözəl məscidlərin xarabalıqları görünürdü. Onlar Osmanlı ordusu tərəfindən dağıdılmışdı[2]. Azərbaycanda, o cümlədən Naxçıvan vilayətində Osmanlı ordusunun törətdiyi dağıntılar məhsuldar qüvvələrə ağır zərbə vurdu. Naxçıvanda İran hakimiyyəti bərpa edildikdən sonra, feodallar və yerli hakimlər quruculuq işləri əvəzinə diqqətlərini əsasən vergilərin yığılmasına yönəltdilər.

Azərbaycanın bir sıra yerlərində, o cümlədən Naxçıvandakı quraqlıq nəticəsində dəhşətli aclıq baş verdi.

Ərzağın qiyməti son dərəcə artdı. Nəticədə əhali arasında artan narazılıqlar bir çox hallarda açıq çıxışlara gətirib çıxardı. Belə hallarda əhali feodalların malikanələrini dağıdır, özlərini isə qətlə yetirirdilər.

İran ağalığı bərpa edildikdən sonra, Naxçıvanda yerli kəngərli tayfasından Rzaəddin xan (1647), Şərif xan (1678), Məmmədrza xan (1691) hakimiyyətdə olmuşlar.

XVII əsrin axırıncı rübündə Naxçıvanda təsərrüfatın nisbi yüksəlişi hiss olunurdu. Hadisələrin şahidi olmuş fransız səyyahı J.Şarden 1672-ci ildə yazırdı: “Naxçıvan dağıdılmış böyük şəhər idi. Onu

---

[1] Эвлия Челеби. Книга Путешествия. Вып. 3, М., 1982, стр. 114-115.
[2] R.A.Məmmədov. Naxçıvan şəhərinin tarixi oçerqi (orta əsrlər dövrü). Bakı, 1977, səh. 137.

xarabalıqlardan tədricən bərpa olunan, əhalisinin sayı artan adlandırmaq olar". Əgər əvvəllər "... onun divarları arasında 30 minə qədər ev vardısa, XVII əsrdə Naxçıvanda olan evlərin sayı 20 minə enmişdir".

XVIII əsrin 20-ci illərində Səfəvilər dövləti əfqan qəbirlərinin zərbəsi altında süqut etdi. İşğalçılar hətta dövlətin mərkəzi İsfahan şəhərini də zərb etdilər. Bundan istifadə edən Rusiya İranın Xəzər boyu əyalətlərini işğal edərək Rəşt şəhərinə kimi gəlib çıxdı. Səfəvilər dövlətinin zəifləməsinə Türkiyə dövləti də biganə qala bilmədi. 1723-cü ildə Osmanlı Türkiyəsinin yeni hücumları nəticəsində Naxçıvan şəhəri, habelə Naxçıvan əyaləti ciddi dağıntıya məruz qaldı. Türk əsgərləri heç bir müqavimətə rast gəlmədən Cənubi Qafqaz və Azərbaycanın cənubunun böyük bir hissəsini işğal etdilər.

Yalnız XVIII əsrin 20-ci illərinin sonundan başlayaraq dirçəlməkdə olan İran dövləti cənubdan İsfahanı zəbt etmiş əfqan qəbilələrinə zərbə endirdikdən sonra, Azərbaycan ərazisini türk əsgərlərindən təmizləməyi qərara aldı.

Xarici işğalçılarla döyüşə rəhbərliyi, həömin dövrdə öz fitri istedadı ilə fərqlənən, İran ordusunun baş sərkərdəsi Nadirqulu xan öz üzərinə götürdü. Az bir müddət ərzində ordu və xalq arasında böyük nüfuz qazanan Nadirqulu xan yerli əhalinin köməyi ilə türk əsgərlərini Azərbaycanın cənubundakı bir çox şəhərlərdən sıxışdırıb geriyə atdı. Marağa, Təbriz və Ərdəbil şəhərləri artıq 1731-ci ildə Səfəvilərin əlində idi. Nadirqulu xanın qoşunları Naxçıvan və İrəvan istiqamətində hərəkət edərkən Xorasandan gələn üsyan xəbəri qoşunlarına qarşı müvəffəqiyyətli əməliyyat aparmağa imkan vermədi. Məhz buna görə də Nadirqulu xan üsyanı yatırmaq məqsədi ilə qoşunların bir hissəsini götürüb Xorasana getməyə məcbur oldu.

Nadirqulu xanın nüfuzu artdığı halda, həmin dövrdə iradəsiz şah II Təhmasib tamamilə hörmətdən düşmüşdü. O özünü qoşun və xalq arasında doğrultmaq məqsədi ilə Naxçıvan və İrəvanı türk qoşunlarından azad etmək üçün hərbi əməliyyata başladı. Lakin II Təhmasib məqsədinə nail ola bilmədi; döyüş yenə də məğlubiyyətlə öz razılığını bildirdi. Beləliklə, 1732-ci il yanvar ayının 16-da Kirmanşah şəhərində İranla Türkiyə arasında müqavilə imzalandı. Müqaviləyə görə bir sıra şəhərlərlə yanaşı, Naxçıvan da Türkiyənin işğal zonasına daxil oldu.

Üsyanı yatırdıqdan sonra Xorasandan qayıdan Nadirqulu xan yerli saray əyanlarının iştirakı ilə II Şah Təhmasibi taxtdan salıb, onun səkkiz aylıq körpə oğlunu formal olaraq şah elan etdi. Əslində isə, özü azyaşlı şahın qəyyumu kimi, faktiki olaraq İranın vahid hakimi oldu.

Nadirqulu xan ilk növbədə 1732-ci ildə Osmanlı Türkiyəsi ilə II Şah Təhmasibin bağladığı müqavilənin şərtlərini pozaraq 1723-cü ildən bəri osmanlılar tərəfindən işğal edilmiş ərazilərin geri qaytarılmasını tələb etdi. Lakin Türkiyə sultanı bu tələbi rədd etdi. Belə olduqda Türkiyə ilə İran arasında hərbi əməliyyat bərpa olundu. Ciddi zərbələrə məruz qalan türk əsgərli zəbt etdikləri Azərbaycan ərazisindən tədricən geri çəkilməyə məcbur oldular.

1736-cı ildə azyaşlı III Şah Abbas müəmmalı şəkildə həlak oldu.Beləliklə, Səfəvilərlə sülaləsinə son qoyuldu və hakimiyyəti ələ almaq üçün Nadirqulu xanın qarşısında maneə qalmadı.

1736-cı ildə Nadirqulu xanın tacqoyma mərasimi keçirildi. O, İran şahı elan edildikdən sonra dövlətin idarə olunmasında və inzibati quruluşunda ciddi dəyişikliklər apardı. Nadir şah Səfəvi inzibati-ərazi bölgülərini-bəylərbəyilikləri ləğv etdi. Azərbaycan ərazisində Şirvan, Qarabağ (Gəncə), Təbriz və Çuxur-Sədd bəylərbəyiliklərini ləğv edib, vahid Azərbaycan vilayəti adı altında bir mərkəzdə-Təbriz ətrafında birləşdirdi. Şah vilayətin idarəsini qardaşı İbrahim xana həvalə etdi. Bundan əlavə hər yerdə yerli hakimlər Nadir şahın yaxın adamları ilə əvəz olundu.

Nadir şahın tacqoyma mərasiminin iştirakçısı katolikos Abram Kreatsi bu məsələ ilə əlaqədar yazmışdı: "Nadir şah öz qardaşını rəis və sərdar, yəni Azərbaycanın sərəskəri təyin etdi. Naxçıvanı, Şirvanı, bütün Ararat vilayətini, Gürcüstanın idarəsini qardaşına tapşırmaqla onu bəylərbəyi kimi bütün digər xanların başçısı təyin etdi"[1].

Hakimiyyətinin ilk günündən Nadir şahın əmri ilə şəhərlərin hamısında dövlətin mədaxilinə nəzarət etmək üçün üç nəfər mirzə-vəkil təyin edildi. Birinci mirzə-vəkil digər iki nəfərin razılığı ilə dövlətin mədaxilinə, məxaricinə, maliyyə işlərinə rəhbərliyi həyata keçirirdi. İkinci şəxs mədaxilin və məxaricin siyahısına nəzarət etməklə, həmin sənədi özündə saxlamalı idi. Üçüncü isə müstövfi adlanırdı ki, o da bütün hesabların düzgünlüyünə nəzarət edirdi. Nadir

---

[1] Абрам Кретаци. Повествование. Ереван, 1973, стр. 244.

şahın bu yeni qaydalarında məqsədi bir tərəfdən vergilərin yığılması sahəsində intizamı artırmaq idisə, digər tərəfdən feodal istismarını gücləndirməkdən ibarət idi. Bu yeni qaydalar nəticəsində mərkəzdə və eləcə də əyalət, şəhər və kəndlərdə aclıq və bahalıq daha da artırdı.

Nadir şahın siyasətinin məntiqi nəticəsi idi ki, bir çox şəhərlərdə,kəndlərdə və ətraf yerlərdə, o cümlədən Muğanda, Təbrizdə, Gəncədə, Qazaxda, Loridə, Gürcüstanda, Göyçə sahillərində, Qafanda, Naxçıvanda, İrəvanda aclıq və bahalıq baş alıb gedirdi.

Nadir şah vergilərin toplanmasına böyük əhəmiyyət verirdi. Bu sahədə ən kiçik qüsura yol vermiş adamı ciddi cəza gözləyirdi. Bəzən şahın belə hərəkətlərinə laqeyd yanaşan məmurlar gəlir əldə etməkdən savayı heç bir şey haqqında fikirləşmirdilər. Bu cəhətdən Naxçıvan hakimi Mirzə Rzanın hərəkətlərini misal göstərmək olar. Mənbələrin verdiyi məlumata görə, erməni katolikosu Abram Kretats Muğan qurultayından sonra Nadir şahın hüzurunda Mirzə Rzanın hərəkətlərini ifşa edərək demişdi: "Sən Naxçıvan torpağını məhv etmiş, rəiyyətlərdə mal-dövlət qoymamısan... sən hazırda Naxçıvan vilayətində 1000 tümən rüşvət almısan. Əgər şah əmr etsə, mən səndən hesabat tələb edərəm, çünki rəiyyətlərin pulu ya onlara qaytarılmalıdır, ya da şaha verilməlidir. Nə üçün sən o pulları mənimsəmisən?"

Mirzə Rza həqiqətən Naxçıvanda özbaşınalıq edirdi. O, 82 kənddən vergi yığdığı halda, yalnız 32 kəndin 700 tümən həcmində vergisini xəzinəyə vermişdi. Nadir şah ona üç gün müddətində bütün vergilərin xəzinəyə təhvil verilməsini əmr etmişdi. Bununla kifayətlənməyən şah ona cəza verdikdən sonra vəzifədən kənarlaşdırmışdı.

Nadir şahın daxili siyasəti təbii olaraq, geniş xalq kütlələrinin nifrətinə səbəb oldu. Azərbaycanın başqa yerlərində olduğu kimi Naxçıvanda da əhali ikiqat zülm altında inləyirdi. Şəhərlilər vəkəndlilər bir tərəfdən yerli feodallar, digər tərəfdən xarici işğalçılar soyurdular. Məhz buna görə idi ki, yerli əhalinin bir hissəsi feodal istismarından yayınmaq məqsədilə doğma yurdlarını tərk edərək əlçatmaz yerlərdə sığınacaq tapırdılar. Naxçıvan bölgəsində Kəngərli tayfasının bəzi nümayəndələri mərkəzə tabe olmadıqları üçün şah tərəfindən uzaq yerlərə - Əfqanıstana köçürüldülər. Kəngərlilərin tabesizliyi Nadir şahda şübhə oyatdığı üçün bu tayfaya o qədər də etibar etməyib, başqa yerlərdən fərqli olaraq, Naxçıvan əyalətini idarəetmək üçün buraya həmintayfadan iki hakim təyin etdi: birinci

hakim-e ölke-yi Naxçıvan (Naxçıvan ölkəsinin hakimi), ikincisi hakim-e tümən-e Naxçıvan və ya kəngərli tayfa başçısı və süvari bölməsinin rəisi. Onlardan başqa Naxçıvan ölkəsinin idarəsində vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər. Arxiv sənədlərindən məlum olur ki, bu dövrdə Naxçıvan ölkəsində kəngərli tayfasının aşağıdakı qolları məşhur idi: Qızıllı,Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli, Qarabağlar və b. Yeri gəlmişkən onu da qeyd edək ki, Nadir şah hələ hakimiyyət başına gəlməzdən əvvəl, sərkərdə olduğu zaman da kəngərli tayfasının nüfuzlu nümayəndələrinə şübhə ilə baxırdı. Təsadüfi deyildir ki, Nadir 1736-cı ildə Muğanda tacqoyma mərasimini keçirərkən orada tayfa başçısı Vəliqulu xan Kəngərli yox, Muğan qurultayında Naxçıvanın nümayəndəsi kimi İrandan göndərilmiş, özünün qəddarlığı ilə seçilən Mirzə Rza iştirak etmişdi. Mirzə Rza Nadir şah tərəfindən cəzalandırıldıqdan sonra bir daha Naxçıvana qayıtmadı. Böyük miqdarda rüşvət alan şahın qardaşı İbrahim xan onu gizlətdi.

Naxçıvan ölkəsinin müvəqqəti hakimi Ağa Həsən təyin olundu. Lakin o da yerli əhali ilə fərqlənmədi. Ağa Həsənin zülmündən cana gəlmiş yerli əhali silaha əl atmağa məcbur olurdu. Həmin hadisəni qələmə alan salnaməçi bu barədə belə yazmışdır: "...ölkə dilənçi vəziyyətinə düşmüşdür. Valideynlər öz uşaqlarını satmağa məcbur olurdular. Lakin alıcı tapılmırdı. Bəziləri hətta arvadını, oğlunu və qızlarını qoyub başqa ölkələrə qaçırdılar... Nadir şah uşaqları qul edib satırdı" .

Nadir şah baş vermiş üsyanları çox qəddarlıqla yatırırdı. Tarixi ədəbiyyatda Cənubi Qafqazda Nadir şahın siyasətinəqarşı baş vermiş kütləvi çıxışlar haqqında geniş məlumat vardır. Naxçıvanda baş vermiş çıxışlar haqqında son zamanlar Moskvada nəşr olunmuş bir əsərdə belə bir yazı verilmişdir: "Nadir çox qəddarlıqla üsyanı yatırdı. O, İrəvan xanına tapşırdı ki, Naxçıvanda əhalinin əhval-ruhiyyəsini öyrənsin. Bu məqsədlə o, yerlilərdən 33 nəfərlə söhbət apararkən çox hiyləgərliklə öyrənib ki, onlar azadlıq barədə düşünürlər və bu haqda o, Nadir şaha xəbər vermişdi. Nadir şah əmr etmişdi ki, onun siyasətindən narazı olanların gözləri çıxarılsın və əmlakları müsadirə edilsin. Bəzi imkanlı şəxslər iranlı sərbazlara pul verməklə bir gözlərini saxlamışdır". Göz çıxarmaq Nadir şahın ən "sevimli" cəzası idi. O hətta şübhələndiyi doğma oğlunun da gözlərini çıxartdırmışdı.

Lakin güclü rəqiblərə baxmayaraq xalqın narazılığı artmaqda davam edirdi. Ağır istismar ölkədə silahlı üsyanlara gətirib çıxarırdı. 1743-cü ildə Şirvanda baş vermiş üsyan yatırıldıqdan sonra, 1746-1747-ci illərdə Azərbaycanı, Gürcüstanı yeni üsyanlar bürüdü.

1747-ci il mart ayının 15-də Rusiyanın İrandakı səfiri M.M.Qolitsin yazırdı: "İndiki zamanda İran əyalətlərinin hamısında qorxulu vəziyyət yaranmışdır. Gəncədə, İrəvanda, Naxçıvanda, Tiflisdə əhali pul cərimələrindən cana gəlmiş, kiçikdən böyüyədək, hətta yerli hakimlər qiyam qaldırır, var-dövlətləri və mal-qarası ilə dağlara çəkilirlər"[1]. Kim bilir Əfşar zadəganları tərəfindən sarayda törədilmiş sui-qəsd nəticəsində Nadir şah öldürülməsəydi xalqın taleyi necə olacaqdı.

1747-ci ildə Nadir şahın dövləti süquta uğradıqdan sonra kəngərli tayfa başçısı Heydərqulu xan yerli feodallara arxalanıb, Ağa Həsəni hakimiyyətdən uzaqlaşdıraraq özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi.

XVIII əsrin ortalarında Azərbaycan ərazisində yaranan 18 xanlıqdan biri də Naxçıvan xanlığı oldu.

---

[1] Ф.М.Алиев. Ширванское восстание 1743 г. Изв. АН Азерб.ССР, 1967.

## *XANLIĞIN SOSİAL - İQTİSADİ VƏZİYYƏTİ (XVIII əsrin II yarısı – XIX əsrin I rübü)*

Azərbaycanın gözəl guşələrindən biriolan Naxçıvan diyarı təbii sərvətinin zənginliyi ilə hələ qədimdən geniş şöhrət tapmışdı. Uca dağlar, əlçatmaz qayalar, otlaqlarla zəngin vadilər və dərələr, coşqun dağ çayları, gümüşü bulaqlar, min bir xəstəliyin dərmanı olan mineral sular ona xüsusi gözəllik verir.

Zəngəzur kəndindən başlamış Araz çayı vadisinə qədər uzanan geniş ərazidə yerləşən Naxçıvan xanlığı, Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edirdi. Dağlar xanlığı sanki qala kimi əhatə etmişdi. Belə ki, şimal-qərbdən Dərələyəz dağları, cənub-şərqdən İlanlıdağ, şimal-qərbdən isə uzaqdan görünən Böyük və Kiçik Ağrı dağları Naxçıvan xanlığının sərhədləri boyu ucalırdı. Naxçıvan xanlığı İrəvan, Qarabağ, Xoy, və Maku xanlıqları ilə həmsərhəd idi.

Qarababaçay adı ilə məşhur olan çay öz mənbəyini Zəngəzur sərhədindəki Salvartı dağlarından götürür. Bu çay Naxçıvan düzənliyi ilə uzanıb Naxçıvan şəhəri yaxınlığından axdığından Naxçıvan çayı adlanır və Araza tökülür. XIX əsrin əvvəllərində Abbasabad qalası bu çayın töküldüyü yerdə tikilmişdi.

Naxçıvan xanlığı ərazisində çox da böyük olmayan üç çay axırdı: Naxçıvan çayı, Əlincə çayı və Gilançay. Bunlardan başqa da dörd kiçik çay vardı: Urlusçay, Vənəndçay, Nukədiçay və Ordubad çayı. Bu çayların ətrafında yaşayan əhali su cəhətdən korluq çəkmirdi. Lakin yay aylarında çayların suyu azaldığından və hətta tamam quruduğundan əkinlər çox vaxt sudan korluq çəkirdi.

Naxçıvan xanlığının relyefi, təbii-coğrafi şəraiti əhalinin təsərrüfat həyatında, məşğuliyyətində və bütövlükdə ictimai həyatında həlledici rol oynadığı üçün bu məsələlərin də tədqiqi müəyyən əhəmiyyət kəsb edir. Lakin onu da qeyd etməliyik ki, coğrafi şərait ictimai inkişafda həlledici rol oynamasa da, cəmiyyətin inkişafını sürətləndirə və ya ləngidə bilir.

Naxçıvan xanlığında əhalinin nisbətən sıxlıq təşkil etdiyi yerləri üç qrupa bölmək olar: birinci qrupa Naxçıvan şəhəri daxil olmaqla Naxçıvan çayının mənsəbinə doğru uzanan ərazi; ikinci qrupa daxil

olan ərazi Culfadan başlayaraq, Ordubaddan keçməklə Gilançay boyunca davam edərək Mehri istiqamətinə qədər gəlib çatırdı. Üçüncü qrupa isə əhalisi nisbətən az olan ərazi – Əlincə çayı boyunca uzanan sahə daxil idi. Naxçıvan xanlığının qalan ərazisi meşəsiz, hər cür bitkidən məhrum və susuz yerlər idi.

Rus tarixçisi S.P.Zelinski Naxçıvan xanlığının xarici görünüşü təsvir edərək yazırdı: "Susuz şoran çöllər, müxtəlif formada olan dağ qayalıqları, dərə-təpəli sahələr, gözəl otlaq yerləri, təsəvvüredilməz düzənliklər, səs-küylü saysız-hesabsız vadilər və dərələrdən axan və yayda tamamilə quruyan dağ selləri bu uzaq guşənin xarici aləmini özündə əks edir"[1].

Naxçıvan xanlığının hava şəraiti də müxtəlif idi. Xanlığın şiumalında soyuqlar tüğyan etdiyi halda, Araz çayı boyunda günəşin yandırıcı şüaları təsərrüfatın normal inkişafına mənfi təsir göstərirdi. Bütün Araz vadisi Naxçıvan və Ordubada qədər ölü bir sahəni xatırladırdı. Lakin təbii hadisələr xanlıqda təsərrüfatın inkişafina mane olan əsas amil deyildi. Bu sahədə obyektiv səbəblər daha çox özünü göstərirdi.

Tədqiq edilən dövrdə Naxçıvan xanlığında əhəmiyyətli siyasi hadisələr baş vermişdi. Belə ki, feodal müharibələri, xarici düşmənlərə qarşı mübarizə, daxili saray çəkişmələri xanlığın iqtisadi inkişafını ləngidən əsas amillərdən idi.

Deyilənlərə birinci (1804-1813) və ikinci (1826-1828) Rusiya-İran müharibələrinin vurduğu ziyanlar da əlavə edilsə, Naxçıvan xanlığının iqtisaqi inkişaf sahəsində nə kimi çətinliklərlə rastlaşdığını təsəvvür etmək olar. Bu hadisələr nəinki Naxçıvan xanlığında iqtisadi inkişafa mane olurdu, hətta Naxçıvan xanlığının ərazi bölgüsündə də tez-tez dəyişikliyə məruz qalmasına gətirib çıxarırdı. Məlum olduğu kimi, 1797-ci ilə qədər Naxçıvan xanlığı müstəqil dövlət qurumu idi. Bu dövrdə xanlığın ali hakimi xan özü idi ki, qalan feodalların hamısı ona tabe idilər. Ona görə də bürokratik qanunvericilik aparatı tamamilə xanın əlində cəmləşmişdi. Xan "...xanlığı öz mülkiyyəti kimi idarə edirdi". Lakin İran hakimiyyəti dövründə (1797-1828) xanlığın idarə olunmasında tamamilə başqa vəziyyət yarandı. Naxçıvan xanlığı Cənubi Azərbaycanın tərkibinə daxil edildi. Şahzadə Abbas Mirzənin Cənubi Azərbaycanı idarə etdiyi zaman

"başqa xanlıqlarda olduğu kimi, Naxçıvan xanlığında da ilkin ödənci kim daha böyük məbləğdə ödəyirdisə, xanlıq da ona verilirdi"[2]. Ona görə də xan hakimi mütləq hesab olunurdu. O, yerli idarə orqanlarına istədiyi adamları təyin edə bilir, həm də xanlığı istədiyi kimi idarə edirdi. Naxçıvan xanları vergilərdən topladıqları gəlirdən əlavə, eyni zamanda şah tərəfindən də müəyyən məbləğ almağa da nail

---

[1] С.П.Зелинский. Три магала (Нахичеванский, Ордубадский и Даралагезский). Географическо-статистическое и сельскохозяйственное описание. "Сборнил сведений о Кафказе", т. VII, Тифлис, 1880.

[2] Статитическоеописание Нахичеванской правинции, стр. 51.

olurdu. Lakin belə güzəştlər xanların hamısı üçün eyni deyildi. Şah vəzifəli şəxslərə çox nadir hallarda xəzinədən maaş verirdi. Naxçıvan xanlarına gəldikdə isə güman etmək olar ki, şah məcburiyyət qarşısında, onları əldə saxlamaq üçün belə bir addım atırmış. Mənbələrdən birində deyilir: "Abbas Mirzə hər dəfə xanı təyin edərkən ona qızıl suyuna çəkilmiş və platinlə bəzədilmiş yəhər də bağışlayırdı. Bundan başqa xan şahın idarəsini yerinə yetirirdisə, o zaman əlavə olaraq şah hər bayramda ona təzə xələt və qiymətli kəmər bağışlayırdı" [1].

Lakin bununla belə şah və şahzadə Naxçıvan xanlarının hamısından razı deyildi. Təkcə bunu qeyd etmək kifayətdir ki, Ağa Məhəmməd xan 1797-ci ildə Kəlbəli xanın gözünü çıxartdırsa da, Naxçıvan xanlığının taxtında oturanlar İran hökümətini qane etməmiş, nəticədə Kəlbəli xan həmin hadisədən sonra fasilələrlə daha üç dəfə Naxçıvan xanlığına hakim təyin edilmişdi. Bu onu göstərir ki, şah və şahzadə Naxçıvan xanlarına etibar etmirdilər. Ona görə də Naxçıvan xanlığının idarə olunması üçün əksər hallarda yuxarıda qeyd edildiyi kimi, kəngərli tayfalarından olan iki nəfər feodal təyin olunurdu. Onlardan biri xanlığın iqtisadiyyatını idarə edən əsas sima idi, digəri isə xanlığın qoşunlarına rəhbərlik edir, tayfanın və ordunun rəisi hesab olunurdu. "Xanlığın idarə edilməsi üçün feodallardan biri şah tərəfindən təyin edilirdi və əsas hakim hesab olunurdu, digəri tayfaların rəisi və kəngərli tayfasının vəkili hesab edilirdi. XIX əsrin əvvəllərində Naxçıvanın əsas hakimi Kəlbəli xan, tayfanın rəisi isə Lütfəli Sultan idi"[2].

İran tərəfindən işğal edilməzdən əvvəl (1797), Naxçıvan xanlığı inzibati cəhətdən mahallara bölünmüşdü. Xanlığın mərkəzi şəhəri Naxçıvan idi. Xanlığın paytaxtında digər məmurlar da yaşayırdılar. İran hakimiyyəti illərində (1797-1828) buranın idarə olunmasını

[1] Yenə orada, səh. 52.
[2] Нахичеванские рукописаные документы, стр. 10.



**Naxçıvan xanlarının gerbi.**
**"Qafqazgerbləri toplusu". Moskva. 2000.**




*Naxçıvan xanlığı XVIII əsrin II yarısında.*

asanlaşdırmaq məqsədilə Cənubi Azərbaycana hakim təyin edilmiş şahzadə Abbas Mirzə Naxçıvan xanlığını Naxçıvan və Ordubad dairələrinə bölünmüşdü. Həmin dairələr isə öz növbəsində mahallara bölünürdü. Naxçıvan dairəsinə Əlincə, Xok və Dərələyəz mahalları daxil edilmişdi. Ordubad dairəsi isə bu mahallardan ibarət idi: Ordubad, Əylis, Dəstə Çalanapek və Bəlləv.

Naxçıvan xanlığında bəzi hallarda ərazi – inzibati bölgüsündə dəyişiklik aparılsa da, xan məmurlarının idarəçilikdə olan imtiyazları əvvəlki dövrdə olduğu kimi qalırdı.

Naxçıvan xanlığında əsas vəzifələrdən biri mahalları idarə edən mirzəbəyilər idilər. Onların əsas vəzifəsi kənd təsərrüfatı məsələləri və əhalidən vergilərin yığılması ilə əlaqədar xanın əmrlərini yerinə yetirməkdən ibarət idi. Onlar xanın əmrini alan kimi öz mahallarında olan kəndliləri bir yerə yığır və onların arasında vəzifə bölgüsü aparırdılar. Onlar kəndlilərdən lazım olan hər şeyi alırdılar. Belə ki, "kənd təsərrüfatı işlərinə rəhbərlik etdikləri üçün aldıqları maaşdan başqa hər il 20 tüməndən 50 tümənə qədər pul və 5 xalvardan 10 xalvara qədər taxıl, habelə toy mərasimləri dövründə isə müxtəlif hədiyyələr alırdılar" [1].

Mahallar kəndxudalar tərəfindən idarə olunan kəndlərə bölünürdü. Kəndxudaları kənd icması seçirdi. Seçilmiş kəndxudalar xan tərəfindən təsdiq edildikləri üçün həmişə ona minnətdar olardılar. Kəndxudalardan baş vermiş hadisə və yeniliklər haqqında yazılı iltizam alırdılar. Bu, əsas etibarilə yerlərdə yeni işçi qüvvəsinin peyda olması və yaşına görə vergi verən gənclərin siyahıya alınması ilə əlaqədar idi. Əgər bu və ya digər şəxsi izlətmək halları meşahidə edilirdisə, o zaman kəndxuda gümüş pulla yüz manatdan iki yüz manata qədər cərimə verməli idi. Bəzi hallarda kəndxudalar yol verdikləri günaha görə fələqqə cəzasına da məruz qalırdılar. Xanlıqda polis idarəsi iki nəfərə etibar edilirdi. Onlardan biri darğa, ikincisi isə əsasbaşı adlanırdı. Darğalara yüzbaşılar və onbaşılar tabe idilər. Darğalar qayda - qanun yaradır, xüsusilə bazarlara nəzarət edirdilər. Belə ki, bazarlarda qiymətləri təyin edir və baş vermiş mübahisələri yoluna qoyurdular. Darğalara xan tərəfindən maaş verilmirdi. Maaşın əvəzində onlara hər dükandan ayda gümüş pulla 15 qəpik almağa icazə verilirdi. Darğalar ərzaq məhsullarını bazardan pulsuz

[1] Нахичеванские рукописание документы. Стр. 53.

alırdılar. Dargaların vəzifəsi təkcə bazarı intizama salmaqla bitmirdi. Dargaların təsir dairəsi daha geniş idi. Ona görə də onlar imtiyazlarından özləri üçün istifadə edirdilər. Şəriət qanunlarının yerinə yetirilməsinə nəzarət etdikləri üçün onlara qeyri-məhdud imtiyazlar da verilirdi. Əgər kimsə zorakılıq, ədalətsizlik və ya əxlaqsızlıqda təqsirləndirilsəydi, dargaya icazə verilirdi ki, həmin adamı istədiyi şəkildə cəzalandırsın və ya ondan cərimə alsın.

Digər polis rəisinin - əsasbaşının vəzifəsinə şəhərin və bazarın gecə vaxtı qorunması daxil idi. Əsasbaşı da maaş əvəzinə hər dükandan ayda gümüş pulla 15 qəpik almaq hüququna malik idi. Həmin pulla, o həm də köməkçiləri olan gözətçiləri maddi cəhətdən təmin edirdi. XIX əsr tədqiqatçısı S.Yegiazarov yazırdı ki, muzdla tutulmuş gözətçilər gecələr sakitliyi qorumaq üçün həm şəxsən, həm də əmlakları ilə cavabdeh idilər.

Xan özünün mülki və polis işlərini eşikağası vasitəsilə həyata keçirirdi. Eşikağası xanın ən yaxın köməkçisi idi. Xanın yanına bu və ya digər məsələnin həlli üçün gələnləri əvvəlcə eşikağası qəbul edir və məsləhət bildikdə onları xanın yanına aparırdı. Eşikağası mir-bölüklərin, kəndxudaların və məliklərin də xanın hüzuruna buraxılıb- buraxılmamasını həll edirdi. Onların əksəriyyəti, əsasən, kəndlərdə baş vermiş hadisələr və yaxud vergilərin toplanmasının vəziyyəti barədə məlumat vermək üçün şəhərə gəlirdilər.

Vəzifəli şəxslər içərisində mirabların da özünəməxsus yeri var idi. Belə ki, onlar həm şəhərdə, həm də kəndlərdə suyun bölüşdürülməsinə nəzarət edirdilər. Mirablar maaş əvəzinə sudan istifadə edənlərdən 15 batman taxıl və ya yarım batman pambıq alırdılar. Əldə edilən məlumatdan aydın olur ki, Naxçıvan çayından çəkilən arxın suyundan istifadə edən ətraf kəndlərin əhalisi miraba "hədiyyə" kimi ya heyvan, ya taxıl və yaxud başqa məhsullar verirdilər.

Tədqiq olunan dövrdə Naxçıvan xanlığının iqtisadiyyatı üçün natural təsərrüfat xüsusilə xarakterik idi. Başqa Azərbaycan xanlıqlarında olduğu kimi burada da həlledici amil feodal istehsal üsulu idi. Naxçıvan xanlığında iqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi; əsas istehsal vasitəsi torpaq idi. Şərqin müsəlman ölkələrində olduğu kimi, Azərbaycan xanlıqlarında da beş növ torpaq mülkiyyəti mövcud idi:

1. Dövlət (xəzinə) torpaqları. Belə torpaq mülkiyyəti divani adlanırdı. Lakin əvvəlki əsrlərdən fərqli olaraq XVIII əsrin ikinci

yarısında Azərbaycan xanlıqlarında dövlət torpaqları tədricən əvvəlki əhəmiyyətini itirərək bir növ xanın şəxsi mülkiyyətinə çevrilmişdi. İ.P.Petruşevski Azərbaycanda feodal münasibətlərini öyrənərək belə qənaətə gəlmişdir ki, XVIII əsrin ikinci yarısında dövlət torpaqları ilə xan ailəsinin torpaqları birləşdirilib vəhdət təşkil etmiş və beləliklə də "... şəxsi torpaq sahibliyi divan torpaqları hesabına artmışdır"[1]. Bu torpaqlar xanın və xan ailəsi üzvlərinin varlanmasına şərait yaradırdı. Əksər hallarda divan torpaqları xanın razılığı ilə hər hansı şəxsə bu və ya digər xidmətinə görə tiyul hüququnda istifadəyə verilirdi.

Tiyul hüququ Naxçıvan xanlığında təkcə kənd yerlərinə deyil, həmçinin şəhərə də şamil edilirdi. Torpaqdan tiyul hüququ əsasında istifadə edən şəxs tiyul adlanırdı. Tiyuldar ona verilmiş torpaqlardan və sahələrdən öz şəxsi mülkiyyəti kimi istifadə edirdi. Tiyul torpaq sahələri tiyuldar vəfat etdikdən sonra yenidən xəzinəyə qaytarılırdı. Bu o deməK idi ki, tiyul hüququ nəsildən-nəslə keçmirdi. Lakin verilən torpaqdan toplanılan vergilərə tam sahib olmaqda ona mane olmurdu. Tiyuldar əldə edilmiş məhsulun müəyyən hissəsi xəzinəyə göndərməli idi. Azərbaycanın digər xanlıqlarından fərqli olaraq Naxçıvan xanlığında əkin sahələrindən əldə edilən məhsuldan alınan vergi bəhrə adlanırdı. Bəhrə tiyul torpaqlarında toplanılan məhsulun onda üç hissəsini təşkil edirdi.

2. Xan ailəsinə məxsus torpaq sahələri xalisə adlanırdı. Öyrəndiyimiz dövrdə faktiki olaraq həmin torpaqlar nominal xarakter daşıyırdı.

3. Mülk torpaqları. Ayrı-ayrı feodallara – mülkədarlara məxsus torpaq sahələri belə adlanırdı. Mülk şəxsi mülkiyyət olmaq etibarilə satıla da bilərdi, nəsildən-nəslə keçə də bilərdi.

4. Məscidlərin, pirlərin və bu kimi dini ocaqların ixtiyarında olan torpaqlar vəqf adı ilə məşhur idi.

5. Kənd icmasına məxsus torpaq sahələri camaat torpağı adlandırılırdı.

Kənd təsərrüfatının, xüsusilə əkinçiliyin vəziyyəti barədə ümumi təsəvvür yaratmaqdan ötrü, hər şeydan əvvəl, xanlıqda əkinçiliyə

[1] И.П.Петрушевский. Персидский официальные документы начала XIX в. Как источник для источник феодальных отношений в Азербайджане. "Проблемы источниковедения", т. Ш, 1940, стр. 34.

yararlı torpaq sahələri müəyyənləşdirilməlidir. Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycanın başqa xanlıqları kimi, Naxçıvan xanlığının torpaq sahələri barədə dəqiq məlumat yoxdur. Naxçıvan ölkəsinin tədqiqatçılarından K.N.Nikitin bu məsələyə toxunaraq yazır ki, xanlığın torpaqlarının beşdə bir hissəsi becərilməməsi səbəbini suyun çatışmaması ilə izah edir.

Təkcə bunu demək kifayətdir ki,Şahtaxtından Araz çayına qədər və Naxçıvan çayının yuxarı axarından Culfaya qədər nə bir çay, nə də bir arx var idi. K.N.Nikitinin yazdığı kimi, bu torpaqlar yarasız olduğu üçün yox, su çatışmadığı üçün becərilmirdi. Lakin torpaqların becərilməməsi səbəbini təkcə bununla izah etmək olmaz. Başqa səbəblər də vardır: ilk növbədə qeyd etmək lazımdır ki, xanlığın ərazisinin müəyyən hissəsini dağlıq təşkil etdiyinə görə, kəndlilər feodal tərəfindən verilmiş hər qarış torpağı təbiətlə mübarizə şəraitində becərməli olurdu. İkinci, unudulmamalıdır ki, əhalinin müəyyən hissəsi yarımköçəri həyat tərzi keçirdiyindən, torpaqların becərilməsi ilə demək olar ki, məşğul olmurdu.

XVIII əsr Azərbaycan tarixinin tədqiqatçılarından V.N.Leviatov yazır ki, yaylaqdan qışlağa, qışlaqdan yaylağa köçən maldarlar bütün dövrlərdə oturaq həyat sürən əhali üçün bir növ bədbəxtlik gətirirdilər. Belə ki, yaylağa gedərkən və ya yaylaqdan qayıdarkən elatlar yolların üstündə olan bağları və əkinləri məhv edir, geri gəldikdə kəndləri də talayırdılar. Maldarlar arasında oturaq əhaliyə nisbətən daha çox oğrular və talançılar əmələ gəlirdi ki, onlar da öz hərəkətləri ilə oturaq əhali içərisində qorxu və həyəcan yaradır, onlarda sabaha inam qoymurdular. Ona görə də hadisələr ölkənin ümumi iqtisadi vəziyyətinə pis təsir edirdi.

Dağ kəndlərində yaşayan əhalinin əsas məşğuliyyəti maldarlıq idi. Düzən yerlərdə isə maldarlıq əhalinin ikinci məşğuliyyəti hesab olunurdu. Naxçıvan xanlığında feodal təsərrüfatının iki müxtəlif iqtisadi forması – oturaq əkinçilik və yarımköçəri maldarlıq səciyyəvi idi, bu da kəndlilərdən çoxlu vergilərin alınmasına gətirib çıxarırdı.

Kəndlilərdən alınan vergilərin sayı və miqdarı müxtəlif idi. Vergilərin müxtəlifliyi, ilk növbədə, iqlim şəraitindən və tez-tez baş verən feodal ara müharibələrinin vurduğu zərərdən asılı idi. Məlum olduğu kimi, XVIII əsrin ikinci yarısında Azərbaycanın bütün xanlıqları çox ağır siyasi şəraitlə qarşılaşırdılar. Tez – tez baş verən hərbi yürüşlər, saray çevrilişləri kəndli təsərrüfatına da ağır zərbə

endirirdi. Belə bir şəraitdə feodallar istər-istəməz yaşayış mənbəyi olan kəndli əməyini qorumağa məcbur idilər.

Xanların belə yumşaqlığı feodal istismarının ağırlığını heç də yüngülləşdirmirdi. Kəndlilər – rəiyyətlər, rəncbərlər və elatlar qoyulan vergiləri verməyə məcbur idilər.

Rəiyyətlər kənd icması tərəfindən ayrılmış torpağı becərir və əldə etdiyi məhsulun onda birindən beşə bir hissəsinə qədərinə ona verməyə məcbur olurdular.

Rəiyyətlər nəinki torpaqların becərilməsi ilə məşğul olur, həm də feodal torpaqlarında bir sıra tikintilərdə işləyirdilər. Rəiyyət feodaldan aldığı əmək alətlər, toxum və s. üçün də əldə etdiyi məhsulun müəyyən hissəsini ona verməyə məcbur olurdu.

Kəndlilərə hüquqi cəhətdən becərdikləri feodal torpaqlarını atıb başqa yerlərə getməyə icazə verilirdi. Lakin təcrübədə çox nadir hallarda bu cür köçmələr baş tuturdu. Belə hallar bir sıra çətinliklərlə qarşılaşırdı ki, bu da rəiyyətlərin könüllü şəkildə köçməklərinə imkan vermişdi; köçməzdən əvvəl rəiyyət öhdəsinə düşən bütün işlərin başa çatmasını gözləməli, torpaqla bağlı bütün mükəlləfiyyətlər yerinə yetirməli, başqa bir yerə köçəcəyi barədə əvvəlcədən feodala xəbər verməli, öz borclarını və vergiləri vaxtında ödəməli idi.

Beləliklə, yuxarıda deyilənlərdən aydın olur ki, faktiki olaraq şəriət tərəfindən kəndlilərin şəxsi azadlığı nəzərdə tutulsa da əslində feodal torpağına təhkim olunurdular. Kəndlilərin hüquqi cəhətdən torpağa təhkim olunmaları rəsmi sənədlərdə öz əksini tapmasa da əslində rəiyyətlərin taleyini xanlar həll edir, torpaqlarla birlikdə rəiyyətlər də bəylərin ixtiyarına verilirdi.

Rəncbər qrupuna məxsus kəndlilər daha ağır vəziyyətdə yaşayırdılar. Nə torpağı, nə də əmək aləti olmayan rəncbərlər xan, sultan, məlik, bəy və digər feodal torpaqlarında işləyir və əldə edilmiş məhsulun adətən üçdə bir hissəsini alırdılar. Torpaqdan məhrum rəncbərlər faktiki olaraq bir qarın çörəkdən ötrü öz əməklərini satmağa məcbur idilər. Rəncbərlərin əməyindən nisbətən ağır işlərdə - çəltikçiliklə, pambıqçılıqda və ipəkçiliklə bağlı təsərrüfat işlərində istifadə edilirdi. Əslində rəncbərlər üzərində feodal hüququ heç nə ilə məhdudlaşdırılmırdı. Belə ki, feodal rəiyyətdən fərqli olaraq rəncbəri torpaqla birliklə adamlara, xüsusilə vəzifə sahiblərinə həmişəlik verə bilərdi. Bəzən bu və ya digər vəzifəli şəxs xidmətdən

getdikdən sonra onun ixtiyarındakı rəncbərlər həmin vəzifəyə yeni təyin edilmiş şəxsə verilirdi.

Rəncbərlər müxtəlif vergiləri ödəməklə yanaşı, həm də torpağı şumlamalı, məhsul yığmalı və digər işləri yerinə yetirməli, həmçinin çəltik plantasiyalarını becərməli, çəltiklikləri artırmalı, təsərrüfat üçün ağac məmulatları hazırlamalı, odun gətirməli və kənd təsərrüfatı məhsullarını lazımı yerə çatdırmalı idilər.

Rəncbərlərin çoxalmasına bir sıra amillər təsir göstərirdi. Bəzi hallarda aclığa məruz qalan və iflasa uğrayan rəiyyət özünün kiçik torpaq sahəsini satmağa məcbur olurdu. Beləliklə, rəiyyət hesab olunan kəndli rəncbərə çevrilirdi. Bəzən başqa ölkələrdən və xanlıqlardan köçmüş maldarlar və ya qaçqın kəndlilər də rəncbərə çevrilirdilər.

Bəzi hallarda xanlar münbit torpağı olan rəiyyətdən torpağı ucuz qiymətə almaqla sabiq torpaq sahibini rəncbərə çevirir və onları öz torpağında işləməyə məcbur edirdilər. Son dərəcə az gəlir əldə edən rəncbərlər öz ailələrini dolandıra bilmir və yaranmış vəziyyətdən yaxalarını qurtarmaq üçün yeganə vasitəsini qaçmaqda görürdülər.

Kəndlilərin digər qrupu olan elatlar da rəiyyətlər və rəncbərlər kimi müəyyən vergi verməli və mükəlləfiyyət daşımalı idilər. Başqa xanlıqlardan fərqli olaraq Naxçıvan xanlığında hakim feodallar, xüsusilə kəngərli tayfasının nümayəndələri sarayda tutduqları vəzifələrdən sui-istifadə edərək elatları özlərinin şəxsi xidmətçilərinə çevirir, onlardan qulam və ya mülazim kimi istifadə edirdilər.

XVIII əsrin 60-cı illərinin sonlarında bu hadisə o qədər adi hala çevrilmişdi ki, hətta elat ağsaqqalları həmin dövrdə müəyyən dərəcədə Naxçıvan xanlığına təsir edə bilən İran hakimi Kərim xan Zəndə yazılısurətdə şikayətlə müraciət etməyə məcbur olmuşdular. Şikayət məktubunda deyilirdi: "Bizim zadəganlar (bəyzadələr) bəzi kəndliləri və elatları apararaq özləri üçün qulamlara çevirirlər. Onlar qoymurlar ki, köçərilər öz peşələri ilə məşğul olsunlar. Heç vaxt görünməyib ki, kəndli qulam olsun. Xahişimiz budur ki, ədalətli fərman verəsiniz ki, bir daha kəndlilər və köçərilər qulamlara və mülazimlərə çevrilməsinlər. Kim nəslən qulamdırsa və ya pulla alınmışsa, yaxud başqa ölkədən gəlmişdirsə qoy o da qulam olsun. Naxçıvan ölkəsində kəndlilər və köçərilər heç zaman qulam olmamışlar və ona görə də onları qulam etmək olmaz".

Kərim xan Zənd Naxçıvan ağsaqqallarının xahişinə əməl etmiş və naxçıvanlılara cavab məktubu göndərmişdi. Əlbəttə, başqa cür ola da bilməz. Çünki İranın şimalında və Cənubi Azərbaycanda öz hakimiyyətini gücləndirə bilməmiş Kərim xan Zənd istəmirdi ki, həmin bölgədə narazılıq artsın, əhali arasında çəkişmə yaransın. Ona görə də Kərim xan Zənd Naxçıvan ağsaqqallarının şikayət məktublarına yazılı şəkildə cavab verməklə ağsaqqallar arasınd öz nüfuzunu artırmağa cəhd göstərirdi.

Yuxarıda göstərildiyi kimi, xanlığın təbəələri xəzinə üçün tələb olunan vergiləri məcburi verməli və hər cür mükəlləfiyyəti yerinə yetirməli idilər. Vergi və mükəlləfiyyətlər kəndlilər kimi şəhər əhalisinə də aid edilirdi. Naxçıvan xanlığında feodal rentası aşağıdakı formada mövcud idi:

Şəxsi vergilər (can vergisi). a) Baş pulu: Əsasən 15 yaşına çatmış şəxsdən ildə bir dəfə gümüş pulla 1 manat 20 qəpik alınırdı. Bu vergidən heç kəs yayınmasın deyə şəhər və kəndlərdə yeni peyda olmuş şəxs haqqında kəndxudalar divana mütləq məlumat verməli idilər. Əks təqdirdə kəndxudanı ciddi cəza gözləyirdi.

b) Ev pulu (tüstü pulu): Bu vergi toplanılarkən evlilərlə subaylar arasında heç bir fərq qoyulmurdu. Yalnız qadınlardan və uşaqlardan ev pulu alınmırdı. Hər kişidən ildə gümüş pulla 1 manat 20 qəpik, hər evdən isə gümüş pulla 20 manat alınırdı.

Torpaqla əlaqədar vergilər. Bu vergi buğda ilə ölçülürdü. Naxçıvan xanlığında bu vergi bəhrə adlanırdı. Bəhrə taxılçılıqla məşğul olan bütün rəiyyətlərüçün məcburi vergi idi. Naxçıvan xanlığında bəhrə o qədər geniş vüsət tapmışdı ki, natura ilə alınan bütün vergilər xalq arasında bəhrə adlandırılırdı. Bu vergi, adətən, aşağıdakı şəkildə toplanırdı: məhsul yığılıb qurtardıqdan sonra sahibkarın və ya onun inanılmış adamlarının iştirakı ilə taxıl bölüşdürülürdü... Bu bölgü məhsul yığıldıqdan sonra üç gündən gec olmayaraq həyata keçirilməli idi. Əgər kəndli sahibkarın mülkünün yaxınlığında yaşayırdısa, bəhrə üç gündən gec olmayaraq sahibkara çatdırılmalı idi. Əgər sahibkar həmin yerdən uzaqda yaşayırdısa, o zaman bəhrə çöl işləri qurtardıqdan sonra ödənilirdi.

"Naxçıvan vilayətinin statistik təsviri" kitabında bəhrə barədə dəqiq məlumat verilmişdir. Burada deyilirdi ki, natura halında yalnız taxıldan bəhrə alınırdı. Hər il məhsul yığımından sonra xan öz nökərlərini kəndə göndərirdi ki, yığılmış məhsulun miqdarını müəyyənləşdirsinlər.

Heç kimin ixtiyarı yox idi ki, xanın icazəsi olmadan yığılmış məhsula sahib çıxsın. Taxılın qiyməti müəyyənləşdirildikdən sonra məhsul aşağıdakı qaydada bölüşdürülürdü. Xəzinə torpaqlarından toplanmış məhsulun hər 10 hissəsindən 3,5 hissəsi xanın, qalanı isə torpağı becərənlərin payına düşürdü. Mülkədar torpaqlarından toplanmış məhsulun 1,5 hissəsi mülkədarın, 2 hissəsi xəzinənin, qalan hissəsi torpağı becərənin payına düşürdü. Bəhrənin iki hissəsi buğda ilə, bir hissəsi isə arpa ilə ödənilirdi.

Natura halında toplanan verginin miqdarı bəzən vergi toplayan məmurların özbaşınalığından artırılırdı.

Mal – qara üçün vergi (gümüş pulla)

| | |
|---|---|
| Camış üçün | 1 man. |
| İnək üçün | 50 qəp. |
| Ulaq üçün | 50 qəp. |
| Dişi ulaq üçün | 1 man. 20 qəp. |
| Yük daşıyan at üçün | 2 man. 20 qəp. |
| Dişi at üçün | 1 man. |

Minik atları heç bir gəlir gətirmədiyindən sahibi vergidən azad olunurdu. Taxılın əkilib-becərilməsində iştirak edən öküz və kəllər üçün də vergi alınırdı.

Qoyun sahibi hər baş qoyun üçün bir pənahabad[1] və yaxud 20 qəpik gümüş pul verməli idi[1].

İqtisadiyyatının əsas sahəsini maldarlıq təşkil edən xanlıqlarda maldarlar heyvanlarını dövlətə məxsus çəmənliklərdə otardıqları üçün xəzinəyə çöpbaşı adlı xüsusi vergi verməli idilər. Maldarlardan eyni zamanda çobanbəyi adlanan vergi də toplanılırdı. Bu vergi mal – qaranın feodal torpaqlarında otarılması üçün alınırdı. Dəqiq məlumatın azlığından Naxçıvan xanlığında çöpbaşı və çobanbəyi kimi vergilərin miqdarını müəyyənləşdirmək mümkün olmasa da, İ.Şopenin XIX əsrin əvvələrində yazdığı Naxçıvan xanlığına aid əsərlərindən istifadə edərək, bu barədə müəyyən təsəvvür yarada bilərik. İ,Şopenin əsərində maldarların həyatı və onların verdikləri vergi barədə bəzi maraqlı dəlillərə də rast gəlirik. Onun yazdıqlarından məlum

[1] Şuşada kəsilmiş pul vahidi. "Pənahabad", daha sonra "pənəbad" adlandırılırdı. Bu pul vahidi bütün xanlıqlarda işlədilirdi.

olur ki, maldarlar müxtəlif vergilərlə yanaşı, hər yüz qoyun keçidən xana müəyyən miqdarda pay verməli idilər. Bundan başqa maldarlar xana yağ, yun və başqa məhsullar da verirdilər. İ,Şopenin əsərində oxuyuruq: "...maldarlardan alınan vergilərdən başqa sərdar öz mal – qarasını saxlamaq üçün də elatlardan yem alırdı[1]. Bundan əlavə, hər bir elat ildə sağılan bir baş qoyuna görə yarım batman yağ, sağılan və sağılmayan qoyunlara görə isə müəyyən miqdarda yun verməli idi"[2].

Yuxarıda göstərilən vergilər Naxçıvan xanlığında yaşayan bütün maldarlara aid edilirdi. Yalnız kəngərli tayfasından olan elatlar bu ödənclərdən azad idilər. Bu da səbəbsiz deyildi. Müharibə baş verdikdə onlar kəngərli tayfasının süvari dəstələrini təşkil edirdilər. Bu tayfa, əsasən üç vergidən azad edilmişdi: tüstüpulu, başpulu və maldarlığa aid vergilər.

Pul ilə ödənilən vergilər. Natural təsərrüfatın hökm sürdüyü dövrdə Naxçıvan xanlığının rəiyyətləri bəzi vergiləri pulla da ödəyirdilər. Pul ilə vergi, əsasən şəhər əhalisindən alınsa da kəndlilər də bu vergidən yaxa qurtara bilmirdilər. Pul ilə vergi aşağıda göstərilən hallarda alınırdı:

1. Mancanaq pulu – bu vergi dəzgahlarda ipək toxuyan hər bir sənətkardan alınırdı.

2. Toxucu pulu – bütün il boyu toxuculuqla məşğul olan sənətkar xəzinəyə 4 manat 80 qəpik, yalnız qış aylarında bu sənətlə məşğul olan şəxs isə dövlətə 2 manat 40 qəpik verməli idi. Toxuculuqla qış aylarında əkin sahələrində işləməyən kəndlilər də məşğul olurdular.

3. Bağ pulu – həmin vergini şəhərdə və şəhər həndəvərində bağı olan şəhərlilər verirdilər.

4. Bayramlıq – xüsusilə Novruz və Qurban bayramları zamanı həm şəhər, həm də kənd əhalisindən alınırdı.

5. Toyxərci – həmin vergi həm xan evində, həm də rəiyyətin evində toy olarkən xəzinəyə verilirdi.

6. Dəyirman pulu – şəhər və kənd əhalisi dəyirmandan istifadə etdiyi üçün 2 tümən və ya 8 manat pul verməli idi.

[1] И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, стр. 1127.
[2] Yenə orada.

7. Hamamdan, karvansaradan və dükan binalarından istifadə etmək üçün də müəyyən vergi ödənilirdi.

8. Tacirlər və sənətkarlar xəzinəyə ildə 400 tümən vergi verməli olurdular.

9. Şəhərdə satmaq üçün mal gətirən tacir bütün vergilərlə yanaşı, gözətçi pulu da verməli idi.

10. Pambıq, çəltik, darı və digər kənd təsərrüfatı məhsulu satan şəxs də xəzinəyə nağd pul verirdi.

11. Bir xalvar saman üçün gümüş pulla 1 manat vergi alınırdı.

12. Üzüm və meyvə bağlarından gümüş pulla 6 manat vergi toplanılırdı.

13. Dövlət torpaqlarından otlaq kimi istifadə edən şəxs xəzinəyə ildə 6 manat gümüş pul verməli idi.

Rəiyyət qeyd edilən vergilərlə yanaşı, mükəlləfiyyət də daşımalı idi. Mükəlləfiyyət iki şəkildə olurdu – biyar və əvariz.

Kənd təsərrüfatı vergiləri kəndlilərin dolanışığını xeyli ağırlaşdırırdı. Xarici işğalçıların və feodal ara müharibələrinin təsərrüfata vurduğu ziyanların kəndlilərin iqtisadi vəziyyətini ağırlaşdırmasına baxmayaraq, xanın vergiyığanları, darğalar və digər məmurlar rəiyyəti vergini qamçı gücü ilə verməyə məcbur edirdilər. Lakin kəndlilər yaşamaq xatirinə ağır işgəncələrə dözür, yeganə yaşayış mənbəyi olan torpaqdan ayrıla bilmirdilər. XVIII əsrin axırıncı rübündə kəndlilərin ağır vəziyyətinin şahidi olmuş səyyah Marşal fon Biber.teyn yazırdı: "Aramsız müharibələr və əhalinin narahatlığı əkinçiliyə mənfi təsir göstərsə də, kəndlilər torpaqları becərməyə məcbur olurdular"[1]. Kəndlilər əkin dövründə, həmçinin məhsul yığımı zamanı bir sıra çətinliklərlə qarşılaşırdılar; onları hər an xaricdən təhlükə gözləyirdi. Bəzən hazır məhsul xarici işğalçılara qismət olurdu. Daim gedən müharibələr və soyğunçuluq kəndliləri həmişə silah saxlamağa məcbur edirdi. Hətta cüt sürən, toxum səpən kəndlilər üstlərində xəncər, yaxınlıqda isə silah saxlamağa məcbur olurdular[2]. Torpağın xüsusiyyətinin müxtəlifliyi ilə bağlı Naxçıvan kəndliləri cüt və kotandan istifadə edirdilər. Cütə bir və ya iki öküz qoşaraq, nisbətən

---

[1]Маршал фон Биберштейн. Описание провинций расположенных на левом берегу Каспийсого моря между реками Терек и Кура (перевод с фран. С.Ашурбейли), Научный Архив Ин-та Истории АН, док. 467, стр. 36.

[2]Yenə orada.

yumşaq yerləri, kotanla isə daşlıq yerləri şumlayırdılar. Torpağın suvarılmasına gəldikdə qeyd etməliyik ki, yalnız düzən olmayan yerlərədə kiçik kannallar – arxlar çəkilirdi. Dağlıq hissədə isə əkinçilər əsasən dəmyə əkirdilər. O dövrdə cüt əkinçilik üçün əlverişli əmək aləti idi. Cütdən əsasən feodal təsərrüfatlarında istifadə olunurdu.

Cüt ucuz və yüngül əmələ gəldiyi üçün kəndlilər tədricən əkinçilikdə cütdən istifadə etməyə başladılar. Lakin Naxçıvan xanlığında kəndlilərin hamısına cütdən istifadə etmək nəsib olmurdu. Dağlıq hissədə isə cütdən və işlək heyvanlardan istifadə etmək mümkün deyildi. Ona görə də kəndlilər yamac hissələrdə torpağı daha primitiv alətlərlə - kətmən və bellə şumlayırdılar.

Naxçıvan xanlığında əsas kənd təsərrüfatı sahəsi taxılçılıq idi. Taxılçılıqla demək olar ki, əhalinin əksəriyyəti məşğul olurdu. Hətta bəzən maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər.

Naxçıvan diyarında yazlıq və payızlıq taxıl əkilirdi. Payız əkini sentyabr ayında başlayır, Novruz bayramından yüz gün keçdikdən sonra, təqribən iyun ayının ortalarında yığılırdı. Yazlıq buğda isə mart ayının axırında əkilir, payızlıq taxıldan iki həftə sonra yığılırdı. İşğaldan əvvəl Naxçıvan xanlığında yığılan taxıl təqribən 10 min xalvara bərabər idi.

Çəltik əsasən Naxçıvan mahalında: şəhərdə və Şıx Mahmud, Xəlili, Kültəpə, Uzunoba, Həsənağa, Didiovar, Nəzərabad, Xalxal, Şahbuz, Qarababa, Cəhri, Təzədən, Nehrəm kəndlərində, Əlincə mahalında (Əbrəqunis, Culfa,Çəmənlik, Saltaq, Xanağa, Kəşkənd) və Dərələyəzin qərb hissəsində əkilirdi. 1828-ci ildə Naxçıvan xanlığında çəltik məhsulu 10 min puda bərabər olmuşdur.

Kənd təsərrüfatı məhsulları içərisində pambıq xüsusi yer tuturdu. Pambıq feodallara daha çox gəlir verirdi. Pambıq Dərələyəzdən başqa demək olar ki, bütün mahallara əkilirdi. Əsasən Naxçıvan mahalında: Yarımca, Şıx Mahmud, Xəlili, Kültəpə, Oruc, Uzunoba, Həsənağa, Didovar, Nəzərabad, Əznayird, Süst, Bulqan, Qaraquna, Hasan, Qoşadiz, Tunbul, Yamxana, Təzədən, Qızılvəng, Nehrəm kəndlərində; Xok mahalında isə bütün kəndlərində; Əlincə mahalının isə Arazin, Əbrəqunis, Culfa və Şüküd kəndlərində əkilirdi.

Kənd təsərrüfatı sahəsində Naxçıvan xanlığı əhalisinin əsas məşğuliyyətlərindən biri də bağçılıq idi. Dağ kəndlərindən başqa digər kəndlərin əhalisi bağçılıqda da məşğul olurdu. Dağ kəndlərində yayın

qısa olması və qışın sərt keçməsi bu kəndlərdə bağçılıqla məşğul olmağa ikman vermirdi. Bağçılığın əsasını meyvəçilik və üzümçülük təşkil edirdi.

Naxçıvan kəndlərinin iqtisadi həyatında bostançılığın da özünə məxsus yeri var idi. Bostançılıqla Yarımca, Şıx Mahmud, Xəlili, Qulubəydizəsi, Kültəpə,Orucdizəsi, Uzunoba, Həsənağa dizəsi, Syurab, Didovar, Nəzərabad, Mirzə, Cəhri, Qoşadiz, Tunbul, Yamxana, Təzəkənd, Nehrəm, Arazin, Əbrəqunis,Xanağa, Saltaq, Bənənyar, Culfa, Şərur və s. kəndlərin əhalisi məşğul olurdu. 1828-ci ildə bütün xanlıq üzrə 50 xalvar torpaq sahəsində bostan əkilmiş və buradan yarım milyon puda qədər bostan məhsulu toplanmışdı. Yalnız Dərələyəzin dağlıq hissəsində az miqdarda kətan becərilirdi.Kətandan nəinki təkcə yağ alınır, həm də toxuculuqda istifadə olunurdu.

Əhali ipəkçilikdən də böyük gəlir əldə edirdi. Xanlığın düzənlik yerlərindəki kəndlərdə tut ağaclarının cərgəsi genişləndirilirdi ki, onlarla da ipək qurdları yemlənilirdi.

Naxçıvan xanlığının düzənlik ərazilərində təbii otlaqlar olmadığından əhali süni biçənəklər yaratmağa çalışırdı.Şumlanmış sahələrdə xüsusilə ot-yonca əkirdilər. Yonca atlar üçün ən yaxşı yem sayılırdı.

Öküzlərdən və kəllərdən torpağın şumlanmasında və qoşqu məqsədi ilə istifadə edilirdi. Atlardan və qatırlardan minik kimi istifadə olunurdu. Göründüyü kimi, Naxçıvan xanlığının iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tuturdu. Bu təsərrüfatda əsas rolu əkinçilik və maldarlıq oynayırdı. Lakin bu, heç də sənətkarlığın və ticarıtin əhəmiyyətini azaltmırdı.

Sənətkarlıq və ticarət haqqında danışmazdan əvvəl Naxçıvan xanlığında olan şəhərlər haqqında qısa məlumat vermək lazımdır. Tədqiq olunan dövrdə Naxçıvan xanlığında əsasən iki şəhər – Naxçıvan və Ordubad şəhərləri həm siyasi və həm də iqtisadi baxımdan əhəmiyyət kəsb edirdi.

Naxçıvan şəhəri xanlığın mərkəzdə idi. Bu şəhər haqqında tarixçi V.M.Sısoyev yazırdı: "Təbii ki, Naxçıvan çox qədim şəhərdir. Şəhər X əsrə qədərki dövrdə salınmışdır. Bəlkə də daha qədimdir. Onun sonrakı tarixini qısa sözlə xarakterizə etmək olar. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi"[1].

---

[1]В.М.Сысоев. Древности Нахичеванской АССР, отдельный оттиск из 4-го выпуска Известий Азкомстариса, Баку, 1928.

XVIII əsrin birinci yarısında Naxçıvan şəhəri iki dəfə dagıdılmışdı. 20-ci illərdə şəhər Osmanlı qoşununun hücumuna məruz qalmışdı. Osmanlı qoşunları 1735-ci ilə qədər şəhəri öz əllərində saxlamışdılar. Bir qədər sonra isə Nadir şah tərəfindən şəhər xarabalığa çevrilmişdi. Hətta "daş üstündə daş" belə qalmamışdı. Ancaq əvvəlki vəziyyətdə olmasa da şəhər sonralar bərpa edilmişdir.

XVIII və XIX yüzilliklərdə şəhər özünün əvvəlki gözəlliyini yenidən itirmişdi. Birinci Rusiya-İran müharibəsi başa çatdıqdan sonra, 1813-cü ildə Naxçıvana gəlmiş məşhur səyyah Qaspar Druvil yazırdı: "Naxçıvan çox acınacaqlı vəziyyətə görünür. Burada yalnız bir-birinin üzərinə tökülmüş dağıntılar nəzəri cəlb edir. Güman etmək olar ki, bir daha şəhər öz əvvəlki vəziyyətinə qayıtmayacaqdır"[1].

Tarixçi K.Engelqart da həmin fikri bir növ təsdiq edərək yazmışdı ki, Naxçıvan qədimdə çox böyük şöhrətə malik idi. Onun divarları arasında 30 minə qədər ev var idi. Öz əhalisininsayına və iqtisadi imkanlarına görə fərqlənirdi.

XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan iqtisadi və siyasi pərakəndəlik Naxçıvanın da inkişafına öz mənfi təsirini göstərmişdi. Bu təsir o qədər böyük olmuşdu ki, Naxçıvan şəhəri rus qoşunları tərəfindən işğal edildikdən (1828) sonra da uzun müddət öz simasını dəyişdirə bilməmiş, feodal şəhəri olaraq qalmışdı. Öyrəndiyimiz dövrdə Naxçıvan möhtəşəm bina və abidələr ilə fərqlənmirdi. Xan sarayından başqa demək olar ki, Naxçıvandakı evlərin əksəriyyəti birmərtəbəli idi. Evlərin damları yastıydı və bir-birinə oxşar idi. Şəhər evlərinin əksəriyyəti daş və palçıqla hörülmüş hündür hasarlarla əhatə olunmuşdu. Evlərin bu cür hasarlarla əhatə olunmasını tədqiqatçı K.Engelqart belə təsvir edir: "Evlərin bu tipdə tikilməsini həm asiyalıların qısqanclığı ilə, həm də özlərini müdafiə etmək hissləri ilə izah etmək lazımdır. Çünki ardı-arası kəsilməyən basqınlar və hər saatda təhlükə gözlənildiyi bir zamanda, hər ev bir qalanı əvəz edirdi"[2]. Azərbaycanın başqa şəhərləri kimi, Naxçıvan da daxili ara müharibələrivə yadelli işğalçıların basqınlarından böyük zərər çəkmişdi. XVIII əsrin sonlarında şəhər daha dağıntıya məruz qaldı.

[1] Гаспар Друвиль. Путешествие в Персию в 1812 и 1813 г., ч. I,М., 1826, стр. 48.
[2] К.Енгельгард. Нахичеван. "Кафказский календарь" на 1852 г.,Тифлис,1851, стр. 350.

1795 ci-ildə İran hökmdarı Ağa Məhəmməd xanın Azərbaycana birinci yürüşü zamanı naxçıvanlılar başda Kəlbəli xan olmaqla ona ciddi müqavimət göstərmişdilər. Bu isə İran hökmdarının qəzəbinə səbəb olmuşdu. Ağa Məhəmməd xanın ikinci yürüşü zamanı Naxçıvana daxil olan sərbazlar şəhəri dağıdaraq, əhalisinin bir qismini İrana köçürmüşdülər. Bu hadisədən sonra Naxçıvan əhalisinin sayı kəskin şəkildə azalmışdı. Birinci və ikinci Rusiya-İran müharibələri dövründə də şəhər güclü dağıntıya məruz qalmışdı. Təkcə bunu qeyd etmək kifayətdir ki, XVII əsrin axırlarında Naxçıvanda iki min ev olduğu halda, XIX əsrin əvvələrində şəhərdə cəmi yeddi yüz ev qalmışdı[1].

İ.Şopen Naxçıvan şəhərinin xarici görünüşünü obrazlı şəkildə ifadə edərək yazırdı: "Naxçıvanın görünüşü qəddarlıqla zəbt olunmuş şəhəri xatırladır. Şəhərdəki dəhşətli dağıntılar nəticəsində uçurulmuş evlər, ensiz dar küçələr cəhənnəmi andırır. Bəzi yerlərdə palçıqdan hörülmüş divarların qalıqları üzərində quşlar yuva salmışdı"[2]. Demək olar ki, şəhərin xarici görünüşü haqqında tədqiqatçı K.Nikitin də eyni fikirdə olmuşdur. O yazır: "Naxçıvanın xarici görünüşü İran şəhərlərini xatırladır. Bütün evlər hündür palçıq divarlarla əhatə olunmuş birmərtəbəlidir. Küçələr dar, əyri və natəmiz olduğundan, nə qədər gəzsən də, hündür divarlardan başqa heç nə görməzsən. Meşə olmadığından evlərin hamısı palçıqdan hazırlanmış kərpiclərdən hörülmüşdür. Ümumiyyətlə, burada ağacdan tikilmiş evlərə rast gəlmək mümkün deyildi"[3].

Naxçıvan şəhəri bu dövrdə inzibati cəhətdən dörd mərhələyə bölünmüşdü: 1. Əlixan, 2. Şahab, 3. Qurdlar, 4. Sarbanlar.

Şəhərin mərkəzində dördkünc bazar var idi. Bu bazarda üç karvansara yerləşirdi. Dükanların hamısı demək olar ki, bazarda mərkəzləşmişdi. Naxçıvanda "...ən adi və memarlıq baxımından sadə, Asiya üslubunda tikilmiş dörd məscid var idi. Şəhər əhalisinə üç hamam xidmət edirdi: Şıxəli bəy, Fəzli, Mirzə Əli hamamları" . Başqa xanlıqlarda olduğu kimi, Naxçıvan xanlığında da ticarət və sənətkarlıq paytaxt şəhərində mərkəzləşmişdi.

---

[1] Нахичеванские рукописание документы, стр. 478.
[2] İ.İ.Şopen Göstərilən əsəri,səh. 478.
[3] K.Nikitin. Göstərilən əsəri, səh.121.

Xanlığın digər, nisbətən böyük şəhəri Ordubad idi. Bu şəhər iki dağ arasında yerləşir. Həmin dağların arasında Ordubad çayı axırdı. Ordubad şəhəri şimaldan Aşağı Andemiç, şərqdən Kəran kəndləri, cənubdan Araz çayı, qərbdən isə Dəstə kəndi ilə həmsərhəd idi.

Ordubad şəhəri inzibati cəhətdən beş mərhələyə bölünmüşdü: 1. Anbaras, 2. Kürdütal, 3. Minqis, 4. Sərşəhər, 5. Üç düdəncə.

Ordubad şəhərini su ilə çoxsaylı bulaqlar təchiz edirdi: İ.Şopen yazir: "Ordubad şəhəri özünün görünüşü və gözəlliyi ilə İrəvan və Naxçıvandan fərqlənirdi; küçələri Asiya şəhərlərində olduğu kimi, əyri-üyrü olsa da, palçıq divarları və tikintiləri yaşıllıqlara qərq olmuşdur. Hər addım başında axar sular sərinlik gətirir,həyətlərin bir çoxunda fontana çevrilirdi..."[1].

Ordubadda altı məscid var idi. Bazar şəhərin mərkəzində yerləşirdi. Tacirlərin ixtiyarına altı karvansara verilmişdi.

XIX əsrin başlanğıcına aid mənbələrin birində deyilir ki, Cənubi Qafqazın Rusiyaya ilhaq olunmasından əvvəlki dövrdə, demək olar ki, "bütün şəhərlərdə evlər tikilərkən onların gözəlliyinə, düzgünlüyünə, məqsədəuyğun şəkildə tikilməsinə diqqət verilmir"[2].

Naxçıvanda və Ordubadda evlər birmərtəbəli tikilirdi. Sənətkarların evlərindəki otaqlardan biri emalatxana və ya dükan üçün ayrılırdı. Bu cür evlər Yaxın Şərqin başqa orta əsr şəhərlərindəki evlərdən fərqlənmirdi. Naxçıvanda və Ordubadda əhalinin əksəriyyəti kiçik, o qədər də hündür olmayan evlərdə və zirzəmilərdə yaşayırdı. Kasıbların bir və ya iki otağı olardı. Bunlar həm yataq otağını, həm də mətbəxi əvəz edirdi. Bu cür evlərdə adətən pəncərə qoyulmurdu. Ona görə də belə evlər, xüsusilə qış dövründə yaşayış üçün əlverişli deyildi. Yoxsulların evlərinin döşəməsində çörək bişirmək üçün təndir olurdu. Evlərdə kiçik ocaqlar da düzəldilirdi. Tüstünün çıxması üçün evin tavanında baca qoyulurdu.

Evin daxilində əşyalar aşağıdakı qaydada yığışdırılırdı. Divarın yuxarı hissəsində çıxıntılar – ləmə düzəldilirdi ki, bu çıxıntı üzərinə şüşə və digər qablar yığılırdı. Evin döşəməsinə palaz və ya həsir döşənirdi. Yorğan-döşəyi və digər zəruri əşyaları divarda düzəldilmiş taxçalara yığırdılar və üstünə müxtəlif rəngli parçalarla örtürdülər. Şəhər əhalisinin əksəriyyəti bu cür yaşayırdı. Şəhərin varlılara məxsus

---

[1] İ.İ.Şopen. Göstərilən əsəri, səh. 481.

[2] О.Евеций. Статистическое описание Закавказкого края в исходе XVIII в. И сравнение оного с нынешней в 2-х частях, СПб., 1835, стр. 45.

evlərində otaqların sayı nisbətən çox olurdu. Onların mətbəxləri də ayrı idi. Varlı təbəqənin ev ləvazimatı da fərqlənirdi. Belə evlərdə sadə ocaqlar əvəzinə daşdan hörülmüş buxarılar, sadə şüşə və ucuz qabların əvəzinə xalı, xalçalar, gəbələr olurdu. Yorğan – döşək divarlarda yerləşdirilmiş sandıqların üstünə və içinə yığılırdı. Taxça və camaxatanlar pərdələrlə örtülürdü. Bəzi varlıların evlərinin divarları milli naxışlarla bəzədilirdi, pəncərələrə rəngli şüşələr vurulurdu.

Əldə edilən ilk mənbə və sənədlərə əsaslanaraq belə qənaətə gəlmək mümkündür ki, XVIII əsrin ikinci yarısında Naxçıvan və Ordubad şəhərləri özünün əvvəlki iqtisadi imkanlarını və beynəlxalq aləmdə həm keçmiş iqtisadi əhəmiyyətini, həm də əhalisinin əksəriyyətini itirmişdi.

XVIII əsrin ikinci yarısında şəhər əhalisinin sayından danışarkən o dövrdə yaranmış gərgin siyasi vəziyyəti nəzərə almamaq olmaz. Çünki öyrəndiyimiz dövrdə Azərbaycanın əksər şəhərləri xarici işğalçıların və ara müharibələrinin nəticəsində dağıntıya məruz qalırdı.

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, feodalizm dövründə Azərbaycanda şəhər əhalisinin formalaşması bu günə qədər ətraflı tədqiq olunmamışdır. XVIII əsrin ikinci yarısında Azərbaycanda şəhər əhalisinin sayı və ictimai tərkibi də demək olar ki, öyrənilməmişdir. Hakbuki bu məsələlərin tədqiqi şəhərlərin sosial – iqtisadi quruluşunu, ölkənin iqtisadi vəziyyətini daha dəqiq öyrənməyə imkan verərdi. Həm də əhalinin sayca və ictimai tərkibcə öyrənilməsi, şəhərlərdə sənətkarlıq məhsullarının, ticarətin vəziyyətini və miqdarını öyrənməyə, yerli bazarların və şəhər əhalisinin tələbatını dəqiqləşdirməyə də şərait yaradırdı.

Naxçıvan və Ordubad şəhərlərində bu vəziyyəti dəqiqləşdirmək üçün demək olar ki, faktiki material son dərəcə azdır. Yalnız Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra çarizm zəbt olunmuş yeni torpaqlarda əvvəllər mövcud olan qayda-qanunu öyrənmək məqsədi ilə öz məmurlarına həmin yerləri yazılı surətdə təsvir etməyi tapşırdı. Rus məmurlarının müstəmləkəçilik baxımından tərtib etdikləri “təsvirlər” və arayışlar hazırda obyektiv olaraq Azərbaycan tarixi üçün əvəzedilməz mənbələrə çevrilmişdir. Naxçıvan ölkəsinin “təsviri” nəticəsində buranın əhalisi və əhalinin ictimai tərkibi haqqında həqiqətə yaxın dəlillər əldə edilmişdir. Həmin “təsvirlərdən” müəyyən etmək olar ki, nəinki işğaldan əvvəlki

dövrdə, həm də Rusiya dövlətinin tərkibində də Naxçıvan xalis feodal şəhəri kimi qalmaqda davam etmişdir.

“Təsvir”lərdə bir də göstərilir ki, feodal ara müharibələri və xarici işğalçıların tez-tez baş verən basqınlarının nəticəsində şəhər əhalisi öz doğma evini və ocağını tərk etməyə məcbur olurdu. Qaçqın şəhər əhalisi öz əmlakı ilə birlikdə əlçatmaz yerlərdə gizlənirdi. Belə bədbəxt hadisələr zamanı şəhər əhalisinin çox hissəsi soyuqdan və aclıqdan məhv olurdu. Bu cür hadisələr Azərbaycanın şəhərlərində, o cümlədən Naxçıvanda tez-tez baş verirdi. Bəzi hallarda isə işğalçılar cəzalandırmaq məqsədi ilə əhalini zorla başqa yerlərə köçürürdülər. Məhz bu səbəbdən də Naxçıvan əhalisinin müəyyən hissəsi 1797-ci ildə, Ağa Məhəmməd şah tərəfindən İrana köçürülmüşdü. Lakin bu cür siyasi hadisələr şəhər əhalisinin ictimai quruluşunda əsaslı şəkildə dəyişikliyə gətirib çıxara bilmirdi. Əldə olan məlumata görə Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə şəhərdə 5470 adam yaşayırdı. İ.Şopenin verdiyi məlumata görə, XIX əsrin 30-cu illərin başlanğıcında Naxçıvanda 873 ailə var idi. Həmin ailələrdən 127-ni xan, bəy, sultan, yüksək rütbəli zabit, ali ruhani , axund və molla və s. ailələri təşkil edirdi. Belə ki, 127-dən 2-si xan ailəsi, 45-ni bəy və sultan ailəsi, 11-ni hərbi vəzifəli şəxslərin ailəsi, 2-ni ali müsəlman ruhani ailəsi, 36-nı axund və molla ailəsi, 22-ni seyid ailəsi, 3-nü dərviş ailəsi və 6-nı mirzə ailəsi təşkil edirdi.

Deyilənlərdən aydın olur ki, 873 ailədən yalnız 166-nı yüksək feodal, məmur və ruhani ailəsi təşkil edirdi. Yerdə qalan 707 ailə isə güman etmək olar ki, sənətkar, tacir və kəndli ailələri idi. Yuxarıda deyilən misallar bizə əsas verir ki, Azərbaycanın digər şəhərlərində olduğu kimi, Naxçıvanda da ictimai təbəqələşmənin mövcud olması barədə fikir yürüdək. Təbiidir ki, sənatkarlar və xırda ticarətlə məşğul olanlar şəhər əhalisinin ən yoxsul təbəqəsini təşkil edirdi. Başqa feodal şəhərlər kimi, Naxçıvan şəhərinin özündə də kəndli ailələri yaşayırdı. Lakin kəndlilərin sayı başqa şəhərlərə nisbətən daha çox idi. Bu da təsadüfi deyildi. Məsələ burasındadır ki,başqa Azərbaycan şəhər-qalalarından fərqli olaraq Naxçıvan qalasında əkin sahəsi daha geniş idi. Mənbələrdən aldığımız məlumata görə, Naxçıvan xanlığında “...600 xalvar əkin sahəsi vardı”. Bundan başqa Naxçıvan şəhər evlərinin həyətlərində çoxlu üzüm və meyvə bağları vardı.

Naxçıvandakı əkin sahələrini və bağları becərmək üçün şəhərin ortasından arx da çəkilmişdi. Tədqiqatçı K.N.Nikitin yazır: “Naxçıvanın ortasından arx keçir. Bu arx şəhər əkinlərini və bağlarını su ilə təchiz edir. Lakin bu arxın suyu şəhər təsərrüfatına kifayət etmirdi. Çünki Naxçıvan çayı boyunca yerləşən kəndlərin əhalisi əkinlərin becərilməsi üçün bu sudan istifadə edirdi. Digər tərəfdən yaz və yay vaxtları çayın suyu azalır, bəzən büsbütün quruyurdu. Bu da şəhər təsərrüfatında su çatışmazlığına gətirib çıxarırdı. Su çatışmazlığı çox zaman şəhər əhalisinin narazılığına səbəb olurdu”[1]. İ.Şopenin yazdığına görə, “Naxçıvanşəhərində yalnız bazar ətrafındakı sahə (rəsmi) meydan hesab oluna bilərdilər. Digər boş yerlərdə buğda və bu kimi dənli bitkilər, habelə tütün əkilirdi”.Burada həmçinin, bostan və tərəvəz bitkiləri də əkilirdi[2]. Mənbələrdə şəhərdə daha çox taxıl əkilməsi onunla izah olunur ki, xarici işğalçıların hücumları zamanı şəhər uzun müddət mühasirədə qaldığından taxıl şəhər əhalisinin ehtiyaclarını müəyyən qədər ödəyirdi. Həmçinin şəhərdəki meyvə və üzüm bağlarının məhsulları da belə hallarda şəhər əhalisinin ərzaqla təchiz edilməsində mühüm rol oynayırdı.

Beləliklə, XVIII əsrin ikinci yarısında və XIX əsrin əvvəllərində Naxçıvan xanlığında şəhərlər (Naxçıvan və Ordubad) feodalizmə xas səciyyəvi cəhətləri özündə birləşdirirdi. Burada da sənətkarların və tacirlərin fəaliyyəti, əsasən kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı idi. Belə vəziyyət şəhər əhalisinin ictimai tərkibinə təsir göstərməyə bilməzdi. Ona görə də yuxarıda qeyd edildiyi kimi, XVIII və XIX əsrin birinci yarısında Naxçıvan və Ordubad şəhərlərində sənətkar və xırda ticarətçilərlə yanaşı kənd əhlinə - feodallara, xüsusilə əkinçilərə və qaçqın kəndlilərə təsadüf edilirdi. Bütün bu amillər şəhər təsərrüfatının inkişafına mənfi təsir göstərirdi. Məhz ona görədir ki, kənd təsərrüfatı ilə müqayisədə sənətkarlıq və ticarət xanlığın təsərrüfat həyatında cüzi yer tuturdu. Təsadüfi deyildir ki, Naxçıvan xanlığında əhalinin məşğuliyyəti çox zaman bilavasitə əkinçiliklə bağlı idi. Belə vəziyyət əksər hallarda natural təsərrüfatın çiçəklənməsi üçün şərait yaradırdı.

---

[1] K.Nikitin. Göstərilən əsəri, səh. 118-119.
[2] İ.İ.Şopen. Göstərilən əsəri,səh. 479.

Bununla belə, sənətkarlıq bir çox orta əsr şəhərlərində olduğu kimi, Naxçıvanın da şəhər sənayesinin özəyini təşkil edirdi. Lakin sənətkarlığı təkcə şəhərə aid etmək düzgün olmazdı. Çünki kənd yerlərində əhalinin tələbatını kənd sənətkarları, xüsusilə dəmirçilər, dulusçular və s. təmin edirdilər. Kənd yerlərində sənətkarlığın və kustar sənayenin inkişafında aztorpaqlı kəndlilərinrolu da böyük idi. Çünki son dərəcə az olan məhsulu yığdıqdan və kiçik torpaq sahəsini əkdikdən sonra bekar qalan kəndlilər istər-istəməz sənətkarlıq və kustarçılıqla məşğul olurdular.

Çoxsahəli təsərrüfatla məşğul olan kəndlilər, ilk növbədə, öz ailələrinin və təsərrüfatlarının ehtiyaclarını nəzərə alırdılar. Belə ki, kəndli ailələri çörək bişirir, ipək liflər açır, yunu darayır, rəngləyir, paltar tikir, dəri aşılayır, ayaqqabı tikir, xalça toxumaqla məşğul olur, dəyirmanlarda un, buğda üyüdür, yaşayış evi, tövlə inşa edir, əmək alətlərini hazırlayır, dülgərlik və dəmirçiliklə də məşğul olurdular.

Naxçıvan xanlığında toxuculuq da geniş yayılmışdı. Demək olar ki, hər bir kəndli ailəsinin əyirici və toxucu dəzgahı vardı. Bu barədə İ.Şopenin yazısında oxuyuruq: "Buradakı sənətkarların əksəriyyətini toxucular təşkil edir, hər ailənin öz dəzgahı vardır ki, bu dəzgahlarda qadınlar iplərdən bez toxuyur və pambıq parça hazırlayırdılar"[1]. Toxuculuq məhsulları əsasən ailənin öz tələbatını ödəyirdi.

Gəbə, palaz, cecim, mafrac evi bəzəmək üçün; yun və pambıq parça üst paltarları tikmək üçün; xurcun, çuval yola çıxanlar üçün; dəridən çarıq, palan və yəhərləri hazırlamaq üçün istifadə olunurdu.

Naxcçıvan xanlığında elə bir kənd yox idi ki, orada sənətkarlıqla məşğul olunmasın. Lakin sənətkarlıq əsasən xanlığın mərkəzi Naxçıvan şəhərində cəmləşmişdi.

XVIII əsrin ikinci yarısında Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda aşağıdakı sənət və peşə növləri müəyyən edilmişdir: dərzi, papaqçı, börkçü, çəkməçi, başmaqçı, zərgər, sərrac, dəmirçi-misgər, toxucu-boyaqçı, qəssab, çörəkçi, bənna, xarrat, dülgər, şüşəsaz, keçəçi, dabbağ, bəzzaz, kababçı və s.

Azərbaycanın digər şəhərlərində olduğu kimi, Naxçıvanda da sənətkarların əksəriyyəti əsnaf adlanan sex təşkilatları ətrafında birləşirdi. Lakin əsnaflar klassik sex təşkilatlarındanzəif olduqları üçün ölkənin həyatında bir o qədər də həlledici rol oynaya bilmirdilər.

[1] İ.İ.Şopen. Göstərilən əsəri, səh. 851.

Sex başçılarının (ustabaşı) hüquqları sex təşkilatının hüdudlarından kənara çıxmırdı. Sex təşkilatlarının zəifliyi üzündən Azərbaycan şəhərlərinin hamısında əsnaf üzvləriilə yanaşı, fərdi sənətkarlar da fəaliyyət göstərirdilər.

Naxçıvan xanlığında fərdi sənətkarlıqla xalçaçılıq əsas yerlərdən birini tuturdu. Xalçaçılar həm şəxsi istifadə və həm də satış üçün xalça-palaz hazırlayırdılar. Boyaqçılığın inkişafına da diqqət yetirilirdi. Yunan və müxtəlif ev əşyalarının boyanmasında təbii bitkilərdən istifadə olunurdu.

Naxçıvanla yanaşı, digər iri yaşayış məntəqələrində dəmirçilər, tənəkəçilər, metal əşyalarından əmək alətləri, o cümlədən dəryaz, oraq, balta, nal, bıçaq, mismar və başqa şeylər hazırlanırdı.

Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş saxsı qab nümunələri hələ qədimdən Naxçıvanda dulusçuluğun inkişaf etdiyinə sübutdur. Naxçıvan sənətkarları arasında sabun bişirənlərin məhsulları da xüsusilə fərqlənirdi.

Naxçıvan şəhərində şüşəsazlıq sənəti də inkişaf etmişdi.Burada adi şüşələrlə yanaşı, şəbəkələrin quraşdırılmasında istifadə edilən rəngli şüşələr də hazırlanırdı. Matanadaranda saxlanılan mənbələrin birində məlum olur ki, İrəvan xanlığının hakimi Hüseynəli xan naxçıvanlı Kəlbəli xandan xahiş edir ki, İrəvan şəhərində tikdirdiyi hamamın pəncərə - şəbəkəsi üçün 400 ədəd müxtəlif rəngli şüşə göndərsin[1].

Sənətkar emalatxanaları – dükanlar əsasən bazar meydanlarında mərkəzləşirdi. Xarici, tranzit və yerli ticarət də əsasən bazarlarda aparılırdı. Naxçıvan bazarında irili – xırdalı 138 dükan vardı. Tacir və sənətkar dükanlarından başqa bazarda ərzaq dükanları da var idi.

Ticarət,xüsusilə yerli ticarət, sənətkarlıqla birlikdə şəhərin iqtisadi həyatının əsasını təşkil edirdi. Ticarət əsasən iki cür aparılırdı: topdansatış və pərakəndə.

Bazarda ticarətin bütün növləri üzərinə ağır vergilər – gömrük haqqı qoyulmuşdu. Xanlığın hər bir bucağında – qala qapısından tutmuş ta çayların keçidlərinə qədər, hətta dini ocaqlara gedən yolların hamısında xanın adamları – rahdarlar və bacdarlar durub, gedib – gələnlərdən ağır vergilər alırdılar.

Rahdarlar və bacdarların vəzifəsi demək olar ki, eyni idi. Onların hamısı vergi toplayırdı. Lakin buna baxmayaraq, onların fəaliyyətində meəyyən fərq var idi. Bacdarlar gələn tacir və səyyahlardan bir növ torpaqbasdı gömrüyü alırdılar. Rahdarlar isə yalnız xanlığın daxilində gömrük toplayırdılar.

---

[1] Məhəmməd Müslüm (Qüdsi). Hüseyn Əli xan İrəvaninin mükatibatı (farsdilində), Matenadaran, 233-cü sənəd, vər. 51.

Naxçıvan xanlığının ticarətindən bəhs olunarkən qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə buranın ərazisində tez-tez feodal ara müharibələri getdiyindən dəfələrlə Naxçıvan xanlığı müharibə meydanına çevrildiyindən və daha çox dağlıq hissə olduğuna görə rahat yollar olmadığından xanlığın ərazisində ticarət zəif inkişaf etmişdi. Beləliklə, ticarətin aparılmasına, təsərrüfatın genişlənməsinə, sənətkarlıq məhsullarının artmasına, bu sahədə əməyin intensivləşməsinə imkan olmadığına görə, daxili ticarət də zəifləmişdi.

Daxili ticarətdən fərqli olaraq Naxçıvan xanlığında gəlmə tacirlərin hesabına xarici ticarətdə nisbətən canlanma hiss olunurdu. Xarici ölkələrdən, xüsusilə Rusiyadan buraya gələn tacirlər öz ölkələrinə Naxçıvan ustalarının hazırladıqları nəfis ipək parçalar aparırdılar. Təsadüfi deyildir ki, Moskvadakı, Nijni Novqoroddakı yarmarkalarda Naxçıvan və Ordubadda istehsal edilmiş ipək parçalara və müxtəlif rənglərə boyanmış ipək saplara təsadüf olunurdu. Naxçıvan xanlığından bir sıra xarici bazarlara qırmızı və ağ bez parçalar, düyü, şərab və s. məhsullar aparılırdı. Bez əsasən Qarabağa və İrəvan xanlıqlarına, düyü Mərənd, Xoy və Təbriz xanlıqlarına, pambıq parça Bayazid, Qars, Tiflis, Şuşa və digər şəhərlərə ixrac edilirdi.

Ticarətin zəif inkişaf etməsinə baxmayaraq, Naxçıvan xanları xəzinəni əsasən ticarətdən yığılan vergilər hesabına doldururdular. Ona görə də xanlar ticarət vergilərinin toplanmasına ciddi fikir verir, bu məsuliyyətli işi ən yaxın adamlarına etibar edirdilər. Naxçıvan xanlığının ticarətində ən çox gəlir rahdari gömrüyündən əldə edilirdi. Demək olar ki, bazara gətirilən bütün mal və məhsullardan – növündən, sayından və cinsindən asılı olmayaraq rahdari gömrüyü alınırdı.

Xanlıqlar dövründə rahdari gömrüyü xanların ən böyük gəlir mənbəyi hesab olunurdu. İrəvanlı Hüseynqulu xanın məktublarının məcmuəsində açıqdan – açığa göstərilirdi ki, xanın gəlirinin əksəriyyətini rahdari gömrüyü təşkil edirdi. Çox güman ki, bütün xanlıqlarda vəziyyət eyni idi. Naxçıvan xanlığında rahdari gömrüyü toplamaq hüququ, başqa sahələrdə olduğu kimi icarəyə verilirdi. Xandan böyük məbləğdə (ildə 1300 tümən) həmin "vəzifəni" almış icarədarın bazara gətirilən bütün mallardan gömrük toplamaq hüququ olurdu. Məsələn, at və dəvə ilə gətirilmiş hər ipək, boyaq, sap və pambıq yükü üçün sahibkar icarədara 4 manat 20 qəpik və ya 2 manat 50 qəpik verməli idi.

Şəkər, dəmir məlumatı, həna, yağ, bal, tütün, mal piyi və s. satan tacir 2 manat 12 qəpik rahdari gömrüyü verməli idi. Boyaqçılara vacib olan qırmızı (marena) boyaq bitkisi, həmçinin İrandan gətirilmiş müxtəlif məhsullar üçün tacirdən 1 manat 60 qəpik miqdarında rahdari alınırdı. Xurma və saxsı qablar üçün də satıcı 25 qəpik gömrük verməli idi.

Məhsulun satılıb – satılmamasından asılı olmayaraq, satıcı geri qayıdarkən yuxarıda göstərildiyi kimi, rahdari gömrüyünü verməli idi. İrandan gətirilən toxunma parçalara görə 2 manat 40 qəpik həcmində gömrük alınırdı. Naxçıvan xanlığından aparılan üzüm, nar, noxud və düyü üçün gümüş pulla 62 qəpik, bu məhsulların şəhər bazarına gətirilməsi üçün isə daha artıq gömrük alınırdı.

Dövlət xəzimməsinə axan gəlirin müəyyən hissəsini boyaqçılıqdan alınan vergi təşkil edirdi. Naxçıvanda da boyaqçılıqdan vergi alınması hüququ icarəyə verilirdi. Bu hüququ qazanmaq üçün ildə xəzinəyə 370 tümən ödəməliydi. Bundan sonra heç kəsin icarədarın icazəsi olmadan və ona müəyyən məbləğ vermədən hər hansı əşyanı boyamağa və yaxud rənglətdirməyə ixtiyarı yox idi. Naxçıvanda malı mizan – tərəzidə çəkib vergi almaq hüququ da icarəyə verilirdi. Bu hüquq üçün mizandar dövlət xəzinəsinə 100 tümən verməli idi. Mizandar bir batman pambığı, balı, yağı, ipəyi, tütünü, boyağı və digər məhsulları mizan – tərəzidə çəkdiyinə görə gümüş pulla 16 qəpik alırdı. Bu vergi şəhərə satış üçün məhsul gətirən bütün tacirlərdən məcburi alınırdı. Əks təqdirdə onun öz malını satmağa ixtiyarı yox idi. Meyvə və quru meyvə satmaq hüququ olan şəxslər xəzinəyə ildə müəyyən məbləğ verməli idilər. Bazara gətirilmiş yemiş və qarpızdan başqa, digər təzə və quru meyvələrin hər yükü üçün icarədara 12 qəpik gümüş pul, həmkinin satdığı maldan "pay" verməli idi. Bu vergi yalnız şəhərə məhsul gətirənlərdən toplanırdı. Bazarda həmin meyvəni alıb istədikləri qiymətə satanlardan isə heç bir vergi alınmırdı.

Çörək və dənli bitkilər satmaq hüququ da 50 tümən həcmində icarəyə verilirdi. Bu hüququ almış şəxs – icarədar satılan hər btman buğda, arpa, darı üçün gümüş pulla 2 qəpik, düyüyə görə isə 4 qəpik gömrük alırdı.

Sabun satışından gömrük toplamaq hüququnu almış icarədar xəzinəyə hər il 60 tümən verməli idi. O, xanlıqda sabunun bişirilməsi və satılması üzərində nəzarət edir və haqqını alırdı. Naxçıvan yaxınlığında icarədarın icazəsi olmadan heç kəs sabunu nə bişirə, nə də sata bilərdi. Başqa xanlıqda sabun istehsal edənlər Naxçıvanda öz mallarını yalnız icarədara sata bilərdilər. İcarədar isə həmin sabunu istədiyi qiymətə verirdi.

Tütün satışından gömrük toplamaq hüququ da ildə 15 tümənə icarəyə verilirdi. Şəhərdə yalnız icarədarın tütün satmağa ixtiyarı var idi. Ancaq xanlıqdan kənara tütün aparmaq qadağan edilmirdi və bunun üçün də vergi-gömrük alınmırdı.

Ən əlverişli gəlliri icarədar duz mədənlərindən əldə edirdi. O, duz satışından ildə 1000 tümən qazanırdı.İcarədar hər batman duz üçün 8 qəpik, duzun daşınması üçün də bir o qədər gömrük alırdı.

Əldə edilən məbləğin dörddə biri duz mədənlərində işləyənlərə verilirdi. Mədəndə işləyənlərin əmək haqqı bəzən duzla əvəz olunurdu. Maraqlıdır ki, yalnız Şıx Mahmud kəndinin əhalisinin duz mədənlərində işləmək hüququ var idi. Deyilənlərə görə bu, ona görə idi ki, ilk dəfə həmin kəndin adamları hökumətə duz mədənlərinin yerini xəbər veribləmiş.

Culfa yaxınlığındakı Araz keçidindən gömrük almaq hüququ Culfadan olan yüksək rütbəli bir nəfər şəxsə 160 tümənə verilmişdi. Bundan əlavə, icarədar xəzinəyə ildə topladığı gömrüyün dörddə bir hissəsini də verməli idi. Araz çayının üstündəki körüpüdən keçən yükə görə bu qaydada gömrük alınırdı. Hər at üçün (yüklü-yüksüz) 8 qəpik, hər qaramal üçün 8 qəpik, hər ailəyə görə 50 qəpik, dəfn olunmaq məqsədilə Xorasana aparılan müsəlman cənazəsi üçün 50 qəpik. Gətirilən məlumat, bizcə, Naxçıvan xanlığında mürəkkəb vergi sistemi haqqında fikir yürütməyə imakn verir.

Bazarlarda pul, çəki və ölçü vahidlərinin müxtəlifliyi ticarətin normal aparılmasında ciddi çətinliklər törədirdi. Naxçıvan bazarlarında İran, Türkiyə, Rusiya və Gürcüstanda, habelə Şuşada, Xoyda,Təbrizdə və b. şəhərlərdə kəsilmiş pullar dövriyyədə idi. Müxtəlif şəhərlərdə zərb olunmuş pulların dəyəri də bir-birindən fərqlənirdi. Xüsusilə yerli pul vahidlərinin sabit olmaması ticarətin gedişini çətinləşdirirdi. Siyasi hadisələr, habelə şəraitlə əlaqədar xanlar özlərinin pul vahidlərinin dəyərini dəyişməyə məcbur olurdular. Belə hallar da bazarlarda pul dövriyyəsini ləngidirdi.

Azərbaycanın başqa şəhərlərindən fərqli olaraq Naxçıvan xanlığında pul zərb edilmirdi. Ona görə də xanlıqda dövriyyədə əsasən İran və Azərbaycan pul vahidləri işlədilirdi: tümən, yarım tümən, sahibqıran, pənahabad, yarım pənahabad, şahi, yarım şahi, para, mahmudiyyə, səksənlik, yüzlük və s.

Pul vahidləri kimi, ölçü və çəki vahidləri də müxtəlif idi. Tədqiq olunan dövrdə Azərbaycanda və eləcə də İranda "hər vilayətin özünəməxsus ölçü və çəki vahidləri var idi"[1]. Bu sistem şəhər və kəndlərdə elə dərin kök salmışdı ki, hətta Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonrakı dövrdə də müəyyən müddət bu cür ölçü və çəki vahidlərinin nizama salınması barədə çar məmurları tərəfindən müəyyən tədbirlər görüldü.

Xanlıqlar dövründə, nəinki ayrı-ayrı xanlıqlarda, hətta bir xanlığın öz daxilində də ölçü və çəki vahidləri fərqlənirdi. Odur ki, alğı-satqı zamanı bəzən ciddi mübahisələr baş verirdi. Hər kəs çalışırdı ki, malı alıb-satarkən öz çəki və ölçü vahidindən istifadə etsin. Necə deyərlər: "Hərə öz arşını ilə ölçülürdü". XVIII əsrin ikinci yarısından Naxçıvan xanlığında ictimai-iqtisadi vəziyyət təqribən belə idi.

---

[1] Д.Томара. Экономическое положение Ирина. СПб., 1895, стр. 114.

## NAXÇIVAN XANLIĞINDA SİYASİ TARİXİ

İran hakimiyyəti dövründə Azərbaycanın başqa vilayətlərindən fərqli olaraq, Naxçıvan diyarını şah tərəfindən təyin edilmiş iki hakim idarə edirdi. Naxçıvan ölkəsinin hakimi və süvari bölmələrinin başçısı (Xakim - e tümen – e Naxiçevan). Hər iki hakim Naxçıvan diyarında daha yüksək nüfuza malik yerli kəngərli tayfasının nümayəndələrindən təyin edilirdi. Bu iki rəsmi hakimdən savayı Kəngərli tayfasından olan vəkil və ağsaqqallar da Naxçıvan diyarının idarə edilməsində müəyyən fəaliyyət göstərirdilər. Kəngərli tayfasının Qızıllı, Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli, Qarabağlar kəndlərinin əhalisi təşkil edirdi.

Nadir şahın ölümü (1747) Cənubi Qafqazda, o cümlədən Azərbaycanda İran dövlətinin ağalığına son qoyulmasını sürətləndirdi. Azərbaycanda şah tərəfindən təyin edilmiş hakimlər hər yerdən qovuldular. Azərbaycanın yerli feodalları və elbəyiləri İran zülmünə qarşı qalxan ümumxalq mübarizəsindən istifadə edərək, yerlərdə hakimiyyəti öz əllərinə keçirir, özlərini müstəqil xan elan edirdilər.

Yerli feodallara arxalanan kəngərli tayfasının başçısı Heydərqulu xan da özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi. Zəngəzur dağlarından başlamışAraz çayı vadisinə qədər ərazidə yerləşən Naxçıvan xanlığı iqtisadi və hərbi imkanlarına görə, digər xanlıqlardan o qədər də fərqlənmirdi. Öz hakimiyyətini gücləndirmək və terli işğalçılardan müdafiə olunmaq üçün Heydərqulu xan daha qüdrətli satılan xanlıqlara arxalanmaq qərarına gəldi. Çox güman ki, bu məqsədlə də Heydərqulu xan XVIII əsrin 50-ci illərində Qarabağ xanlığının banisi Pənahəli xanın görüşünə getmişdi. Pənahəli xanın gördüyü siyasi tədbirlərdə heydərqulu xanın iştirakını da bununla izah etmək lazımdır. Belə ki, özünə güclü rəqib saydığı şəkili Çələbi xana qarşı yürüşə hazırlaşan Pənahəli xana hörmət əlaməti olaraq Hetdərqulu xan da öz qoöunları ilə Qarabağa gəldi. 1752-ci ildə həyata keçirilən həmin yürüşdə gəncəli Şahverdi xan, qaradağlı Qasım xan, irəvanlı Hüseyn xan, xoylu Əhməd xan dəxi iştirak edirdilər[1].

[1] Mirzə Adıgözəl bəy. Qarabağnamə. Bakı, 1950, səh. 59; Əbdül Lətif Əfəndi. Şəki xanlarının tarixi. Bakı, 1926, səh. 9.

Bu yürüşün nəticələri haqqında A.A.Bakıxanovun və digər müəlliflərin əsərlərində ətraflı məlumat verilir. Biz yalnız bu yürüşün müvəffəqiyyətsizliklə nəticələndiyi qeyd etməklə kifayətlənirik. Həmin məğlubiyyəydən sonra Heydərqulu xan Naxçıvana qayıdaraq xanlığı möhkəmləndirmək üçün bir sıra tıdbirlər həyata keçirdi. Belə ki, xəzinənin gəlirinin artıran ticarıti inkişaf etdirmək məqsədilə xanlıqda və şəhərlərin özündə rabitə vasitələrini qaydaya saldı. Heydərqulu xan köhnə körpülərin təmir olunması və çaylar üzərində yeni körpülərin salınması haqqında əmr verdi. Həmin körpülərdən biri Şəkərabad kəndində bu günədək qalmaqdadır.

Heydərqulu xanın ölümündən sonra (1763/64) Naxçıvan xanlığı nisbətən zəiflədi. Onun sələfi Hacı xan Kəngərli İran hakimi Kərim xan Zəndin (1763-1779) qarşısında zəiflik göstərib ona boyun əydi. Sonralar Kərim xan Zənd onu Şiraza dəvət etdi və kiçiki günah üstündə əsir aldı. Naxçıvan taxtında Hacı xanı əvəz edən Heydırqulu xanın oğlu Rəhim xanda hakimiyy\ətdə uzun müddət qala bilmədi. 1770-ci ildə Kərim xan Zəndin köməyilə Naxçıvanda hakimiyyətə gəlmiş Əliqulu xan da öz növbəsində üç ildən sonra Vəliqulu xan Kəngərli tərəfindən devrildi.

XVIII əsrin 80-cı illərinin əvvəllərində İrəvan xanı Hüseynəli xanın, Qarabağ xanı İbrahimxəlil xanın, Kartli-Kaxeti çarı II İraklinin vasitəçiliyi ilə kəngərli tayfasının nümayəndəsi Abbasqulu xan Naxçıvan xanlığının hakimi oldu. Lakin Abbasqulu xanın Naxçıvan hakimi olması xoylu Əhməd xanın ürəyindən deyildi. O, Naxçıvanda Abbasqulu xanın əmisi oğlu Cəfərqulu xanı hakimiyyətə gətirmək istəyirdi. Arzusuna çatmayan Əhməd xan bunun əvəzində iki kəndin – Nazik və Şükürlü kəndlırinin ona verilməsini Abbasqulu xandan tələb etdi. Rədd cavabı alan Əhməd xan öz qoşunlarını Naxçıvan xanlığının sərhədlərinə yeritdi. Müqavimət göstərə bilməyəcəyini başa düşən və yerli əyanlar tərəfindən müdafiə edilməyən Abbasqulu xan Naxçıvanı tərk etməyə məcbur oldu. Özünə müvəqqəti olaraq Sisyanda sığınacaq tapdı. Lakin Əhməd xan Naxçıvanı tuta bilmədi. Çünki irəvanlı Hüseynəli xan hədələyici məktub göndərərək Əhməd xandan tələb etdi ki, öz ordusunu təcili surətdə Naxçıvan qalasından uzaqlaşdırsın. O həmin xanlığa özü sahib olmaq istədiyini də məktubda göstərdi[1]. Əhməd xan Hüseynəli xanın tələbini qəbul etsə də, öz fikrindən əl çəkmədi.

---

[1] Mərkəzi Dövlət Hərb Tarixi Arxivi (sonra MDHTA), f. 52, siyahı 1/194, sənəd 331, I hissə (1783), vər. 42.

Tezliklə Naxçıvan qalası yaxınlığında İrəvan xanı Hüseynəli xanın qoşunu göründü. Lakin Naxçıvanda qalmaq ona da qismət olmadı. Hansı məqsədlə isə burada qalamq istəməyərək ordusunu Naxçıvandan geri çəkdi[1]. Beləliklə, Naxçıvan qalası başsız qaldı. Yaranmış vəziyyətdən istifadə edən Abbasqulu xan Naxçıvana tələsdi və dar günündə onu müdafiə etməyənlərə divan tutmağı qərara aldı.

Arxiv sənədlərindən məlum olur ki, Abbasqulu xanın etdiyi zülm xalq arasında böyük narazılıq doğurmuşdu. Bundan istifadə edən xoylu Əhməd xan yenidən Naxçıvanın işlərinə qarışmağı qərara aldı. Bu məqsədlə İranda Kərim xan Zəndin ölümündən sonra İsfahanda oturub özünü şah elan edən, lakin rəsmi şah olmayan Əlimurad xana müraciət etdi. Onu da qeyd etmək lazımdır ki, Əlimurad xan hakimiyyət başına gəlməyə can atarkən və İranın rəsmi şahı olmadığı halda Azərbaycanın bir sıra xanlıqlarına tabe olmaq rəmzi kimi, onlardan girov və ya qiymətli daş-qaş tələb edirdi. Məsələ o yerə çatmışdı ki,Əlimurad xan hətta 1784-cü ildə Osmanlı Türkiyəsinə qarşı kömək almaq və öz hakimiyyətini möhkəmləndirmək məqsədilə Moskvaya nümayəndə göndərmişdi. Öz nümayəndəsi Məhəmməd xana tapşırmışdı ki, göstəriləcək kömək əvəzində vaxtilə Rusiyanın tərkibində olmuş torpaqlardan savayı[2], "Qarabağ, Naxçıvan və İrəvan vilayətlərini" də Rusiya imperiyasına "güzəşt" etməyə hazırdır. Göründüyü kimi, Əlimurad bir tərəfdən öz tərəfdarlarının bəzi Azərbaycan xanlıqlarının hakimi olmasına "kömək edir", digər tərəfdən isə həmin xanlıqları özününkü sayaraq, rus dövlətinə verməyi vəd edirdi.

Xoylu Əhməd xanın kömək üçün müraciəti Əlimurad xanın ürəyindən oldu. O, təxirə salmadan Gülşirəli xanın komandanlığı altında Naxçıvana ordu göndərdi. Gülşirəli xan Əlimurad xanın tapşırığı ilə Abbasqulu xanın əmisi oğlu Cəfərqulu xanı Naxçıvanda hakimiyyətə gətirməli idi. Həmçinin Əlimurad xan Əhməd xana tapşırmışdı ki, Cəfərqulu xanın xeyrinə təbliğatı gücləndirsin.

1783-cü ildə Rusiyanın qəyyumluğunu qəbul etmiş Kartli-Kaxeti çarlığı ilə İran arasında özünü "dost" kimi qələmə verən Əhməd xan

---

[1] Mərkəzi Dövlət Hərb Tarixi Arxivi (MDHTA), f. 52, siyahı 1/194, sənəd 331,I hissə (1783), vər. 42.

[2] 1722-1735-ci illərdə Xəzərboyu əyalətlərin Rusiya tərəfindən işğal olunmuş torpaqları nəzərdə tutulur.

Naxçıvan taxtında Abbasqulu xanın namizədliyini müdafiə edən II İraklinin gözü qarşısında öz hərəkətlərinə bəraət qazandırmaq üçün bütün imkanlardan istifadə edirdi. II İraklinin adına göndərdiyi məktubunda Əhməd xan yazırdı: "İndi necə ola bilər ki, mən ona (Əlimurad xana – red.) verdiyim sözü yerinə yetirməyim və başqa cür hərəkət edim. Bu mənim vicdanım əleyhinə olardı. Həmdə mənim qiymətli əşyam Əlimurad xanın yanında girov saxlanır, o elə bilər ki, mən onun əleyhinə gedirəm"[1]. Beləliklə, Əlimurad xan və Əhməd xanın qoşunlarının qarşısını ala bilməyən Abbasqulu xan, yenidən Naxçıvanı tərk etməyə və Tiflisə qaçaraq II İraklidən kömək istəməyə məcbur oldu. Beləliklə, Əlimurad xan və Əhməd xan tərəfindən müdafiə edilən Cəfərqulu xan Naxçıvanda hakimiyyətə gəldi.

Hakimiyyətə keçdiyi ilk gündən Cəfərqulu xan xalqın hər cür etirazının qarşısını almaq üçün əhaliyə ciddi təzyiq göstərməyə başladı. Hətta iş o yerə çatdı ki, naxçıvanlıların əksəriyyəti öz doğma ocağını tərk edərək uzaq vilayətlərə getməyə məcbur oldu. Kartli-Kaxeti çarı II İrakliyə 1783-cü ildə yazılmış kollektiv məktubda deyilir: "Cəfərqulu xanın Naxçıvan əhalisi ilə necə qəddar rəftar etdiyi xəbərini sizin hüzurunuza çatdırmaqla bildiririk ki, onun zülmkarlığı xalq içərisində elə geniş yayılıb ki, əhali pərən-pərən düşüb, başqa yerlərə getməyə məcburolmuşdur"[2]. Həmin məktubda naxçıvanlılar Abbasqulu xana sığınacaq verdiyi üçün II İrakliyə öz təşəkkürlərini bildirirlər. Daha sonra məktubda deyilir ki, sizin xeyirxahlığınız nəticəsində Abbasqulu xan himayənizdə yaşayır ki, bu da bizi sakitləşdirir və bizdə inam yaradır.

Abbasqulu xanın tərafdarları da Naxçıvanda qala bilməyəcəklərini yəqin edərək Gürcüstana gedir və Abbasqulu xanın ətrafında birləşirdilər. Naxçıvanlıların məktubunda bu münasibətlə daha sonra deyilir: "Sizin ürək yumşaqlığınıza inanaraq yoxsul əhali hər gün Naxçıvanı tərk edir və bizim Abbasqulu xanın yanına gəlirlər. Onu müdafiə etdiyimiz kimi, bizi də nəzər-diqqətinizdən qoymayacağınıza inanırıq. Cəfərqulu xan bizi ölümə verir, evlərimizi isə talayır. Biz onun bu fikrini bildikdən sonra Abbasqulu xanın tərəfinə keçdik".

Gürcüstanda sığınacaq tapan Abbasqulu xan isə II İrakliyə yazdığı məktubunda öz təşəkkürünü aşağıdakı sözlərlə bildirir: "Qoy Allah rəhmi çarın xəstəliyini Abbasqulu xana versin. Sizin xeyirxahlığınız sayəsində vəziyyətim yaxşıdır və sizə sədaqətliyəm. Allahın köməyi və sizin sayənizdə yaxşıyıq və sizə dua edirik".

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 321, vər. 43.
[2] Yenə orada, vər. 42.

Məktubunun ardında Abbasqulu xan Gürcüstana gəldikdən sonra Naxçıvandakı vəziyyəti təsvir edir. O yazır ki, Naxçıvandan getdikdən üç gün sonra "məni sevən rəislərdən Ağasıbəy, Məmmədəli, Sultan, Əliqulam Sultan, İxlas Sultan və onun oğlu Hüseynəli bəy və başqaları Cəfərqulu xanın pis rəftarına və onları incitdiyinə görə mənim yanıma gəlmişlər"[1].

Gürcüstana, Abbasqulu xanın düşərgəsinə gələnlər söyləmişlər ki, onlar II İraklinin xoş rəftarını görüb Cəfərqulu xandan intiqam almaq məqsədi ilə Tiflisə gəlmək fikrindədirlər.

Naxçıvan əyanlarının Gürcüstana – Abbasqulu xanın yanına getmələri Cəfərqulu xanı hədsiz dərəcədə qəzəbləndirirdi. O, Abbasqulu xanın yanına getmək istəyənləri cəzalandırmaq qərarına gəldi. Belə rəftarın ilk qurbanı feodallardan Məhəmməd bəy oldu.O, Gürcüstana gedərkən Cəfərqulu xanın qardaşı Kəlbəli xan tərəfindən həbs edilib öldürüdü.

Ayrı-ayrı adamların qətlə yetirilməsi ilə kifayətlənməyən Cəfərqulu xan əmr etdi ki, Abbasqulu xanın yanına getmək istəyənlərin evləri dağıdılsın, əmlakları müsadirə edilsin və irsi mülkiyyəti əlindən alınsın. Lakin bu tədbir də xalqı sakitləşdirə bilmədi. Naxçıvanda xalq çıxışları güclənirdi. "...Əhalinin öhdəsindən gələ bilmədiyindən ..." Cəfərqulu xan öz yaxın adamlarından birini – Şirəlini xoylu Əhməd xanın yanına göndərdi ki, "...o ya Naxçıvanda qayda-qanun yaradıb xalqı sakitləşdirsin və ya da kömək üçün qoşun göndərsin"[2]. Əhməd xan Naxçıvanda hakimiyyəti ələ keçirmək Cəfərqulu xana kömək etsə də, bu dəfə Naxçıvana qoşun göndərməyə tələsmədi. Çünki yuxarıda qeyd edildiyi kimi, Kartli-Kaxetiya çarlığı Georgiyevsk traktatına görə Rysiyanın himayəsini qəbul etmişdi və bununla əlaqədar iki batalyon rus əsgəri Tiflisə gəlmişdi. Bu münasibətlə Abbasqulu xan II İrakliyə yazırdı: "Əhməd xan bilir ki, mən sizin himayənizdəyəm, onun, həmçinin xəbəri var ki, siz məni hər vasitə ilə müdafiə edəcəksiniz. Ona görə də Cəfərqulu xana rədd cavabı verdi. O siz həzrətlərə qarşı çıxmağa cəsarət edə bilməz"[3].

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 321, vər. 42.
[2] Yenə orada, vər. 38 b.
[3] Yenə orada, vər. 39.

Həqiqətən bəzi hallarda Kartli-Kaxeti çarı II İrakli Georgiyevsk traktının şərtlərindən istifadə edərək öz əməllərini Rusiya hakimiyyətinin adı ilə pərdələyirdi. Tədqiqatçı yazır ki, II İrakli Əhməd xana məsləhət görür ki, o, Abbasqulu xanla Cəfərqulu xan arasındakı münasibətlərə toxunmasın və Naxçıvanda baş verən hadisələrlə işi olmasın. Əks tədqirdə o, digər xanlar arasında öz nüfuzunu itirə bilər[1]. Əslində isə II İrakli "uzaqgörənlik edib, ilk növbədə, xudpəsəndliklə öz torpaqlarını genişləndirmək barədə fikirləşirdi. O, Rusiya hakim dairələrinə göndərdiyi məktublarının birində yazırdı: "...Belə hesab edirəm ki, Azərbaycana sahib olmaq Rusiya üçün əlverişlidir. Sonra isə həmin torpaqların bir hissəsini mənə güzəştə gedərsiniz"[2]. II İrakli başqa bir məktubunda rus komandanlığından xahiş edirdi ki, "...Gürcüstanı ləzgilərin təhlükəsindən qurtarsın, Gəncədə, İrəvanda onun hakimiyyətini təsdiq etsin və Naxçıvanı da ona tabe etdirsin"[3]. II İraklinin Azərbaycan torpaqlarını mənimsəmək üçün dəridən – qabıqdan çıxmasına baxmayaraq, nə Abbasqulu xan, nə də Azərbaycanın digər xanları onun xudpəsənd fikirlərini başa düşə bilmirdilər. Əksinə, onlar II İraklini qüdrətli dövlət saydıqları Rusiyaya arxalanmış sədaqətli müttəfiq hesab edirdilər. Abbasqulu xan yenidən Naxçıvan xanlığında hakim olmaq üçün II İraklinin köməyinə sadəlövhcəsinə inanırdı. Kartli – Kaxeti çarlığının Rusiya qəyyumluğunu qəbul etdiyini bilən Abbasqulu xan da Rusiyanın himayəsində olmağı arzulayırdı. Bu haqda Abbasqulu xan Rusiyanın Gürcüstandakı qoşunlarının başçısı S.Burnaşevə yazmışdı: "Çar İrakli ilə yaxınlıq edərək, imperator həzrətlərinin hakimiyyəti altında olmağı arzulayır və başqa xanları da belə addım atmağa çağırıram"[4]. Abbasqulu xanın Rysiyanın qəyyumluğunu qəbul etmək arzusunu II İrakli general – poruçik Q.A.Potyomkinə xəbər verdi. "Dəhşətli qaçqın vəziyyətində olan naxçıvanlı Abbasqulu xan bizdən xahiş edir ki, biz ona öz mülkiyyətinə qayıtmağa kömək edək və o, imperatriçəyə tabe olacağını bildirir". Abbasqulu xanın Rusiya və Gürcüstana müraciət etməsini, yalnız və yalnız Naxçıvan xanlığında öz hakimiyyətini bərpa etmək arzusu ilə izah etmək lazımdır.

---

[1] О.П.Маркова. Россия, Закавказье и международные отношения в XVIII в. М., 1966, стр. 175.

[2] MDHTA, f. 52, siyahı 1/194, sənəd 321, vər. 40-41; O.P.Markova. Göstərilən əsəri, səh. 175.

[3] Yenə orada.

[4] MDHTA, f. 52, siyahı 1/194, sənəd 331, IV hissə, vər. 31.

Abbasqulu xana "kömək" etmək üçün II İrakli öz ordusunu hazır vəziyyətə gətirdisə də Naxçıvan xanlığı üzərinə göndərməkdən imtina etdi. Çünki Georgiyevsk traktatına əsasən II İrakli sərhəd rəisilə məsləhətləşmədən heç bir tədbiri həyata keçirə bilməzdi[1].

Georgiyevsk traktatından irəli gələn belə məhdudiyyətlə əlaqədar olaraq, II İrakli Abbasqulu xanı İrəvana göndərdi və Hüseynəli xandan xahiş etdi ki, öz hakimiyyətinə bərpa olunmaq üçün Abbasqulu xana kömək etsin. II İraklinin çox ehtiyatlı hərəkətinə baxmayaraq, Rusiyanın işgüzar dairələrində belə bir xəbər yayıldı ki, guya Kartli – Kaxeti çarı rus komandanlığının razılığı olmadan öz qoşunlarını Naxçıvana çıxarıb.

II İrakli Q.A.Potyomkinə izahatında yazırdı: "Bu yaxınlarda Abbasqulu xanxahişlə Naxçıvan ağsaqqallarını yanımıza göndərmişdi. Həmin sənədin tərcüməsini biz cənab Burnaşevə verdik ki, o, sizin hüzurunuza təqdim etsin"[2]. Naxçıvandakı vəziyyətlə tanəş olan Q.A.Potyomkin öz cavabında Burnaşevə bildirdi ki, o, mahiyyət etibarilə Abbasqulu xanın Naxçıvanda hakimiyyətə gəlməsinə etiraz etmir, "...mənim adımdan Kartli – Kaxeti həzrətlərinə (II İrakliyə-red.) elan edin ki, mən bu hadisələrdə ona mane olmaq istəmirəm"[3]. Q.A.Potyomkinin məktubundan sonra II İrakli daha cəsarətlə yürüşə hazırlamağa başladı. Kartli – Kaxeti çarı II İrakli ehtiyat xatirinə Abbasqulu xanın namizədliyini müdafiə edən Qarabağ xanlığının hakimi İbrahimxəlil xanı da bu yürüşdə iştirak üçün dəvət etdi.

Naxçıvan xanlığı üzərinə yürüş üçün II İrakli çox böyük ordu toplamışdı. Təkcə Şəmşəddin, Xəzani, Peydar, Pambək, Dəmirçi Həsəndən toplanmış yerli azərbaycanlı döyüşçülərinin sayı 4000-ə çatırdı. İbrahimxəlil xan isə bu yürüşdə iştirak etmək üçün 2000 atlı ayırmışdı.

Lakin təşkil edilmiş bu yürüşü həyata keçirmək mümkün olmadı. Çünki Georgiyevsk traktatı bağlanmasından və Gürcüstana rus ordusunun gəlməsindən narahat olan Türkiyə sultanı yenidən Cənubi Qafqazın işlərinə qarışmağa başladı. Belə ki, Türkiyə müsəlmanların həmrəyliyinə arxalanaraq, Azərbaycan və Dağıstan hakimlərini ələ almağa, həmçinin qarabağlıların gürcülərlə ittifaqını pozmağa cəhd göstərirdi.

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 331, IV hissə, vər. 278, 358.
[2] Yenə orada, vər. I hissə, 80.
[3] Yenə orada, vər. 365.

Naxçıvanda da Türkiyə agentləri fəaliyyət göstərirdilər. Türkiyə sultanı həmçinin xahiş edirdi ki, müsəlmanlar rus ordusunu öz ərazilərinə buraxmasınlar. Erməni patriarxı İoni Qarabağ məlikləri ilə birlikdə Potyomkinə yazırdılar ki, Türkiyə nümayəndələri Kür çayı yanında azərbaycanlılardan ibarət ordu yaratmağa və rus ordusunun qarşısını kəsməyə cəhd edirlər[1]. Çox güman ki, Terkiyə agenyləri İbrahimxəlil xanla II İrakli arasındakı ittifaqı xeyli sarsıtmağa nail ola bilmişdilər. İbrahimxəlil xanın bir qədər sonra Naxçıvana tək başına etdiyi yürüş bir daha bunu sübut edir. Halbuki razılığa əsasən bu yürüşdə II irakli də iştirak etməli idi.

Türkiyə sultanının Cənubi Qafqaz müsəlmanlarının işlərinə qarışması, Azərbaycana sahib olmağa çalışan Əlimurad xanda narazılıq doğurmuşdu. Özünü bütün Azərbaycanın "sahibi" hesab edən Əlimurad xansultanın hansı əsaslarla fərmanlar göndərərək Azərbaycanda çaxnaşma yaratdığını aydınlaşdırmaq üçün Türkiyəyə adam yolladı. İranla aranı vurmamaq naminə Türkiyə demişdi: "Gürcüstanı tutmuş rus ordusunun digər yerlərə yayılmasının qarşısını almaq üçün , dinbir qardaşlarımıza – Azərbaycan xalqına ehtiyatlı olmağı məsləhət görmüşük"[2].

Rusiya dövlətinin köməyi ilə İran taxtına sahib olmağa çalışan Əlimurad xan Türkiyəyə bildirdi ki, çar İraklinin gözəl niyyətlərinə əmindir və Rusiya tərəfindən heç bir qorxu gözləmir.

Türkiyə sultanı bilirdi ki, Əlimurad xan Zənd Rusiya hökuməti ilə danışıqlar aparır. Ona görə də çalışırdı ki, İranla Rusiya arasında hər hansı ittifaqın yaranmasına mane olsun. Bununla yanaşı,Türkiyə hökuməti İranla "dostluq" münasibəti yaratmaq məqsədi ilə belə bir diplomatik addım da atdı. Sultan "...Bağdadda dağıdılmış İran məscidinin bərpa olunmasına icazə verməklə bərabər, digər tikililərin də bərpa olunması üçün dörd min tümən (40000 manat) pul ayırdı"[3]. Türkiyə sultanı Rusiya ilə müharibədəki məğlubiyyətindən sonra (1774), ikinci dəfə Rusiyaya qarşı müharibəyə girişməyə cəsarət etməsə də, Əlimurad xana və Azərbaycan xanlarına Rusiya əleyhinə qızışdırıcı məktublar göndərməkdən əl çəkmədi. Həmin məktublarda o, "din qardaşlarını" inandırmağa çalışırdı ki, "...rus ordusu

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 331, IV hissə, vər. 20.
[2] Yenə orada.
[3] Yenə orada.

İran üzərinə gəlir...", "Rusiya əraziləri ələ keçirməyə çalışır, ancaq müqavilə olduğu (Kiçik Qaynarca müqaviləsi nəzərdə tutulur – red.) üçün biz onlara qarşı çıxa bilmirik, lakin nə qədər pul lazım olsa verə bilərik[1].

Türkiyə agentlərinin Azərbaycanda fəaliyyət göstərdikləri bir vaxtda Naxçıvan feodallarından Şükürəli xanın oğlu Qara bəy Naxçıvan xanlığında öz tərəfdarlarını ətrafına toplayaraq "...Hacı Dəmir və Cari qalalarını ələ keçirdi. Bu qalalar Naxçıvanın 20 verstliyində olan möhkəmləndirilmiş qalalardan ibarət idi"[2]. Cəfərqulu xanın hakimiyyətindən narazı olan Qara bəy, İrəvanda məskunlaşmış Abbasqulu xanın yanına çapar göndərərək ona bu barədə xəbər verdi. Bu xəbərdən sevinən Abbasqulu xan Qara bəyin dəstəsilə birləşməyə tələsdi. Abbasqulu xan həmçinin irəvanlı Hüseynəli xandan xahiş etdi ki, o da təxirə salmadan öz qoşunları ilə onun köməyinə gəlsin.

Abbasqulu xanın yaxınlaşdığını eşidən Cəfərqulu xan Naxçıvanı tərk edərək Xoy xanlığına qaçmağa məcbur oldu. Nüfuzlu Naxçıvan feodallarından biri olan Şükürəli xan Naxçıvn taxtının sahibsiz qalmasından və hakim dairələrdəki qarışıqlıqdan istifadə edərək 1785-ci ildə hakimiyyəti öz əlinə keçirdi.

Naxçıvanda Şükürəli xanın hakimiyyəti haqqında Mərkəzi Dövlət Hərb Tarix Arxivində (Moskva) hifz olunan 17 fevral 1785-ci tarixli sənəddən başqa hələlik digər sənəd əldə edilməmişdir. Şükürəli xan hakimiyyətdə uzun müddət qala bilmədi. İki ildən sonra o, Cəfərqulu xan tərəfindən devrildi.

Cəfərqulu xan yenidən Naxçıvan xanlığında hakimiyyəti ələ keçirdiyi zaman Abbasqulu xan Naxçıvan taxtını özünə qaytarmaq məqsədi ilə dəfələrlə gah qarabağlı İbrahimxəlil xana, gah da II İrakliyə, gah da Rusiyanın Qafqazdakı hərbi dairələrinə müraciət edirdi.

Azərbaycan xanlıqları ilə münasibətləri pozmamaq xatirinə II İrakli hətta Naxçıvan xanlığının arasında Xoy xanı Əhməd xanın vasitəçiliyilə Cəfərqulu xanla Abbasqulu xan iki yerə bölünməsini təklif etdi.

Azərbaycan xanlıqlarına gəldikdə isə, bu dövrdə feodal ara müharibələri qızışdığından onlar Naxçıvanla bağlı işlərə qarışmağa belə macal tapmırdılar.

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 331, IV hissə, vər. 20.
[2] Yenə orada, səh. 15.

Azərbaycan xanlıqları arasındakı ziddiyyətlərdən Türkiyə istifadə edə bilərdi. Bu isə öz növbəsində Rusiyanın həmin bölgədə yeritdiyi siyasəti müvəffəqiyyətsizliyə uğradırdı. Bununla əlaqədar Rusiya dövlətinin hakim dairələri Qafqaz xəttində olan ordunun komandanlığına tapşırmışdı ki, "...yaxın olduqları yerlərdə Azərbaycan hakimlərinə, irəvanlı Hüseynəli xana, təbrizli Nəzərqulu xana, xoylu Əhməd xana, Urmiyalı Qulu xana sakitlik yaratmaq, öz aralarında razılığa gəlmək, sülhü qoruyub saxlamaq və öz imkanları ilə razılaşmaq üçün onlara təsir etsinlər. Onlara (Azərbaycan xanlarınan – red.) bildirmək lazımdır ki, dinclik və sakitliyi Rusiya verə bilər. Rusiya ilə etibarlı qonşuluq əsasında güclü himayəçi tapa bilərlər... Mən inanıram ki, Azərbaycanın hakimləri özləri bu həqiqəti dərk edəcək, qanlı ara müharibələrinə son qoyacaq və bu da həm özlərinin, həm də insanlığın xeyrinə olacaqdır"[1].

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan xanları bir-biri ilə qanlı feodal ara müharibələri apardıqlarından Naxçıvan xanlığını sanki yaddan çıxarmışdılar. Bu dövrdə Azərbaycan xanlarından qonşuluqda olan Xoy xanı və xüsusilə Qarabağ xanı Naxçıvan xanlığına daha çox maraq göstərirdilər. Qarabağlı İbrahimxəlil xan hətta Naxçıvana yürüş etmək üçün tədbirlər də hazırlayırdı. Abbasqulu xanı hakimiyyətə gətirmək məqsədilə İbrahimxəlil xanı Naxçıvana yürüş etmək fikrini bilən Əhməd xan, onu bu fikirdən daşındırmağa çalışdı. O bu məsələdə İbrahimxəlil xanla birlikdə Təbriz xanlığı üzərinə yürüş etməyi, bu xanlığı bərabər şəkildə öz aralarında bölüşdürməyi təklif etdi. Əhməd xan bu yürüşün qələbə ilə nəticələndiyinə İbrahimxəlil xanı inandırmağa çalışırdı.

Xoy xanı Əhməd xanın bacısı oğlu, Təbriz xanlığının hakimi Nəcəfqulu xan Naxçıvan xanlığına münasibətdə dayısının siyasəti ilə razılaşa bilmirdi. Nəcəfqulu xan öz dayısına yazaraq məsləhət bilmişdi ki, "o, Cəfərqulu xanla dostluğu rədd etsin, çünki bu dostluqdan heç bir qazanc əldə edə bilməz. Nəhayət, bu dostluq yalnız bizim əleyhimizə çevrilə bilər". Öz məktubunda daha sonra Əhməd xana yazırdı ki, "Çar İrakliyə qarşı dayanmaq mümkün olmayacaq və belə olduqda heç bir bəylərbəyiliyi (xan nəzərdə tutulur – red.), yaxud digərləri onunla hesablaşmayacaq. Bu narazılığın acı nəticəsi ona gətirib çıxara bilər və yaranmış vəziyyəti bundan sonra

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 288, vər. 32.

qaydaya salmaq mümkün olmayacaq”[1]. Çox güman ki, Nəcəfqulu xan hadisələrin gedişi haqqında Qafqazdakı rus komandanlığından aldığı məktub vasitəsilə öyrənmişdi və bununla əlaqədar hərəkət etmişdi. Məsələ burasındadır ki, 1783-cü il Georgiyevsk traktatına əsasən Kartli – Kaxeti çarlığının Rusiyanın himayəsinə keçməsi müəyyən dərəcədə Cənubi Qafqaz və Cənubi Azərbaycan xanlıqları üçün də əhəmiyyətli idi. Azərbaycan ərazisində mövcud olan dövlət qurumları – xanlıqların başçılarının əksəriyyəti Rusiyanın müstəmləkəçilik siyasətini dərk etmədən çarizmin vədlərinə inanır və sadəlövhlüklə Rusiyaya ümid bəsləyirdilər. Diplomatik münasibətlərdə çox ehtiyatlı olan Rusiya hökuməti Gürcüstanla müqavilə bağladıqdan sonra “müsəlman xanlarına” göndərdiyi “hədiyyələrlə” yanaşı, “xəbərdarlıq” da etmişdi ki, onlar Gürcüstanla münasibərlərini nizama salsınlar.

Qeyd etmək lazımdır ki, Rusiya dövlətinin “xəbərdarlığından” sonra Azərbaycan xanlarının əksəriyyəti Rusiyadan ehtiyat edərək Kartli – Kaxeti çarlığı ilə münasibətləri nizama salmaqla Rusiya tərəfindən də öz əmin – amanlıqlarını təmin etdilər. Təbriz, Ərdəbil, Şəki və digər xanlıqlardan Rusiyaya göndərilən cavab məktublarının əsli hazırda Mərkəzi Dövlət Hərb Tarixi Arxivində hifz olunur. Həmin məktubların məzmunundan müəyyən etmək olar ki, Azərbaycan xanları təhlükə qarşısında Georgiyevsk traktatını “bəyənməyə” məcbur olmuşdular.

Yuxarıda qeyd edildi ki, qarabağlı İbrahimxəlil xanla xoylu Əhməd xan arasındakı şərtə görə “...Təbrizi tutmaq və əldə edilmiş qəniməti bölmək, daha sonra Naxçıvanı ələ keçirmək və İbrahhimxəlil xana tabe etdirmək, Naxçıvanda 1793-cü ildə isfahanlı Əlimurad xan tərəfindən devrilmiş və İbrahimxəlil xana arxalanan Abbasqulu xanı hakimiyyətə gətirmək”[2] qərara alınmışdı.

Qarabağlı İbrahimxəlil xanın qarşısında daha vacib bir məsələ dururdu. O, Gəncədə boş qalmış xan taxtına öz yaxın adamını çıxarmaq istəyirdi. Tezliklə İbrahimxəlil xanın vasitəçiliyi ilə Cavad xan Gəncə xanlığının hakimi təyin olundu. İbrahimxəlil xan bu barədə arxayınlaşdıqdan sonra öz qoşunları ilə birlikdə Xoylu Əhməd xanla birləşmək üçün hərəkət etdi. Xoya gedərkən İbrahimxəlil xan Naxçıvanı tutmaq, Abbasqulu xanı taxta çıxarmaq və yürüşü davam etdirmək qərarına gəldi. Qonşu xanların hesabına İbrahimxəlil xanın

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 288, vər. 32.
[2] P.Q.Butkov. Göstərilən əsəri, səh. 176.

güclənməsi Qafqazdakı rus komandanlığının planlarına mane oldu.Ona görə də İbrahimxəlil xanın Naxçıvan xanlığı ilə əlaqədar fikrini bilən polkovnik S.Burnaşev Xoy və Urmiya xanlarına yazdığı məktubda onlardan Naxçıvan xanlığının müdafiəsinə qalxmağı müraciət etmişdi. 1786-cı il iyul ayının 20-də S.Burnaşev P.S.Potyomkinə yazdığı raportda xəbər verirdi ki, iyun ayının 12-də Naxçıvan xanlığında II İraklinin sarayına gəlmiş nümayəndə İbrahimxəlil xana qarşı kömək etməyi xahiş etmişdir.

S.Burnaşevin bütün cəhdlərinə baxmayaraq, qarabağlı İbrahimxəlil xan öz orudsunu Naxçıvan xanlığı üzərinə göndərdi. Qarabağ qoşunları Naxçıvan torpağında görünən kimi, "Cəfərqulu xan Şərur çayı sahilindəki qalada gizləndi..."[1]. Beləliklə, 1787-ci il may ayının əvvəllərində İbrahimxəlil xanın qoşunu Naxçıvan qalasını ələ keçirərək Abbasqulu xanı hakimiyyətə gətirdi. Arxiv sənədlərində deyilir: "Naxçıvan xanlığının tutulması və Abbasqulu xanın hakimiyybətə gətirilməsini İbrahimxəlil xan öz ad ilə deyil, Abbasqulu xanın II İraklidən kömək alması və qüvvətlənməsiilə əlaqələndirirdi"[2].

Naxçıvanı tutduqdan sonra Qarabağ qoşunları Abbasqulu xanın dəstəsi ilə birlikdə Cəfərqulu xanı təqib etməyə başladılar. Lakin bu tədbir uğursuzluqla nəticələndi. Təkcə bunu qeyd etmək kifayətdir ki, müttəfiqlər yürüş zamanı Naxçıvanda Şərur çayı sahilindəki mal-qaranı ələ keçirmək istərkən Cəfərqulu xanın adamları onlardan mal-qaranı geri alıb, özlərini də məğlub etmişdilər.

Arxiv sənədlərindən məlum olur ki, Cəfərqulu xan Naxçıvanı tərk edərkən Əhməd xanın köməyi ilə bir neçə qalanı ələ keçirmiş, özü üçün isə Haci Dəmir qalasını iqamətgah seçmişdi.

İbrahimxəlil xan bu yürüşdəki uğursuzluqdan sonra vaxt itirmədən Təbrizə doğru hərəkət etməyi qərara aldı. Lakin Əhməd xanla müttəfiqliyə ümid olan Qarabağ xanı İbrahimxəlil xan aldanmışdı. Belə ki, İbrahimxəlil xan yolda olarkən artıq Xoy qoşunları Təbrizi tutmuşdular. Əhməd xan İbrahimxəlil xana "...Təbrizdən ələ keçirilmiş qənimətdən... heç nə vermədi. Əhməd xan bildirdi ki, o, Təbrizdə yalnız hakimiyyəti dəyişmişdir. Buna qohum kimi hüququ vardır. Lakin Naxçıvan xanı Cəfərqulu xanı öz himayəsinə götürüb ... onun işlərinə qarışmağa ixtiyarı yoxdur. Çünki Naxçıvana

[1] MDHTA, F. 52, siyahı 1/194, sənəd 366, III hissə, vər. 20.
[2] Yenə orada, vər. 323.

sahib olmaq üçün İsfahanın hakimi tərəfindən fərman Cəfərqulu xana verilmişdir".

Bu yürüşdə müvəffəqiyyətsizliklər bir – birinin ardınca İbrahimxəlil xanı təqib edirdi. Belə ki, Təbriz işlərilə məşğul olduğu dövrdə Cəfərqulu xanın qardaşı cəsarətlə Kəlbəli xan Abbasqulu xanı hakimiyyətdən devirərək 1787-ci ildə özünü xan elan etdi. Abbasqulu xan yenidən Naxçıvanı tərk etməyə məcbur oldu. Bu hadisə o məqamda baş vermişdi ki, II İrakli "...İbrahim xanın Naxçıvanı tutduğu xəbərini eşidib knyaz İvan Baqrationu göndərmişdi ki, ... o, nəyin bahasına olursa – olsun İbrahim xanın Naxçıvanda möhkəmlənməsinə yol verməsin"[1]. Lakin Kəlbəli xan artıq Naxçıvanı ələ keçirmişdi və gürcü qoşunlarını qalaya buraxmadı. 1787-ci il may ayının 20-də Baqration çar II İrakliyə göndərdiyi məktubda yazmışdı: "Kəlbəli bəy... güclü müqavimət göstərmək üçün qaladan çıxmışdı. Lakin mənim gəlişimlə əlaqədar tələsik yenidən qalaya çəkildi"[2]. Naxçıvan qalasını mühasirəyə alan knyaz Baqration İbrahimxəlil xanın ordusunun arxasınca kəşfiyyat dəstəsi göndərdi. Həmin dəstə Sisyan ətrafında azsaylı Qarabağ qoşunları ilə qarşılaşdı. Hər iki tərəf arasında baş verən döyüşdə Qarabağ döyüşçüləri geri çəkildilər. Gürcü qoşunlarının başçısı Xudiya və Borçalıdan olan Tatıoğlu geri qayıdarkən Qarabağ əsgərlərindən birinin cibindən tapılmış İbrahimxəlil xanın Abbasqulu xana yazdığı məktubu da özləri ilə gətirdilər. Həmin məktubda deyilirdi ki, Abbasqulu xan "möhkəm dayansın", tezliklə ona kömək üçün 2000 nəfər qüvvə göndəriləcək. İbrahimxəlil xanla II İrakli arasında ziddiyyətlərin olduğunu bilən Cəfərqulu xan Baqrationla əlavə yaratmağa cəhd etdi. Məqsədi Baqrationun köməyi ilə Naxçıvana qayıtmaq idi. O çalışırdı ki, Baqration tezliklə Naxçıvanı tutsun. Knyaz Baqration İrakliyə göndərdiyi məktubunda yazırdı ki, "Cəfərqulu xan Naxçıvanı asanlıqla alacağını söyləsə də, mən güclü müqavimətə rast gəldim, qalanı 2000 nəfər qoruyur"[3]. Baqrationun Naxçıvanı tutmaq cəhdi çox güman ki, baş tutmamışdı. Məhz ona görə də gürcü dəstələri ətraf kəndləri qarət etməklə yanaşı, çoxlu mal – qara ələ keçirməklə kifayətlənib geri dönmüşdülər.

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 366, III hissə, vər. 324.
[2] Yenə orada.
[3] Yenə orada, siyahı 416, vər. 324.

Baqration məktubun sonunda yazırdı ki, hərbi toqquşmalara baxmayaraq, "... Siz əlahəzrətin gürcülərdən və tatarlardan (azərbaycanlılar nəzərdə tutulur – red.) ibarət olan qoşunları sağ və salamatdırlar"[1]. Beləliklə, nə qarabağlı İbrahim xana, nə də II İrakliyə Naxçıvan xanlığını tutmaq qismət olmadı.

Həmin vaxtdan etibarən cəsarətli və uzaqgörən dövlət xadimi Kəlbəli xanın hakimiyyət dövrü (1787-1820) başlayır. Qardaşı oğlu Abbasqulu xanın iddiasından özünü qorumaq üçün Kəlbəli xan onu Naxçıvana dəvət etdi, ürəyində kin bəsləsə də, ona böyük imtiyazlar verdi.

Kəlbəli xan hakimiyyətə gəldiyi vaxt Azərbaycanda və bütövlükdə Cənubi Qafqazda daxili və xarici vəziyyət xeyli mürəkkəbləşmişdi. Azərbaycanın və Gürcüstanın İran və Osmanlı imperiyası tərəfindən təcavüzkarlığa məruz qalmaları təhlükəsi yaranmışdı. Belə bir tarixi şəraitdə Cənubi Qafqaz xalqları öz daxili imkanları hesabına xarici təhlükəyə qarşı istiqlaliyyətlərini müdafiə edə bilməzdilər. Naxçıvan xanlığında hakimiyyətə gəldiyi gündən Kəlbəli xan Rusiya dövləti ilə həm siyasi, həm də iqtisadi münasibətlər yaratmağa səy göstərmişdi. Bu da səbəbsiz deyildi. Həmin dövrdə İran təcavüzü qarşısında qalan Azərbaycan xanlarına rus dövləti özünü riyakarlıqla Şərq xalqlarının "dostu" kimi qələmə verir, Azərbaycan xanlıqlarına hər vasitə ilə kömək göstərəcəyini vəd edirdi. Məhz buna görə də Kəlbəli xan sadəlövhlüklə rus diplomatlarının fitnəkarlığına uymuşdu. O da bəzi Azərbaycan xanları kimi Georgiyevsk müqaviləsinin (1783) səmimiyyət naminə bağlanıldığına inanırdı. Kəlbəli xanın hakimiyyəti dövründə Naxçıvan xanlığı nisbətən canlandı. Olan məlumata görə Kəlbəli xan İrəvan xanı ilə birlikdə Xoy xanlığına yürüş edib Xoy şəhərini mühasirəyə almışdı. Bunun da əsas səbəbi vaxtilə Xoy hakiminin Bayazid paşasına kömək etməsi və eyni zamanda Naxçıvan xanlığından, çox güman ki, Cəfərqulu xanın vaxtında, saxlanılmaq üçün verilmiş qiymətli şeylərin qaytarılması idi.

Birləşmiş Naxçıvan və İrəvan qoşunları yalnız Xoyda saxlanılan qiymətli şeyləri geri aldıqdan sonra Xoy xanlığını tərk etdilər. Bir qədər keçdikdən sonra isə Xoy hakimi Kəlbəli xanla barışmış

---

[1] MDHTA, f. 52, siyahı 416, vər. 324.

və onlar birlikdə İrəvan xanlığına basqın etmişdilər. İrəvandan xərac aldıqdan sonra müttəfiq qoşunları geri çəkildilər.

Bütün bu tədbirlər Naxçıvan xanlığının müəyyən qədər möhkəmlənməsinə səbəb oldu. Kəlbəli xan Naxçıvanj xanlığının möhkəmləndirilməsi ilə məşğul olduğu zaman onun Naxçıvandan kənarda yaşayan əmisi oğlu Cəfərqulu xan hakimiyyətə qayıtmaq fikrindən dönməmişdi. O bu məqsədlə də gah bu, gah da digər xana kömək üçün uğursuz müraciətlər etmişdi. Amma buna baxmayaraq, "Qacar təhlükəsinə" qədər naxçıvan xanlığında elə bir fövqəladə hadisə baş verməmişdi.

XVIII əsrin 80-cı illərinin sonlarında İranda Qacar sülaləsinin əsasını qoymuş Ağa Məhəmməd xanın şöhrəti getdikcə artırdı. 90-cı ilərin əvvəllərində o, demək olar ki, bütövlükdə İranı öz hakimiyyəti altında birləşdirdi. Hətta 1791-ci ildə tacqoyma mərasimini başqa vaxta keçirsə də özünü şah elan etdi. Ağa Məhəm məd xan eyni zamanda özünü Azərbaycanın da hakimi hesab edirdi.Çünki Səfəvilər dövlətində qərarlaşdırılmış ənənəyə görə şah həm də Azərbaycanın və Gürcüstanın ali hakimi olmalı idi.

Cənubi Azərbaycan xanlıqlarının bəzilərini özünə tabe edən Ağa Məhəmməd xan 1791-ci ildən başlayaraq öz qoşunlarını Şimali Azərbaycana yürüş üçün hazırlamağa başladı. Qəribədir ki, hətta bu xəbəri eşidən bəzi Azərbaycan xanları yenə də bir – birinə ədavətdən əl çəkmirdilər. Belə ki, 1792-ci ildə qarabağlı İbrahimxəlil xan Naxçıvan xanlığına əl uzatmaq fikrində idi. O, Dağıstandakı qohumu Ömər xanla ittifaqa girərək Naxçıvan qalasına yürüş etdi. Müttəfiq qoşunlarının sayı 11 minə çatırdı. Lakin qalanın mühasirəsi uzun çəkmədi. Tezliklə Xoy və İrəvan xanlarının köməyi ilə Kəlbəli xan döyüşdə qəti qələbə çaldı. Bu döyüşdə İbrahimxəlil xan 1000 nəfər, Ömər xan 700 nəfər, Kəlbəli xan isə müttəfiqləri ilə birlikdə cüzicanlı qüvvə itirdi. Qarabağ qoşunlarının tərkibində Dağıstandan gəlmiş çoxlu muzdlu döyüşçülər olduğuna görə, bu günə qədər Naxçıvan ətrafında gedən döyüş yeri "ləzgiqıran" adlanır.

İbrahimxəlil xan və Ömər xanın ordusu yenicə Naxçıvan xanlığını tərk etmişdi ki, Ağa Məhəmməd xanın qasidləri Azərbaycana daxil oldular. Mənşəcə azərbaycanlı olan Qacar tayfasının nümayəndəsi Ağa Məhəmməd xan elə güman edirdi ki, Azərbaycan xanları ilə asanlıqla ümumi dil tapa biləcək. Bu məqsədlə o, "...hər bir

xanlığa öz nümayəndəsini göndədək ona tabe olmaq rəmzi kimi arvadını, uşağını və ya qardaşını girov tələb etdi"[1]. Qacarlar tərəfindən girovların alınması mərkəzdən uzaqda olan feodalların həmişə itaətdə qalmalarına zəmanət verirdi.

Ağa Məhəmməd xana müqavimət göstərmək üçün kifayət qədər gücü olmayan Kəlbəli xan tabeçilik rəmzi kimi qəlbən nifrət bəslədiyi Abbasqulu xanı girov kimi Ağa Məhəmməd xanın düşərgəsinə göndərdi. Belə addımı atmaqla o, bir tərəfdən İran hakiminin tələbini ödəyir, digər tərəfdən isə xanlıq taxtını ələ keçirmək arzusunda olan Abbasqulu xanı Naxçıvandan uzaqlaşdırırdı. Ağa Məhəmməd xan bilirdi ki, Kəlbəli xanın göndərdiyi Abbasqulu xan onun doğma qardaşı deyil. Onu da bilirdi ki, Kəlbəli xan əmisi oğlu Abbasqulu xanı sevmir və onu sadəcə olaraq özündən uzaqlaşdırır. Bütün bunlara baxmayaraq, təbiətin qəddar olan Ağa Məhəmməd xan Naxçıvandan gələn girovu qəbul etdi, lakin Kəlbəli xandan qisas almağı da unutmadı.

Şimali Azərbaycanın bir çox xanlıqlarından və Kartli – Kaxeti çarlığından rədd cavabı alan Ağa Məhəmməd xan silaha əl atmalı oldu. Onun ordusu üç istiqamətdə hərəkət edirdi – Talış, İrəvan və Qarabağ istiqamətində. Ağa Məhəmməd xan özü seçmə qoşunun başında Qarabağ istiqamətində irəliləyirdi. Ağa Məhəmməd xanın böyük bir ordu ilə Arazı keçməsi xəbəri Cənubi Qafqaz xalqlarının arasında təşvişə səbəb oldu. Yoxsul xalq kütləsi üçün hadisə ilk baxışda bir o qədər də dəhşətli deyildi. Sadəcə olaraq onların ağaları başqaları ilə əvəz olunacaqdı. Varlılar isə işğalçıların gəlmələri ilə mal – dövlətlərindən məhrum ola bilərdilər.Ona görə də Qarabağ, İrəvan, Naxçıvan və digər xanlıqların varlı adamları öz əmlaklarını götürərək Gürcüstana qaçır və belə hesab edirdilər ki, Ağa Məhəmməd xan Rusiyanın himayəsini qəbul etmiş Kartli – Kaxeti çarlığına daxil olmağa cəsarət etməyəcək. Lakin məlumdur ki, Gürcüstan da Ağa Məhəmməd xanın törətdiyi talanın qurbanı oldu.

Ağa Məhəmməd xanın Cənubi Qafqaza birinci yürüşü barədə həm inqilabaqədərki müəlliflər, həm də müasirlərimiz bir sıra əsərlər yazmışlar. Ona görə də bu məsələ üzərində geniş dayanmağa ehtiyac yoxdur. Yalnız onu qeyd etməliyik ki, Ağa Məhəmməd xanın Cənubi Qafqaza etdiyi birinci yürüşü gözlənilən nəticəni vermədi.

---

[1] MDHTA, f. 52, siyahı 1/194, sənəd 416, vər. 324. Ağa Məhəmməd xanın fərmanlarının bir neçəsi Rusiyanın Xarici Siyasət Arxivində (RXSA) saxlanılı. Bax: RXSA. Rusiyanın İranla əlaqəsi fondu, siyahı 77/6, sənəd 6, vər. 339-348.

Belə ki, İran ordusu Tiflisi viran etsə də gürcü xalqının müqavimətini qıra bilmədi. Azərbaycan ərazisində isə Ağa Məhəmməd xanın qoşunları azərbaycanlıların son dərəcə güclü müqavimətinə rast gəldilər. Birinci yürüşdə Ağa Məhəmməd xan Cənubi Qafqazı keçmişdə olduğu kimi İranın əyalətlərindən birinə çevirə bilmədi. Şuşanın 33 günlük mühasirəsi və Şuşa ətrafında İran ordusunun məğlubiyyəti isə Ağa Məhəmməd xanın hərbi şöhrətini xeyli dərəcədə sarsıtdı. Lakin bununla belə Ağa Məhəmməd xanın bu yürüşü Cənubi Qafqaz xalqlarına saysız dərəcədə bədbəxtliklər gətirdi. İran sərbazlarının yerli əhali ilə amansız rəftarı Azərbaycanın və Gürcüstanın təsərrüfütına ağır zərbə endirdi, məhsuldar qüvvələrin pisləşməsinə, habelə şəhərlərin dağıdılmasına və ticarətin zəifləməsinə gətirib çıxardı.

Məlum olduğu kimi, Ağa Məhəmməd xanın Cənubi Qafqaza birinci yürüşü ərəfəsində bir çox yerli hakimlər kömək üçün Rusiyaya müraciət etmişdilər. Uzun götür – qoydan sonra,nəhayət imperatriçə II Yekaterina Cənubi Qafqaza ordu göndərməyi qərara aldı. Bu hadisə Ağa Məhəmməd xanın Azərbaycanı tərk etməsinə səbəb oldu.

Ağa Məhəmməd xan geri çəkilərkən Şimali Azərbaycan xanlarının ona tabe olmaması və ya formal olaraq sözdə sədaqətli qalacaqları ilə qətiyyən razılaşa bilmirdi. Belə hakimlərdən biri də Naxçıvan xanı Kəlbəli xan idi ki, Ağa Məhəmməd xan onunla haqq-hesab çəkməyi unutmurdu. Kəlbəli xan sonralar Ağa Məhəmməd xanın qəzəbinin qurbanı oldu. Ağa Məhəmməd xanın əmrilə onun gözləri çıxarıldı və Naxçıvandan uzaqlaşdırıldı. Bu hadisə tarix ədəbiyyatında müxtəlif cür izah olunur. “Naxçıvan əyalitinin statistik təsvirinin” müəllifi bu münasibətlə yazır: “Ağa Məhəmməd dağıdılmış Gürcüstandan geri qayıdarkən, Kəlbəli xanı silah gücünə özünə tabe edə bilməyəcəyini başa düşdüyü üçün hiyləyə əl atdı. Hörmətli adam kimi onu öz düşərgəsinə dəvət etdi. Kəlbəli xan sadəlövhlüklə bu təklifi qəbul etdi. Lakin düşərgəyə gələn kimi kor edilib Tehrana göndərildi və həbsxanada saxlanıldı. Bu hadisədən sonra Naxçıvan xanlığı demək olar ki, öz müstəqilliyini itirdi”[1].

Beləliklə, ehtimal etmək olar ki, Kəlbəli xanın gözləri ağa Məhəmməd xanın birinci yürüşü dövründə, 1795-ci ildə çıxarılmışdı.

---

[1] Naxçıvan Əlyazmalar Arxivi, səh. 49.

Akademik P.Q.Butkov bu məsələ ilə bağlı bir qədər başqa cür yazır: "Rus ordusunun qəflətən geri çəkilməsi ilə əlaqədar 1797-ci ilin yazında qəddarlıq və amansızlıqla hücum edən Ağa Məhəmməd camaatı qırırdı. Onun məqsədişuşalı İbrahim xanı darmadağın etdikdən sonra yenidən Gürcüstana getmək idi. O istəyirdi ki, vaxtilə Şah Abbas şamaxılılara, şəkililərə, naxçıvanlılara, talışlara, gürcülərə və başqalarına divan tutaraq Mazandaran və Astrabada köçürdüyü kimi, o da əhalini doğma yurdlarından ayırıb sürgün etsin. Naxçıvana göndərilmiş sərdara göstəriş verilmişdi ki, Naxçıvan əhalisini zorla İrana köçürsün, kəndləri isə viran etsin. Naxçıvan xanı (Kəlbəli xan-red.) qərara aldı ki, özü şəxsən Ağa Məhəmməd xandan xahiş etsin ki, əhaliyə divan tutmasın. Lakin özü barinci olaraq Ağa Məhəmməd xanın qəzəbinə düçar oldu"[1].

Bizə elə gəlir ki, P.Q.Butkovun fikri həqiqətə daha yaxındır. Çünki Kəlbəli xan rus ordusu 1796-cı ildə Azərbaycanda olarkən nəinki ordunun ali baş komandanı V.Zubovla yazmışdır, hətta o, Rusiyadan İran təcavüzünə qarşı kömək almaq kimi sadəlövh məqsədlə rus dövlətinin təbəəliyini qəbul etməyə hazır olduğunu da bildirmişdi.

1796-cı ildə rus qoşunlarının Azərbaycana gəlmələri burada qüvvələrin parçalanmasına səbəb oldu. Azərbaycan xanlıqlarında Rusiya dövlətinə qarşı münasibət müxtəlif idi.yerli əhalinin rus komandanlığına münasibəti haqqında kifayət qədər arxiv sənədləri vardır. Sənədlərdən aydın olur ki, rus ordusunun Baş qərargahı yerli feodalları öz tərəfinə çəkmək məqsədilə onlara vədlər verir, düşmənlərə qarşı mübarizədə silahla kömək edəcəklərinə boyun olurdu. Rus ordusunu qərargahından çıxan rəsmi sənədlərdən birində deyilir ki, Ağa Məhəmməd xan xeyli əhaliyə "əziyyət vermiş və onu qarət etmişdir. Lakin Rusiya ordusundan yalnız kömək və dostluq gözləmək olar. Rus ordusu buraya ona görə gəlmişdir ki, bu diyarı azad etmiş və devrilmiş hakimləri öz yerlərinə bərpa etsin"[2]. Azərbaycan xanları ilə "dostluq" münasibəti yaratmaq məqsədi ilə rus ordusunun qərargahı onlara qiymətli hədiyyələr verir, nümayəndələr göndərməklə xoş münasibətlər yaratmağa çalışırdı. Rus komandanlığının nümayəndələri komandanlıq adından onlara həmişə kömək ediləcəyi,

[1] P.Q.Butkov. Göstərilən əsəri, səh. 427-428.
[2] RXSA, f. 77/1, sənəd 158, vər. 89.

İran təhlükəsindən qorunacaqları və onların hakimiyyətlərinin gücləndirilməsi üçün səy göstərəcəklərini vəd edirdilər. Bütün bu vədlər ayrı–ayrı xanları şirnikdirir, onlar bu vədlərlə əlaqədar olaraq Rusiya dövlətinin himayəsi altında öz hakimiyyətlərini möhkəmləndirəcəklərinə inanırdılar. Beə xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Kəlbəli xanın çar Rusiyasının səmimiyyətinə inanması ona baha başa gəldi. Yuxarıda qeyd edildiyi kimi, 1796-cı ildə Rusiya hakimiyyət orqanları ilə əlaqə saxlanması Ağa Məhəmməd xan kimi zülmkarın qəzəbinə səbəb oldu.

Kəlbəli xan Tehran həbsxanasında çox qalmadı. Ağa Məhəmməd xanın ölümündən (1797) sonra iran taxtında onu əvəz etmiş Fətəli şah Kəlbəli xana "azadlıq" bağışlasa da,ona Naxçıvanda deyil, İrəvan xanlığında yaşamaq üçün icazə verdi. Çünki bu zaman Naxçıvan xanlığını Abbasqulu xan idarə edirdi.

Gözlərini itirsə də ruhdan düşməyən Kəlbəli xan siyasətdən kənarda qala bilmədi. İrəvanlı Məhəmməd xanın qətiyyətsiz və həm də çox cavan olmasından istifadə edən Kəlbəli xan tezliklə "...onun etimadını qazandı və xanlığın etibarlı adamına çevrildi".

Kəlbəli xan naxçıvanlılar arasında böyük hörmətə malik idi. Ona görə Kəlbəli xanın İrəvanda olması xəbərini eşidən saray əyanlarının əksəriyyəti öz ailəsi ilə birlikdə ora köçürdülər. Abbasqulu xan belə axının qarşısını ala bilmədi və nəticədə bu hadisə onun hakimiyyətdən uzaqlaşdırılmasına səbəb oldu. İran hakimiyyətinin himayəsindən məhrum olan Abbasqulu xan da İrəvana getməyi qərara aldı. Burada Kəlbəli xan onu qəbul edərək Naxçıvandan gələn digər feodallarla danışıqlar apardı.

Naxçıvanlıların və Abbasqulu xanın İrəvana gəlmələri Kəlbəli xanın siyasi aləmdə mövqeyini daha da möhkəmləndirdi. Tezliklə Kəlbəli xan İrəvan xanın qoşunu ilə... Naxçıvandan əli çıxan Abbasqulu xanla birlikdə Qars üzərinə hərbi yürüş etdi. Kəlbəli xanı bu yürüşdə gürcü şahzadəsi Aleksandr da müşayiət edirdi. Onun əsl məqsədi hakimiyyəti ələ keçirmək üçün Gürcüstandan kənarda özünə müttəfiq axtarmaqdan ibarət idi.

Naxçıvanlıların və irəvanlıların Qars üzərinə yürüşü Qafqazdakı rus komandanlığı tərəfindən dayandırıldı. Bu ona görə edildi ki, 1801-ci ildə Rusiyanın tərkibinə daxil olmuş Gürcüstanın (Kartli-Kaxeti) sərhədlərində münaqişə olmasını rus komandanlığı arzulamırdı.

Həm də Kəlbəli xanın hərbi yürüşü haqqında Qars paşası rus qoşunlarının Qafqazdakı ali baş komandanı general – leytenant Knorrinqə xəbər vermiş və insan qırğınının qarşısın almaqla ona kömək göstərməyi xahiş etmişdi.

Birləşmiş Naxçıvan və İrəvan qoşunları geri qayıtdıqdan sonra İran qoşunlarının sərkərdələrindən biri – Pirqulu xan 400 nəfər sərbazla naxçıvanda göründü. O, İrəvan xanına fərman göndərərək tələb etdi ki, "...Naxçıvandan köçənləri geri qaytarsın. Əks təqdirdə yüz min manat məbləğində cərimə verilməlidir"[1]. Lakin Pirqulu xanın qoyduğu tələb təkcə yuxarıda deyilənlərlə məhdudlaşmırdı. Şahın göstərişi ilə o, Azərbaycan xanlarının hamısına fərman göndərərək tabe olmaq rəmzi kimi girov tələb etdi. Eyni zamanda Pirqulu xan Gürcüstana hücum üçün tədbirlər də hazırladı. Bu məqsədlə o, çar XII Georginin düşmənləri ilə əlaqə saxlayır, öz qoşununu azərbaycanlılar hesabına güclındirmək istəyirdi. Lakin onun bu cəhdi müvəffəqiyyət qazanmadı.

1802-ci il sentyabrın 11-də P.D.Sisianov acənubi Qafqazdakı rus qoşunlarına baş komandan təyin edildi. O, həm bacarıqlı, həm də təbiətcə zalım idi. Rəsmən P.D.Sisianov Qafqaz xəttinin inspektoru, Həştarxanın qubernatoru, Gürcüstanda mülki işlər rəisi hesab olunurdu.

P.D.Sisianov hələ 1776-cı ildə V.Zubovun komandanlığı altında cənuba yürüş edən rus qoşunun tərkibində olduğu dövrdə, özünü bacarıqlı zabit kimi göstərmişdi.

P.D.Sisianov Qafqazdakı rus qoşunlarının ali baş komandanı təyin edildikdən sonra Fətəli şah Pirqulu xanı geri çağırdı. Yerli əhalinin rəğbətini qazanmaq məqsədi ilə Fətəli şah Kəlbəli xanı Naxçıvanın hakimi kimi tanıdı və ildə İran xəzinəsinə müəyyən məbləğdə xərac vermək şərti ilə onun Naxçıvana xan kimi getməsinə razılıq verdi.

Lakin bu tədbirlə İranın yeni hökmdarı Fətəli şah nə yerli əhalinin, nə də Kəlbəli xanın hörmətini qazana bildi. Müasirlərindən P.Zubovbu barədə belə yazır: "Hakimiyyət başında olan Qacar sülaləsinə nifrət bəsləyən Naxçıvan xanı, nəinki xərac verməkdən imtina etdi, həmçinin Fətəli şahı İranın hökmdarı kimi də tanımadı"[2]. Kəlbəli xanın Naxçıvana qayıtması ilə Sisianovun Tiflisə gəlməsi eyni vaxta – 1803-cü ilin fevralına təsadüf edir.

---

[1] P.Q.Butkov. Göstərilən əsəri, səh. 527.

[2] П.Зубов. Подвиги русских воинов в странах Кафказа, СПб., 1835, стр. 72.

Sisianov Kəlbəli xanın Naxçıvanda və İrəvanda böyük hörməti olduğunu bilirdi. Şahın Kəlbəli xana səmimiyyətdən uzaq, saxta münasibətindən də xəbəri vardı. Sisianov bu vəziyyətdən istifadə etmək qərarına gəldi. Uzun müddət erməni katolikosu Danil Tehranda saxlanılırdı. Cənubi Qafqaz ermənilərinin hörmətini qazanmaq üçün Sisianov Kəlbəli xanın vasitəsilə Danili İrəvana qaytarmağı qərara aldı. 1803-cü ilin fevralın 6-da Sisianov Kələbəli xana yazırdı: "...ali məqamınızdan xahiş edirəm ki, sizdən asılı olan bütün imkanlardan istifadə edərək Ümumrusiya əlahəzrət imperatoru və ali sultanın razılığına əsasən, Ararat patriarxı Danil katolikosun öz vəzifəsinə qaytarılması üçün kömək edəsiniz. Mənə gəlib çatan xəbərə görə inanıram ki, sizin katolikos Danilin geri qaytarılması üçün imkanlarınız var"[1]. Əlimizdə hələlik Kəlbəli xanın cavab məktubu yoxdur. Lakin onun arxiyepiskop Ohanesə yazdığı məktubundan Naxçıvan xanının həmin məktuba olan münasibətini müəyyənləşdirmək olar. Məktubda deyilirdi: "Mən iranlılardan o qədər incimişəm ki, onlar Allah olsalar belə, onlara boyun əymərəm...əgər mən dəqiq bilsəm ki, ruslar Gürcüstanı tərk etməyəcəklər, necə ki, qr.Zubov qayıtdı və bunun nəticəsində bizim evlər dağıldı, o zaman mən ruslara xidmət edərəm. Mənim haqqımda Sisionova pis cəhətdən məlumat verilmişdir. Əgər mənə yazdığı kimi, ruslar Gürcüstanda möhkəmlənsələr,mən də dövlətinizin xidmətində olaram. Mən ayın 28-də İrana şahın yanına gedəcəm və bu səfərdə əsas məqsədim patriarx Danili Naxçıvana gətirməkdir və buna siz əmin ola bilərsiniz"[2].

Məktubdan götürülmüş bu qısa iqtibasdan müəyyən etmək olar ki, Kəlbəli xan rus dövlətinə pis münasibət bəsləmirmiş, həmişə olduğu kimi, sadəlövhlüklə rus dövlətinin köməyinə bel bağlayırmış.

Çox güman ki, bu məktubdan sonra Kəlbəli xan İrana getmiş və katolikos danilin geri qaytarılmasına nail olmuşdur. Lakin irəvanlı Məhəmməd xan Danili İrəvana buraxmamışdı. Çünki bu zaman xanın özü tərəfdən təyin edilmiş David adlı başqa bir erməni ruhanisi buranı idarə edirdi. İrəvanlı Məhəmməd xanın belə hərəkəti Sisianovun ciddi narazılığına səbəb oldu. Bu münasibətlə Sisianov 1804-cü il may ayının 5-də Kəlbəli xanın adına məktub da göndərdi.Həmin məktubda Məhəmməd xanın ünvanına hədələyici sözlər yazaraq onun

---

[1] Акты Кафказской Археографической Комиссии (АКАК), т. II, док. 1270, стр. 638.
[2] AKAK, II c., sənəd 1271, səh. 634.

nəzərinə bunları çatdırmağı Kəlbəli xandan tələb etdi: 1) Hər şeydən əvvəl Davidlə gedən danışıqlar kəsilməsi və patriarx Danil öz yerinə bərpa olunmalı; 2) qala (irəvan – red.) rus qoşunları tərəfindən tutulduqdan sonra xana qalada və ya qaladan kənarda yaşamağa sərbəstlik veriləcəkdir; 3) xan rus imperatorunu özünün dövlət başçısı kimi qəbul etməli, sədaqətli olacağına and içməlidir; 4) xan Rusiyaya 80 min manat həcmində xərac verməli və hər il bu xərci iki müddətdə - birinci yarısını Novruzdan bir gün keçdikdən sonra, ikinci yarısını isə iyul ayından sonra ödəməlidir. Bunun müqabilində xan, öz əvvəlki hüququnda qalacaq və rəisliyini davam etdirəcək. İmperator xanlıq hüququ barədə şəhadətnamə verəcək ki, bu da onun təhlükəsizliyini təmin edəcək. Eyni zamanda xan ailəsinin İrandan gətirilməsi üçün bütün tədbirlər görüləcək”[1].

Göründüyü kimi, rus komandanlığı Kəlbəli xandan istifadə edərək, onun vasitəsilə irəvanlı Məhəmməd xana təsir göstərməyə çalışır, İrəvan xanlığını ələ keçirmək məqsədini güdərək Eçmiədzinə daha etibarlı Danili katolikos qoymaq istəyirdi. Bununla rus komandanlığı Cənubi Qafqazda xristianların, xüsusilə hələ o vaxt dünyanın bir çox ölkələrinə yayılmış ermənilərin hüsn – rəğbətini qazanmağa can atırdı. Lakin o zaman bu fikri həyata keçirmək mümkün olmadı.

Rus komandanlığı hərbi-strateji cəhətdən əlverişli olan İrəvan xanlığını fəth etmək üçün tədbirlər hazırladığı zaman, ingilis və fransız diplomatiyası tərəfindən qızışdırılan şah hakimiyyəti 1804-cü ilin may ayında rus komandanlığından tələb etdi ki, qoşunlarını Cənubi Qafqazdan çıxarsın. Bu elə bir vaxta təsadüf edirdi ki, Sisianov naxçıvanlı Kəlbəli xanla danışıqlar aparırdı. Rusiya İranın notasını rədd etdiyinə görə, 1804-cü il iyunun 10-da İranla Rusiya arasında diplomatik münasibətlər kəsildi və beləliklə də bu iki dövlət arasında, tarixdə məşhur olan birinci Rusiya – İran müharibəsi başlandı.

---

[1] AKAK, II c., sənəd 1271, səh. 639.

# XANLIĞIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

## 1. Naxçıvan xanlığı birinci Rusiya-İran müharibəsi dövründə (1804-1813)

XIX əsrin əvvəllərindən Qafqazı ələ keçirməyi qarşısında məqsəd qoyan çar Rusiyası 1803-cü ildə Car – Balakən camaatını qəddarlıqla tabe etdikdən sonra, 1804-cü ilin yanvarında daha artıq qəddarlıqla Gəncə xanlığını işğal etdi. Rus qoşunlarının Azərbaycan ərazisindəki təcavüzündən təşvişə düşən İran hökuməti Cənubi Qafqazdan qoşunlarını geri çağırmağı Rusiyadan tələb etdi. Alınan rədd cavabı İranla Rusiya arasında müharibənin başlanması üçün bəhanə oldu.

Müharibənin ilk günlərindən qalibiyyətlə irəliləyən rus qoşunlarının müvəffəqiyyətinə, Car – Balakən və Gəncə xanlığındakı qəddarlıqlarına Azərbaycanın şimalında yerləşən xanlıqlar biganə qala bilməzdilər. Gəncə xanlığının aqibətindən qorxuya düşən Qarabağ, Şəki və Şamaxı xanlıqları rus komandanlığından ehtiyat edərək, "müqavilə" əsasında çar Rusiyasının himayəsini qəbul etməyə məcbur oldular.

Şimali Azərbaycanda siyasi vəziyyətin bu şəkildə dəyişməsi ilə əlaqədar Fətəli şah Cənubi Azərbaycan xanlıqlarını bütünlüklə özünə tabe etmədən var qüvvəsini Cənubi Qafqaz uğrunda mübarizəyə yönəldə bilməzdi.

Hələ İranla müharibəyə başlamazdan əvvəl, yerli vəziyyətlə tanış olan rus ordusunun Qafqaz qoşunlarının ali baş komandanı knyaz P.D.Sisianov yazmışdı: "... Azərbaycan xanlarının böyük bir hissəsi açıqdan – açığa İran şahının özbaşınalığına görə ona nifrət edir"[1]. Məhz bunu nəzərə alan Fətəli şah, ilk növbədə, Cənubi Azərbaycan xanlarını özünə tabe etmək qərarına gəldi. Şah Cənubi Azərbaycanda çox asanlıqla qələbə çalacağına ümid edirdi. Lakin o yanılırdı. Əvvəlki illərdən fərqli olaraq Cənubi Azərbaycanın bir çox xanları ümumi düşmənə qarşı birlikdə müqavimət göstərməyi qərara aldılar.

---

[1] AKAK, II c., sənəd 1216, səh. 610.

Vəziyyətin belə şəkil almasından xəbər tutan Sisianov dərhal rus komandanlığının qərargahına belə bir məlumat verdi: "...Təbriz xanı Əhməd xan... və bundan əlavə Azərbaycanın və İranın daha on xanı Baba xandan (Fətəli şahdan - red.) üz çevirmişlər. Yaranmış vəziyyət onu (şahı – red.) xeyli narahat etmişdir.Əgər şah Azərbaycana gəlsə, Azərbaycan xanları sözləşiblər ki, müqavimət göstərib onu məğlub etsinlər və İran qoşunlarının Aflantu (Qaflankuh – red.) dağı istiqamətindəki hərəkətinin qarşısını alsınlar"[1].

Yuxarıda göstərilən arxiv sənədindən məlum olur ki, Cənubi Azərbaycan xanları birinci Rusiya – İran müharibəsinin əvvəllərində hələ İranın təsiri altına düşməmişdilər.

Açıqdan–açığa İran əleyhinə siyasət yeridənCənubi Azərbaycan xanlarından biri Xoy xanlığının hakimi Cəfərqulu xan idi. O, eyni zamanda Qafqazdakı rus qoşunlarının ali baş komandanı ilə də məktublaşırdı. Bundan xəbər tutan şah Cəfərqulu xanı cəzalandırmaq üçün imkan axtarırdı. Cəfərqulu xanın 200 nəfər atlı ilə xanlıqdan müvəqqəti olaraq getməsindən istifadə edərək, şah ordusu Xoya basqın etdi. Şəhəri talan edən İran sərbazları Cəfərqulu xanın oğlunu, arvadını və qardaşını girov kimi özləri ilə İrana apardılar. Bu hadisədən sonra da Cəfərqulu xan şahatabe olmaqdan imtina etdi və öz dəsyəsi ilə İrəvana gedib qohumu məhəmməd xanın yanında sığınacaq tapdı.

Lakin Cəfərqulu xan uzun müddət İrəvan qalasında qala bilmədi. Fətəli şahın böyük ordu ilə İrəvana yaxınlaşdığını eşitdikdə o buranı da tərk etdi. 1804-cü ilin iyun ayında knyaz P.D.Sisianovun komandanlığı altında rus ordusu İrəvan qalasını mühasirəyə alarkən Cəfərqulu xan da böyük fəallıq göstərdi. "Knyaz Sisianov belə qərara gəlmişdi ki, İrəvan qalasını aldıqdan sonra orada və Eçmiədzin monastırında bir polk qoymaqla Naxçıvana getsin və şəhəri aldıqdan sonra orada da bir polk qoyub Gürcüstana qayıtsın"[2]. Arxiv sənədlərinin birində deyilir ki, bir neçə gündən sonra xanlığından əli üzülmüş Cəfərqulu xan 200 atlı ilə gələrək Rusiya imperiyasına sədaqətli olacağına and içmişdir[3]. Tarixi ədəbiyyatda belə bir məlumat da var ki, guya Cəfərqulu xanın vəziyyətini bilən Kəlbəli xan ona məktub yazır

---

[1] RXSA. Baş arxiv, 11-25, sənəd 1 (1805), və. 7á.
[2] MDHTA, f. VUA, sənəd 4258, II hissə, vər. 12.
[3] Yenə orada, sənəd 1273, səh. 634.

və İrana, Fətəli şahın yanına gedəcəyini, onun oğlunu, arvadını və qardaşını geri alacağını, hətta şahdan onun Xoy xanlığına qaytarılmasını xahiş edəcəyini bildirdi. Yalnız bu şərtlə ki, ruslardan əl çəksin. Ancaq Cəfərqulu xan Rusiyaya meyil etdiyindən bu işə razılıq verməmişdi[1].

Çox güman ki, Kəlbəli xanın bu fikri İran şahına çatdırılmışdı. Heç də təsadüfi deyildir ki, 1804-cü ildə Fətəli şah 15.000 nəfərlik ordu ilə İrəvan qalasını alıb Məhəmməd xanı əsir edərək Tehrana göndərdikdən sonra İrəvan xanlığının idarəsini Kəlbəli xana tapşırdı.

Kəlbəli xanın İran şahı tərəfindən dəstəklənməsi Qafqazdakı rus komandanlığına çatdırılmışdı. Kəlbəli xana onsuz da inanmayan knyaz Sisianov bu hadisədən sonra Naxçıvan xanına etibarını tamamilə itirdi. İran dövləti ilə yaxınlığına görə, Sisianov Kəlbəli xanı özünün ən qəddar düşməni hesab edirdi. Naxçıvan taxtından kənarlaşdırılmış Kəlbəli xanın əmisi oğlu Abbasqulu xan yaranmış vəziyyətdən istifadə etməyə cəhd göstərirdi. Abbasqulu xan Naxçıvandan uzaqlaşdırıldıqdan sonra Sisianovdan sığınacaq tapmışdı. O burada, sözün tam mənasında, quldurluqla məşğul olurdu. Sənədlərin birində deyilir: "İbrahim xanın razılığı ilə Qarabağ qəzasında yaşayan Naxçıvanın sabiq hakimi Abbasqulu xan Təbrizdən, Ordubaddan, Naxçıvandan və digər yerlərdən gələn tacirləri soyub talayır"[2].

Soyğunçuluqla məşğul olan Abbasqulu xan bir an belə Naxçıvan taxtını unutmurdu. Abbasqulu xan yazdığı məktublarında Sisianovun inandırmağa çalışırdı ki, Kəlbəli xandan fərqli olaraq onun Fətəli şahla heç bir əlaqəsi yoxdur. Rus hakim dairələrində Fətəli şah sadəcə olaraq özünün əsil adı ilə - Baba xan adlandırıldığı üçün Abbasqulu xan da Fətəli şaha "Baba xan" deyərək rusların qılığına girməyə çalışırdı. O, məktubların birində yazırdı: "Cəfərqulu xanla müqayisədə mənim Baba xana münasibətim daha pisdir".

Sisianovun Naxçıvan üzərinə yürüş etmək fikrində olduğunu, lakin ərzaq və yem məhsullarının qıtlığı üzündən tərəddüd etdiyini bilən Abbasqulu xanın Sisianova göndərdiyi məktubda deyilirdi: "Yazdığınıza görə, Naxçıvanda ərzaq və yem tapmaq çətindir. Lakin əlahəzrətin nəzərinə çatdırıram ki, Rusiya ordusunu lazım olan bir sıra

---

[1] AKAK, I c., sənəd 622, səh 340.

[2] Yenə orada.

ləvazimatla yanaşı, 10 il müddətində hər cür ərzaqla təchiz edə bilərəm"[1].

Şübhəsiz, Abbasqulu xan rus komandanlığına vəd verməklə, hər şeydən əvvəl, özünün şəxsi məqsədini güdürdü. Bu fikir onun Rusiya komandanlığına yazdığı məktublardan birində daha aydın görünür: "...xahiş edirəm ki, Naxçıvan xanlığına sahib olmaq üçün lütfən mənə fərman verəsiniz"[2].

Təkcə fərmanla kifayətlənməyən Abbasqulu xan daha sonra Sisianovdan xahiş edir ki, ona kömək üçün rus mayorunun komandanlığı altında qoşun göndərilsin ki, "...tezliklə və birlikdə... Naxçıvana gedə bilsin"[3]. Abbasqulu xan arzu edirdi ki, mayor əvvəlcə onun o zaman yaşadığı Sisyana gəlsin.

Lakin həmin dövrdə çoxsaylı İran ordusu Naxçıvanda yerləşdiyi üçün Sisianov rus ordusunu Sisyana göndərmədi. Digər tərəfdən belə bir şəraitdə Sisianov öz qüvvəsini parçaya bilməzdi. Knyaz Sisianov öz raportunda belə yazmışdı: "Bizim əleyhimizə olan kor Kəlbəli xanın qardaşı (əmisi oğlu – red.) naxçıvanlı Abbasqulu xan, Ağa Məhəmməd xanın dövründə Naxçıvanda hakim olmuş və sonra kor qardaşı tərəfindən qovulmuşdur. Hazırda o, Göyçə gölü yaxınlığında yüksək dağlıq hissədə yerləşən Sisyan adlanan kiçik qalada yaşayır və gözləyir ki, mənim göndərəcəyim 500 nəfərlik ordu və 4 topla, habelə öz adamları ilə Naxçıvanı tutsun. Lakin yollar qarlı və sıldırımlı dağlardan keçdiyi üçün may ayından əvvəl ora qoşun göndərmək mümkün deyil"[4]. Knyaz Sisianov daha sonra öz raportunda yazırdı ki, Naxçıvanın ələ keçirilməsini gələn il Cənubi Qafqaza gələcək rus ordusu ilə razılaşmaq lazımdır. Ancaq Sisianov bilmirdi ki, Abbasqulu xana yalnız Naxçıvanda hakimiyyəti ələ keçirmək lazımdır. Abbasqulu xan üçün fərqi yox idi ki, ona hakimiyyətə gəlməkdə ruslar və ya İran komandanlığı kömək eləsin. Abbasqulu xan Sisianovla yazışdığı halda, eyni zamanda Təbriz xanlığını işğal edib Təbrizi özünün iqamətgahı seçən İran tacının vəliəhdi Abbas Mirzə ilə də məktublaşırdı. Həmin dövrdə rus ordusunun qərargahında artıq Abbasqulu xanın ikiüzlü siyasətindən xəbər tutmuşdular.

---

1 AKAK, II c., sənəd 1272, səh. 635.
2 Yenə orada.
3 Yenə orada.
4 Yenə orada.

Bu haqda Qudoviçə şəxsən podpolkovnik Kotlyarevski xəbər vermişdi. Lakin knyaz Sisianov podpolkovnikin məlumatına inanmadığından Naxçıvan üzərinə müvəffəqiyyətli yürüş üçün hazırladığı davam etdirirdi. Bu məqsədlə o, 1805-ci il avqustun 14-də Naxçıvanın bütün ağsaqqallarına, mollalarına, bəylərinə məktub hazırlayaraq Abbasqulu xanın adamlarından olan Baba bəy və Qulu bəy vasitəsilə Naxçıvana göndərdi[1]. Knyaz Sisianovun məktubunda deyilirdi: "İran rəislərinin... etibarsız olduqlarını, hətta eyni dindən olmağınıza baxmayaraq, sizə əzab və əziyyət verdiklərini xatırlamağa ehtiyac yoxdur. Bu barədə misal gətirməyə də lüzum qalmır. Özünüz görürsünüz ki, mərkli iranlılar Baba xanın oğlu Abbas Mirzənin göstərişi ilə Mustafa xanın qoşunları öz din qardaşlarını soyub qarət etdilər. Baba xanın xəyanəti irəvanlı Məhəmməd xanın başına gətirdiyi əhvalatdan gördünüz. O məni satıb, iranlılara üz çevirdi. Nəticədə iranlılara rtibar etdiyinə görə xanlıqdan əli çıxdı. Həbs edildi və qarət olundu. Mənim bu günlərdə aldığım dəqiq məlumata görə o, özünün ağsaqqalları və yaxın adamları ilə birlikdə İrana sürgün ediləcək. Bax budur iranlıların şərikli siyasətinin nəticəsi... Başqa cür desək, onlar əvvəlcə baş tumlayır, sonra isə ata – babalarının ev tikdikləri yerlərdən, becərdiyi torpaqlardan adamları zorla ayırırlar. Əlbəttə, sizin üçün yaxçı olar ki, öz torpaqlarınızda qalıb ata – babalarınız tərəfindən əkilmiş ağaclara tamaşa edəsiniz və iranlıların zorla sizi köçürüb başqa yerlərə aparmasına imkan verməyəsiniz. Siz orada da mal – dövlət sahibi olan kimi, hər şeyinizi əlinizdən alacaqlar. Əksinə, siz yumşaq ürəkli və insanpərvər böyük bir dövlətin himayəsi altında olsanız, rəisi olduğum məğlubedilməz ordunun köməyi ilə günəş şüarları altında olanlar kimi qızına bilərsiniz. Mən, Ümumrusiya dövlətinin imperatoru tərəfindən müdafiə ediləcəyinizə, xalqa həqiqi xoşbəxtlik gətirəcəyimizə, əmin – amanlıq və hüquqlarınızın qorunacağına zəmanət verirəm..."[2]. Daha sonra Sisianovun məktubunda deyilir ki,Rusiya qanunu və müqəddəs rus dövlətinin sərbəstliyi ondan ibarətdir ki, hər bir hökumətin sərbəst həyatı saxlanılsın, qorunsun və müdafiə edilsin. Əgər siz öz sakitliyinizi və xoşbəxtliyinizi qorumaq üçün bu imkandan istifadə etmək istəyirsinizsə,

[1] AKAK, II c., sənəd 28, səh. 623.
[2] Yenə orada, sənəd 1276, səh. 635.

məsləhətim budur ki, şəxsən sizin xeyrinizə olaraq yüksək dərəcəli rəis Abbasqulu xanla birləşsin, onunla birlikdə mənim vasitəmlə özünüzə insanpərvər dövlətin simasında himayədar tapın. Kəlbəli xana gəldikdə isə görürsünüz ki, o nə qədər dağıntılar yaradıb, sizin çörəyinizi əlinizdən alır, sizi doğma torpaqlarınızdan köçürərək iki ildən artıqdır ki, mübarizə aparır. Mən müqəddəslərə and içirəm ki, sizin həyatınızın təhlükəsizliyi qorunacaq, eviniz və əmlakınız özünüzdə qalacaq, heç kim sizin dininizə, adətinizə toxunmayacaqdır. Şünki Rusiya imperiyasında dinlərə toxunulmur və hər bir xalqa azad şəkildə öz dini ayinlərini yerinə yetirmək imkanı verilir. Bundan başqa, öz şəxsi məqsədləri üçün sizi soyub talayan İran rəislərinin zülmündən xilas olacaqsınız, Rusiya rəisləri isə öz hakimiyyəti altında olan xalqların maddi – məişət vəziyyətinin yaxşılaşmasına çalışır, ticarətin inkişafına yardım göstərir, Naxçıvan diyarında bu imkandan istifadə edərək istədiyi qədər məhsul istehsal etməklə əhalinin daha da varlanması üçün şərait yarada bilər[1].

Bu məktubun məzmununda göründüyü kimi, heç bir əsas olmadan "iranlılara" meyil göstərməkdə və Naxçıvan diyarının soyulub talanmasında müqəssir hesab edilən Kəlbəli xanın ünvanına hədələyici sözlər deyilir. Ona görə də Sisianov bu bölgədə olan rus ordusuna komandanlıq etdiyi dövrdə Kəlbəli xan sərbəst fəaliyyət göstərə bilmirdi. Sisianov Naxçıvan bölgəsindən uzaqlaşdıqdan sonra Kəlbəli xan birinci Rusiya – İran müharibəsi zamanı bir – birinin ardınca qələbə qazanan Rusiya dövlətinə üz çevirməyi daha üstün tutdu və xanlığın əmin – amanlığını qorumaq məqsədi ilə Cənubi Qafqazda olan rus rodusunun komandanlığı ilə yazışmağa başladı. 1806-cı ildə, xüsusilə Sisianov Bakıda öldürüldükdən sonra, (1806-cı ilin fevral ayı – red.) rus ordusunun qərargahında general – mayor Nebolsin, general – leytenant Rozen və başqaları[2].

Kəlbəli xanın rus dövlətinə meyil etdiyini başa düşdülər. Fətəli şah və onun oğlu şahzadə Abbas Mirzənin müharibənin başlanmasından sonra Azərbaycanda törətdikləri dağıntı və İran sərbazlarının Azərbaycandakı qarətləri Kəlbəli xanda Rusiyaya olan meyli daha da güclənirdi. Kəlbəli xan çox yaxşı bilirdi ki,

---

[1] AKAK, II c., sənəd 1276, səh. 635
[2] MDHTA, f. VUA, sənəd 4259, vər. 100.

Xoy xanlığının hakimi Cəfərqulu xan rusların xidmətində olduğu üçün çox böyük nüfuza malikdir. Cəfərqulu xan onu hakimiyyətdən məhrum etmiş Şahdan intiqam almaq naminə öz ordusu ilə İran ordusuna qarşı vuruşurdu. Öz qoşunları ilə rus ordusunun tərkibində İrana qarşı mübarizə aparan Cəfərqulu xana elə gəlirdi ki, Naxçıvanda hakimiyyətə Fətəli şah tərəfindən gətirilən Kəlbəli xan İran tərəfdarıdır. Ona görə də Kəlbəli xan Cəfərqulu xana onun dostu və qohumu Maku xanı Hüseynqulu xanın vasitəsilə təsir etməyi qərara aldı.

1806-cı il avqust ayının əvvəlində Hüseynqulu xana yazdığı məktubda Kəlbəli xan ondan xahiş edirdi ki, o, Cəfərqulu xana məktub yazıb onun əvvəlki kimi yenə Naxçıvanda qalmasını, Baba xana xidmət etmək istədiyini və Rusiyaya tərəfdar olduğunu rus komandanlığına bildirsin. Daha sonra Kəlbəli xan yazırdı ki, rus orudusu Eçmiədzin istiqamətində hərəkət edərsə, o da öz ordusu ilə həmin istiqamətdə irəliləyəcək, İrəvan qalasının alınmasında iştirak edəcək. Kəlbəli xan eyni zamanda rus komandanlığına çatdırmaq istəyirdi ki, hələlik Eçmiədzin istiqamətində hərəkət etməyə tələsməsinlər. Çünki İrəvan qalasında kifayət qədər azuqə yoxdur və qala pis vəziyyətdədir. Əgər rus ordusu bu əyalətdə görünərsə, ola bilsin ki, vəziyyət Baba xanın xeyrinə dəyişə bilər. Məktubunun sonunda Kəlbəli xan xəbər verirdi ki, İran sərbazları Naxçıvana gələrlərsə, onu həbs edib Tehrana göndərə bilərlər[1].

Maku xanı Hüseynqulu xan Kəlbəli xanın məktubunu rus ordusu komandanlığına çatdırdıqdan sonra, 1806-cı ildə hərbi sursatın çatışmamasını nəzərə alaraq İrəvan istiqamətindəki yürüş müvəqqəti olaraq saxlanıldı. General – leytenant baron Rozen 1806-cı il oktyabrın 10-da general Qudoviçə göndərdiyi raportda xəbər verirdi ki, "Dərbənd və Qubada olduğu kimi, naxçıvanlı Kəlbəli xan da öz xalqı ilə birlikdə rus ordusunun İrəvana gəlişini gözləyir ki, əlahəzrət imperatorun himayəsini qəbul etsin"[2]. Tezliklə naxçıvanlı Kəlbəli xan sözdən işə keçdi. İran ordusunun sərkərdə Əhməd xanın komandanlığı altında İrəvan qalası istiqamətində hərəkət etdiyindən xəbər tutan kimi, "...naxçıvanlı Kəlbəli xan özünün atlı və piyadaları ilə onlara qarşı çıxdı"[3]. Kəlbəli xanın belə hərəkəti Fətəli şahı qəzəbləndirdi və onun tezliklə Tehrana gəlməsini əmr etdi.

---

[1] MDHTA, f. VUA, sənəd 4259 (1806), vər. 193.
[2] Yenə orada, vər. 299.
[3] Yenə orada, vər. 126.

Kəlbəli xan şahın əmrinə tabe olmadı. Şah Kəlbəli xana ikinci dəfə "dəvətnamə" göndərməyə məcbur oldu. Kəlbəli xan yenə də Tehrana getməkdən imtina etdi. Kəlbəli xan şahın üçüncü tələbini də yerinə yetirmədi. Belə olduqda şah qərar aldı ki, Kəlbəli xanı zorla aparmaq üçün 1000 nəfərdən ibarət ordu göndərsin. Gürcüstanda – Qafqaz sərhədində olan rus ordusunun ali baş komandanı qraf Qudoviçə general – mayor Portnyagin 1806-cı il 14 noyabr tarixli məktubunda yazmışdı: "Naxçıvanın sahibi Kəlbəli xan Tehrana getməsi barədə Baba xanın təklifini qəbul etməmiş, bununla da Baba xanı özündən narazı saldığı üçün şah zorla onu ələ keçirmək istəyir"[1].

İran ordusunun Naxçıvana yaxınlaşdığını bilən Kəlbəli xan qala qapılarının bağlanmasını əmr etdi və düşməni Naxçıvana buraxmadı. Kəlbəli xanın bu hərəkətiRusiya – İran müharibəsinin ən qızğın dövrü olduğu üçün, Fətəli şahı daha da qəzəbləndirdi. Çünki Azərbaycan ərazisində rus ordusu ilə döyüşdüyü bir vaxtda İran şahı istəmirdi ki, arxada ona tabe olmayan "vassalı" qalsın. Lakin İran şahı sərbazlara ciddi müqavimət göstərən Kəlbəli xana zor gələ bilmədi.

Rusiya – Türkiyə müharibəsi (1806-cı ilin sonu) başlandıqdan sonra rus komandanlığının ordunun bir hissəsini türk cəbhəsinə göndərməsindən istifadə edən Fətəli şah Naxçıvan xanlığını ələ keçirmək planını fəallaşdırdı. Şah Naxçıvanın işğalını şahzadə Abbas Mirzəyə tapşırdı. Lakin, sərbazların səyinə baxmayaraq, Naxçıvanı almaq cəhdləri baş tutmadı. Belə olduqda Abbas Mirzə hiylə işlətməyi qərara aldı. O Kəlbəli xanın qohumu irəvanlı Hüseynqulu xana bildirdi ki, qonaq adı ilə Kəlbəli xanı İrəvana çağırsın və burada onu həbs edib Tehrana göndərsin. Bu hadisənin şahidi yazmışdır: "...Şahzadənin Naxçıvanı təslim etmək haqqında Kəlbəli xana verdiyi tələb müvəffəqiyyət qazanmadı. Hüseynqulu xanın hiyləsi nəticəsində Kəlbəli xan İrəvanda tutuldu, deyilənlərə görə, şahzadənin yanına aparılacaq"[2]. Kəlbəli xan əsir edilsə də, şahzadə Abbas Mirzə Naxçıvan üzərinə qoşun göndərməyə ürək etmədi. O yaxşı bilirdi ki, naxçıvanlılar onu qalaya buraxmayacaqlar. Abbas Mirzə həm də əmin idi ki, naxçıvanlıların Hüseynqulu xanın xəyanətindən xəbərləri yoxdur. Odur ki, o, Hüseynqulu xanın Naxçıvana getməsini məsləhət bildi.

---

[1] MDHTA, f. VUA, sənəd 3279 (1806), vər. 100.
[2] AKAK, III c., sənəd 1025, səh. 599.

Şahzadə əmin idi ki, naxçıvanlılar qalaqapılarını onun üzünə açacaqlar. Belə də oldu. Hüseynqulu xan 300 atlı və 200 piyada ilə Naxçıvana gəldi, onun satqınlığından xəbəri olmayan şəhərlilər onu qalaya buraxdılar.

Beləliklə, Naxçıvan qalası satqınlığın qurbanı oldu. Naxçıvan taxtına bu vaxtda qədər Rusiyadan kömək almağa cəhd edən Abbasqulu xan sahib oldu[1]. Arxiv sənədlərində deyilir ki, "Rusiyaya sədaqətli olmaqda" təqsirləndirilən Kəlbəli xanı İran komandanlığı həbs edərək ailəsi ilə birlikdə İrana göndərdi. Bu hadisədən bir az əvvəl Kəlbəli xanın oğlanlarından Şıxəli bəy öz adamları ilə birlikdə hələ 1805-ci ildə rus dövlətinin tərkibinə daxil olmuş qonşu Qarabağ xanlığına gedə bilmiş, İran təqibindən birdəfəlik yaxa qurtarmaq məqsədi ilə Rusiya hakimiyyət orqanlarına müraciətlə "Ümumrusiya imperiyasının təbəəliyinə"[2] qəbul olunmasını xahiş etmişdi.

Qarabağda olan rus ordusunun komandanı polkovnik Aseyev "əlahəzrət imperatora əbədi sadiq olacağına" and içdiyi üçün naxçıvanlı Şıxəli bəyi çox böyük hörmətlə qəbul etdi. Rus komandanlığı Qarabağ xanı Mehdiqulu xana tapşırdı ki, Şıxəli bəyə "yaşamaq üçün kənd ayırsın və ona kömək etsin"[3]. Naxçıvanlı Şıxəli bəyə inanan və etibar edən rus komandanlığı onu general – mayor Nebolsinin süvari hissəsinə qəbul etdi. Bu süvari dəstələri Naxçıvan ətrafında özünə düşərgə salmışdı. Onlar Abbas Mirzənin qoşunları üzərinə hücuma hazırlaşırdılar. Bu dövrdə Rusiya həm İran, həm də Osmanlı Türkiyəsi ilə müharibə apardığı üçün Abbas Mirzə ümumi düşmənlə - Rusiyaya qarşı Ərzurum paşasının qoşunu ilə birləşməyə cəhd edirdi.

Rus ordusunun general – mayoru Nesvetov Qafqazdakı rus komandanlığının qərargahına xəbər verir ki, "...etibarlı mənbələrdən alınan xəbərə görə, Naxçıvan ətrafında Baba xanın oğlu tərəfindən İran qoşunu toplanmışdır. Məlumatlardan aydın olur ki, Ərzurum sərkərdəsi Yusif paşanın qoşunları ilə birləşərək bizim sərhədlərə yaxınlaşmaq istəyir..."[4]. Lakin türk qoşunları məğlub olduqdan sonra Abbas Mirzə türklərlə birləşmək fikrindən əl çəkdi və öz qoşunu ilə Naxçıvan qalası tərəfə üz qoydu. Burada vəziyyət qaydaya saldıqdan sonra

---

[1] AKAK, II c., sənəd 389.
[2] RXSA. Baş arxiv, 10, sənəd 1 (1809), vər. 1.
[3] Yenə orada.
[4] AKAK, III c., sənəd 946.

Abbas Mirzə İrəvan qalası üzərinə getməyi qərara aldı[1]. Abbas Mirzə Naxçıvanda Abbasqulu xanın iştirakı ilə Kəlbəli xanın yaxın adamlarına və rus ordusunun Qafqaza gəlişinə müsbət münasibət bəsləyənlərə və rus ordusunun Qafqaza gəlişinə müsbət münasibət bəsləyənlərə divan tutdu. Elə bu səbəbdəndir ki, Naxçıvanın dörd nəfər adlı – sanlı sakini Şuşaya qaçmalı oldu. İran ordusunun Naxçıvanda olması əhali üçün daha bir təhlükə yaradırdı. Çünki döyüşdə məğlub olan İran komandanlığı hər an naxçıvanlıları Arazın cənub sahilində köçürə bilərdi. Bu haqda rus ordusunun ali baş komandanı İ.V.Qudoviç general – mayor Nebolsinə açıq şəkildə bildirmişdi. İ.V.Qudoviç Nebolsindən tələb edirdi ki, Naxçıvana tələssin, Naxçıvan əhalisinin iranlılar tərəfindən Arazdan o tərəfə köçürülməsinə imkan verməsin.

Naxçıvan yürüşündən əvvəl qraf Qudoviçin general – mayor Nebolsinə verdiyi təlimatda xüsusilə deyilirdi: "...Tezliklə ora getmək (Naxçıvana – red.) və Naxçıvana qarşı hərbi əməliyyata başlamaq lazımdır. Əgər müqavimət göstərilsə, şəhəri tutun. Onlar könüllü şəkildə tabe olsalar, yerli əhalini narazı salmamaq və sıxışdırmamaq. Ümumiyyətlə, hər bir hərəkətiniz haqqında etibarlı erməni, yaxud tatar (azərbaycanlı – red.) vasitəsilə tez – tez məlumat verin"[2].

Bu "Təlimat"ın bir hissəsində deyilirdi: "Sizə tapşırıram ki, siz də Mehdiqulu xana bildirəsiz ki, yerli əhali tabe olduqda Naxçıvan kəndlərinin soyulub talanmasına imkan verməsin"[3].

Beləliklə, 1808-ci il oktyabrın 28-də general – mayor Nebolsinin komandanlığı altında rus ordusu Qarabağdan Naxçıvan qalasına doğru hərəkətə başladı. Eyni zamanda general – feldmarşal qraf Qudoviçin komandanlığı ilə rus ordusu İrəvan qalasına doğru hərəkət etdi.

Naxçıvanlı Şıxəli bəy öz atlıları ilə birlikdə general – mayor Nebolsinin dəstəsinə bələdçilik edirdi. Onların ardınca Mehdiqulu xanın komandanlığı altında Qarabağ və Şəki qoşunları gəlirdilər. Bu dövrdə Şəki xanlığının idarəsi Xoyu tərk etmiş Cəfərqulu xana tapşırılmışdı. Bunlardan başqa, bu yürüşdə könüllülərdən ibarət erməni və gürcü dəstələri də iştirak edirdilər.

Naxçıvan uğrunda ilk döyüş Qarababada oldu. Burada İran şahzadəsi Abbas Mirzənin 3000 piyadası, 10000 süvarisi, 12 adi topu və

---

[1] Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi, f. 2, sənəd 183, vər. 399.
[2] AKAK, III c., sənəd 496.
[3] Yenə orada, səh. 497.

60 ədəd qədim topu var idi[1]. Qeyd etmək lazımdır ki,Abbas Mirzənin hərbi rəisləri arasında dəfələrlə Naxçıvanda taxta çıxmış Abbasqulu xan da var idi. General – mayor Nebolsinin dəstəsi İran qüvvələrindən sayca 4 dəfə az idi.

Əlverişli mövqedə yerləşən İran qoşunları birinci olaraq general – mayor Nebolsinin dəstəsinə hücum etdilər. Qanlı və gərgin döyüşdən sonra İran qoşunları tutduqları mövqedən geri çəkilməyə məcbur oldular. Döyüşlərdə təcrübə qazanmış general – mayor nebolsinin komandanlığı ilə təcrübəli polkovniklər Lisaneviç və Kotlyarevskinin və naxçıvanlı Şıxəli bəyin dəstələri Abbas Mirzənin qoşununu məğlubiyyətə uğradıb geriyə qaçmağa məcbur etdilər. Bu döyüşdə İran tərəfi çoxlu top, digər döyüş sursatı, canlı qüvvə və at itirdi. Xeyli sərbaz əsir alındı. İran qoşunları yaralıları belə ataraq intizamsız halda Naxçıvana qaçdılar.

Rus ordusundan isə bu döyüşdə 37 nəfər həlak oldu, 6 nəfər itkin düşdü. Zabit heyətindən 6 və əsgərlərdən 66 nəfər yaralanan oldu.

General – mayor Nebolsin nəfəs almağa imkan verməyərək düşməni Naxçıvana qədər qovdu, Rus qoşunlarının irəliləmədiyini görən, birinci məğlubiyyətdən möhkəm qorxmuş Abbas Mirzə Naxçıvan qalasını tərk edərək, Arazı keçib Xoy istiqamətində geriyə çəkildi. İran qoşunları geri çəkildikdən sonra Naxçıvan əhalisi başda naxçıvanlı Şıxəli bəy öz dəstəsi ilə gəldiyinə görə, rus ordusuna müqavimət göstərmədi.

Beləliklə, general – mayor Nebolsin "...heç bir müqavimətə rast gəlmədən Naxçıvanı tutdu..."[2]. Qraf Qudoviç mərkəzə göndərdiyi məktubda yazırdı: "...Naxçıvan qalası müqavimətsiz olaraq Ümumrusiya ordusu tərəfindən tutuldu..."[3].

Naxçıvan qalasırus qoşunları tərəfindən tutulduqdan sonra general – mayor Nebolsin ali baş komandan qraf Qudoviçin adından Naxçıvan ağsaqqalların, ruhanilərinə və bütün xalqa müraciət etdi: "Siz böyük şöhrətə malik ordunun Naxçıvan vilayətinə gəldiyini bilirsiniz. Rusiya ordusunun qalib silahının gücü ilə Abbas Mirzə Baba xan oğlu öz ordusu ilə birlikdə məğlub edilərək böyük itki hesabına Arazın o tayına Xoy yolu ilə geri qayıtmağa məcbur oldu. Naxçıvan bizim ordumuz tərəfindən tutuldu və Ümumrusiya imperiyasının himayəsinə keçdi.

---

[1] MDHTA, f. VUA, sənəd 4258, IVhissə (1808), vər. 29.
[2] AKAK, III c., sənəd 895, səh. 508.
[3] Yenə orada, sənəd 458, səh. 248.

Hörmətli ağsaqqallar, a li ruhanilər və bütün Naxçıvan xalqı! Mən böyük və humanist imperator adından sizi Ümumrusiya imperiyasının yeni, sədaqətli adamları kimi qorxmamağa və inandırmağa çalışıram ki, öz yerlərinizə qayıdasınız və qalib rus ordusunun himayəsi altında babalarınızın yurdunda yaşayasınız. Mən ...sizi inandırıram ki, könüllü şəkildə qayıdanlar əvvəlki hüquqlarına və mülkiyyətlərinə malik olacaqlar. Bu gündən etibarən həmişəlik olaraq şöhrətli rus ordusunun himayəsi altında əmlakınız toxunulmaz qalacaqdır. Mən sizdən tələb edirəm ki, həmişə Ümumrusiya taxt – tacına sədaqətli olasınız, həmişəlik olaraq rus imperiyasının və mənim ordumun düşmənləri ilə hər cür əlaqəni kəsib sakit yaşayasınız. Əlahəzrət imperatorun ordusu həmişəlik olaraq Naxçıvan vilayətində qalacaqdır. Sizin verdiyiniz ərzağın, mal – qaranın və digər məhsulların dəyəri ödəniləcəkdir. Əgər siz qayda – qanunu sədaqətlə yerinə yetirəsiniz, o halda mən imperator həzrətlərindən hər cür güzəşt etməyi xahiş edəcəyəm”[1]. Qudoviçin Naxçıvan əhalisinə müraciətindən sonra “xristianların” törədəcəkləri dəhşətlərdən qorxub qaçanlar şəhərə qayıtdılar. Bu sahədə Kəlbəli xanın oğlu Şıxəli bəyin böyük rol oynadığı rus komandanlığının rəsmi sənədlərində qeyd olunmuşdur.

Rus komandanlığı Şıxəli bəyin cəsurluğunu xüsusilə qeyd etmişdir. General – feldmarşal Qudoviçin bu döyüş haqqında raportunda Şıxəli bəyin göstərdiyi igidlik barədə deyilirdi: “...Şıxəli bəy general–mayor Nebolsinin bölməsində Naxçıvana qədər sədaqətli müşayiətçi olmuş, Qarababa kəndi yaxınlığında Abbas Mirzə Baba xan oğlunun qoşunları darmadağın edilərkən iranlılara qarşı cəsarətlə vuruşmuş və sədaqətli olduğunu göstərmişdir” [2].

İ.V.Qudoviç bu döyüşün qəhramanı Şıxəli bəylə şəxsən yazışmışdır. 1808-ci il 27 noyabr tarixli məktubunda İ.V.Qudoviç Şıxəli bəyə yazırdı: “Sizin Ümumrusiya imperiyasına olan xidmətiniz və sədaqətiniz haqqında xəbərim var. Sizin xidmət naminə hazır olduğunuzu görürəm. İndiki yürüşdə general – mayor Nebolsinin müşayiət olunmasından və Naxçıvan əhalisinin əvvəlki yerlərinə qaytarılmasında xidmətiniz böyükdür. Sizə öz minnətdarlığımı bildirmək mənə xoşdur və sizi inandırıram ki, bu xidmətləriniz haqqında əlahəzrət

---

[1] AKAK, III c., səh. 267.

[2] RXSA. Baş arxiv, 1-10, sənəd 1 (1809), vər. 1.

imperatora məlumat verməklə yanaşı, həm də sizin xeyrinizə olaraq zəmanət verəcəm"[1].

Cənubi Qafqazdakırus ordusunun ali baş komandanı general – feldmarşal V.İ.Qudoviçin 1809-cu il fevral ayının 14-də qraf A.N.Saltıkova yazdığıməktubda Şıxəli bəyin şücaətindən bəhs olunurdu: "Onun xidmət naminə göstərdiyi sədaqət bir də bundan ibarətdir idi ki, Naxçıvan əhalisi arasındakı nüfuzdan istifadə edərək general – mayor Nebolsinin ekspedisiyasını zəruri olan ərzaq və başqa sursatla təmin etmişdir. Şıxəli bəy bir neçə dəfə İran qoşunları tərəfindən verilmiş həyəcan siqnalına əsasən öz atlılarını cəm edib bizim sərəncamımıza vermişdir. Onun dəstəsi Qarabağa qayıtdıqdan sonra Ümumrusiya dövlətinə hər cür xidmət göstərmiş və sədaqətli olduğunu nümayiş etdirmişdir"[2]. Daha sonra məktubda deyilir ki, "...onun yüksək xidmətlərinə qiymət verərək xahiş edirəm ki, imperator həzrətlərindən mükafat olaraq ona polkovnik rütbəsi verilməsi üçün əlahəzrət imperatordan acizanə xahiş edəsiniz"[3]. Qraf A.N.Saltıkov bu məktubu qiymətləndirdiyindən təxirə salmadan imperator I Aleksandra məlumat vermişdi. 1809-cu il aprelin 5-də Şıxəli bəy imperator I Aleksandrdan aşağıdakı məzmunda məktub almışdı:

"Allahın adı ilə. Biz birinci Aleksandr imperator və Ümumrusiya hökmdarı və sairə və sairə və sairə. Bizim polkovnik Şıxəli bəyə!

Siz tərəfdən bizim imperator taxt – tacına göstərdiyiniz sədaqət və canfəşanlıq bizim diqqətimizi cəlb etdi. Bu münasibətlə sizin göstərdiyiniz xidmətə görə sizə rus ordusunun polkovniki rütbəsi və dövlət gəliri hesabına gümüş pulla maaş verilir.

Güman edirik ki, bizim bu xeyirxahlığımız sizin daha sədaqətli qulluq edəcəyinizə səbəb olacaqdır. Sankt-Peterburq, 5 aprel 1809-cu il"[4].

Fətəli şah Rusiya ilə gedən müharibənin ən qızğın dövründə naxçıvanlı Şıxəli bəyin rusların tərəfinə keçməsi ilə barışmaq istəmirdi. Bu barədə arxiv sənədlərinin birində deyilir: "...İranlılar onun (Şıxəli bəyin – red.) igidliyi və Naxçıvan əhalisinin ona olan hörmətini bildikləri üçün Rusiya tərəfindən ona göstərilən himayəçiliyə biganə baxa bilmirdilər, bunu özləri üçün təhlükə sayırdılar.

---

[1] AKAK, III c., sənəd 475, səh. 267.
[2] RXSA. Baş arxiv, 1-10, sənəd 1, vər.1.
[3] Yenə orada.
[4] Yenə orada.

Buna görə də İran hökuməti onu öz tərəfinə çəkməyə çalışırdı. İlk növbədə onlar Şıxəli bəyin yanına gizli şəkildə nümayəndələr göndərməyi qərara aldılar"[1]. Lakin İran hökumətinin həyata keçirmək istədiyi hiylə baş tutmadı. Belə olduqda şah hökuməti yeni imkanlara əl atdı. Onlar vəd edirdilər ki, "... İranda saxlanılan və Rusiyaya meyil göstərən atası Kəlbəli xana hər gür hörmət ediləcək və azadlığa buraxılacaq"[2]. Lakin bu vəd də heç bir nəticə vermədi. Belə olduqda İran hökuməti daha ciddi addım atmağı qərara aldı: kor Kəlbəli xanı məcbur etdilər ki, Şıxəli bəyə məktub yazsın və məktubunda iranlılar tərəfinə keçməsini təkidlə tələb etsin. Əks halda Kəlbəli xanı ölüm gözləyirdi. Şıxəli bəy atasının sağ qalması naminə məcbur olub İrana getdi. Burada xaincəsinə tutulub həbsxanaya salındı.

Bir qədər irəliyə gedib qeyd edək ki, Rusiya – İran müharibəsinin son günlərində məğlubiyyət qarşısında qalan İran hökuməti Kəlbəli xanın həbsdən azad olunub Naxçıvana getməsinə razılıq verdi. Şıxəli bəy də atası ilə doğma yurda qayıtdı.

General – mayor Nebolsinin dəstəsi Naxçıvanı nisbətən asanlıqla tutduğu halda, İrəvan qalası uğrunda gedən döyüşlərdə İran sərbazları rus qoşunlarına güclü müqavimət göstərdilər. Yeri gəlmişkən qeyd edək ki, şəhər əhalisi İrəvanda olan İran qarnizonunu müdafiə etmirdi.

Qraf Qudoviç yersiz qan tökülməsinin qarşısını almaq üçün İrəvandakı İran sərbazlarına müraciət göndərdi. Həmin müraciətdə Abbas Mirzənin məğlubiyyəti və Naxçıvanın tabe olduğunu xatırlanır və tələb edilirdi ki, hər tərəfdən əlaqənin kəsildiyi və heç bir yerdən kömək almağa imkanı olmayan İrəvan qalası da rus ordusuna tabe olmalıdır. Lakin İran qoşunları ölkənin daxili əyalətlərdən səfərbər edildikləri üçün müqavimət göstərməyə məcbur idilər. Çünki əks tədqirdə onların ailələrini ölüm gözləyə bilərdi. İranın hakim dairələrində bilirdilər ki, ailələrinin xatirinə onlar ölməyi üstün tutub müqavimət göstərməlidirlər[3].

İrəvan qalasının mühasirəsi iki ay davam etdi. Müasirlərin dediklərinə görə, İrəvan qalası Avropa hərbi qaydasına uyğun şəkildə tikilmiş və iki hasarla əhatə olunmuşdu. Birinci hasarın qarşısında su ilə doldurulmuş dərin xəndəklər qazılmış və maneələr yaradılmışdı.

---

[1] RXSA. Baş arxiv, 1-10, sənəd 1, vər. 1.
[2] Yenə orada.
[3] MDHTA, f. VUA, sənəd 4258, IV hissə, vər.3; yenə orada, f. VUA, sənəd 4265, vər.47.

Qala divarlarının müvafiq yerlərində toplar qoyulmuşdu. Qalanın müdafiəçiləri həmçinin yandırıcı maddələrdən və bombalardan istifadə edirdilər. Qalanın bu cür möhkəmləndirilməsi fransız hərbi mühəndisləri tərəfindən həyata keçirilmişdi. Irəvanda və Eçmiədzində hərbi qurğular rus qoşunlarının İrəvan qalasına gəlməsindən əvvəl inşa edilmişdi.

İrəvan qalasının tutulmasına iqlim şəraiti də mane olurdu. Rus ordusunun yerləşdiyi Pəmbəkə qədər olan 65 verstlik yol qarla örtülmüşdü. Həddən artıq yağan qar rus ordusunun arxa ilə əlaqəsini çətinləşdirirdi. Ərzaq və yem ehtiyatı gündən – günə azalırdı. Döyüşçülər arasında aclıq təhlükəsi öz təsirini göstərirdi. Qraf Qudoviç ordusunu daha çətin vəziyyətə salmamaq üçün mühasirədən əl çəkməyi qərara aldı.

Beləliklə, noyabr ayının 30-na keçən gecə İrəvan qalasının mühasirəsi dayandırıldı. Bu hadisədən əvvəl yuxarıda göstərilən səbəblərə görə general – mayor Nebolsinə sərəncam verildi ki, Naxçıvan qalasını tərk edərək gəldiyi yolla Gəncəyə qayıtsın.

Rus qoşunlarının geri döndüyündən xəbəri olmayan Abbas Mirzə 1808-ci il noyabr ayının 22-də qardaşına yazdığı məktubda "işlərin acınacaqlı vəziyyət alması barədə şikayət edir, fərarilərin sayının çoxalmasından söz açır, Naxçıvan və İrəvan əhalisinin rusların tərəfinə keçməsindən xəbər verirdi"[1]. Lakin rus ordusunun geri qayıtması xəbərini eşidən Abbas Mirzə bunu rusların gücsüzlüyü kimi qiymətləndirdi, buna baxmayaraq, rus ordusuna qarşı yenidən döyüşə girməyə cəsarət etmədi. O gözləyirdi ki, İranda olan ingilislər Rusiyaya qarşı yönəldilmiş fəaliyyətlərini daha da genişləndirsinlər.

1809-cu ildə Talış xanlığı rus qoşunları tərəfindən işğal olunduqdan sonra ingilislər İranda daha da fəallaşırlar. 1809-cu ildə İranla bağlanmış müqaviləyə əsasən İranın Rusiya ilə müharibə apardığı dövrdə İngiltərə silah, hərbi sursat verməklə yanaşı, İran ordusunu hərbçi mütəxəssislərlə təmin etməyi, 200 min tümən yardım göstərməyi öz üzərinə götürdü.

Bu müqavilədən sonra Abbas Mirzə Rusiyaya qarşı yenidən hərbi əməliyyata başlamağı qərara aldı. O, 1809-cu ildə öz ordusunu Naxçıvana gətirdi ki, buradan da Qarabağ, Gəncə və Şamaxı istiqamətində yürüşünü davam etdirsin.

---

[1] Хаджи Мурат Ибрагимбейли. Россия и Азербайджан в первой трети XIX века. М., 1969, CNH. 93.

Hələlik mənbələrdə rus ordusu Naxçıvandan getdikdən sonra, Naxçıvan taxtının taleyi ilə bağlı məsələləri aydınlaşdırmaq mümkün olmamışdır. Abbasqulu xanın, Abbas Mirzənin ruslara qarşı vuruşan ordusunda olduğunu nəzərə alıb ehtimal etmək olar ki, rus ordusu getdikdən sonra Naxçıvan taxtını Abbasqulu xan tutmuşdur.

Abbas Mirzə öz qoşunlarını Naxçıvanda topladı və 1810-cu il iyunun əvvəlində ordusunu üç dəstəyə ayıraraq Qarabağ, Gəncə və Pəmbək istiqamətində döyüşə göndərdi. Lakin Cənubi Qafqazda sərbazlar müvəffəqiyyətsizliyə uğradıqdan sonra İranın hakim dairələri Azərbaycan və Gürcüstan üzərinə yeni yürüş üçün daha ciddi hazırlaşmağa başladı. İngiltərədən üç il müddətində 600 min tümən yardım alan və ingilis təlimatçılarının köməyi ilə ordunu yenidən təşkil edən İran şahı hərbi əməliyyata başlamaq haqqında oğlu Abbas Mirzəyə sərəncam verdi. Abbas Mirzə bu əməliyyatla əlaqədar Naxçıvanı yenə də özü üçün dayaq məntəqəsi seçdi. Abbas Mirzə 1811-ci ilin sentyabrında 50 mindən artıq döyüşçü ilə Naxçıvan tərəfdən Qarabağa daxil oldu ki, Qafan, Bərgüşad, Tativ və Gorus mahallarındaki əhalini, həmçinin köçəri kürdləri İrana köçürsün. Qarabağdan gələn məlumata görə, Abbas Mirzənin yaxınlaşması ilə əlaqədar olaraq yerli əhali arasında canlanma əmələ gəlmiş, bəziləri hətta ona tabe olmağa hazırlaşırlar[1]. Lakin rus ordusunun general – mayoru Xotumsevin iki batalyonu və qarabağlı Mehdiqulu xanın başçılıq etdiyi 500 Qarabağ süvarisi İran sərbazlarını geri dönməyə məcbur etdi. General – mayor Lisaneviçin dəstəsi tərəfindən təqib olunan İran sərbazları naxçıvan qalasında sığınacaq tapdılar. Hava şəraitinin pisləşməsi ilə əlaqədar rus qoşunları düşməni təqib etməkdən əl çəkdilər.

Yaranmış fasilədən istifadə edərək İran komandanlığı arxada vəziyyəti qaydaya salmağı qərara aldı. Naxçıvanın İranın əsas dayaq məntəqəsi və hərbi sursat bazası olduğunu nəzərə alaraq, habelə Naxçıvan hakimi Abbasqulu xan etimadı doğrultmadığı üçün Abbas Mirzə atasından xahiş etdi ki,Kəlbəli xanı həbsdən azad edib vətəninə qaytarsın. 1812-ci ildə Kəlbəli xan yenidən Naxçıvan taxtına əyləşdi. Belə hərəkəti ilə Abbas Mirzə Naxçıvan feodallarının, xüsusilə kəngərli tayfasının hörmətini qazanmaq məqsədi güdürdü.

---

[1] MDHTA, f. VUA, sənəd 6132 (1811), vər. 106, 107.

Məlumdur ki, 1812-ci ildə Rusiya Napoleonun işğalçı ordusuna qarşı müharibə aparmalı oldu. Bundan istifadə edən İran Cənubi Qafqazda hərbi əməliyyatları genişləndirdi. İran qoşunları ilk çağlarda Qarabağ, Gəncə, Şəki, Talış xanlıqlarında müvəqqəti üstünlük qazanmasına baxmayaraq, rus ordusunun və xalq könüllülərinin təzyiqi altında əvvəlki mövqelərə doğru geri çəkilməyə məcbur oldular.

Birinci Rusiya – İran müharibəsi haqqında kifayət qədər əsər yazıldığından bu müharibənin gedişini işıqlandırmağa ehtiyac yoxdur. Lakin bununla belə müharibənin Naxçıvan xanlığının siyasi tarixi ilə bağlı müəyyən məsələləri üzərində dayanmaq məqsədə - uyğun olardı. Təkcə bunu qeyd etmək kifayətdir ki, birinci Rusiya – İran müharibəsi, əslində İrana heç bir müvəffəqiyyət qazandırmadı. İran ordusu bir – birinin ardınca müvəffəqiyyətsizliyə uğrasa da əvvəlcə Fransanın, sonra isə İngiltərənin təhriki ilə müharibə meydanına yeni qüvvələr göndərdi. Bu müharibə nəinki hər iki tərəfdən təkcə canlı qüvvələrin məhv olmasına gətirib çıxardı, habelə Azərbaycanın ərazisi müharibə meydanına çevrildi, onlarca şəhər və kəndlər dağıdılıb xarabazarlığa çevrildi. Müharibə zamanı əkin sahələri və suvarma sistemləri sıradan çıxır, yüzlərcə, minlərcə günahsız adamlar məhv olurdu.

Nəhayət, İranı Rusiya ilə müharibəyə təhrik edən Napoleon Bonapart özü rus ordusu tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra döyüş meydanında təkqalmış İran şahı 1813-cü ildə sülh istəmək məcburiyyətində qaldı.

İngilis diplomatiyası İranla Rusiya arasında gedən sülh danışıqlarını pozmağa cəhd etsə də, buna nail ola bilmədi. Beləliklə, 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində müharibə aparan iki tərəf arasında sülh müqaviləsi imzalandı. Gülüstan müqaviləsinin şərtinə uyğun olaraq İran tərəfi Azərbaycanın şimal xanlıqları, Şərqi Gürcüstan və Dağıstan haqqında iddialarından əl çəkdi. Bununla belə, Gülüstan müqaviləsinə görə İrəvan, Naxçıvan və Cənubi Azərbaycan xanlıqları üzərində İranın hakimiyyəti bərpa olundu.

Bundan əvvəl İran ordusu tərəfindən zorla işğal edilmiş Naxçıvan xanlığı Gülüstan müqaviləsinə əsasən hüquqi cəhətdən İran dövlətinin tərkibinə daxil edildi.

## 2. Naxçıvan xanlığı Gülüstan müqaviləsindən sonra və İkinci Rusiya-İran müharibəsi dövründə

Gülüstan müqaviləsinə (1813) görə, Qacarlar dövlətinə tabe olan Naxçıvan diyarında mövcud olan əvvəlki inzibati quruluş – xanlıq ləğv edildi. Beləliklə, XVIII əsrin ortalarında İran hakimiyyətindən xilas olmuş Azərbaycanın müstəqil xanlıqlardan olan Naxçıvan xanlığı yenidən İranın əyalətlərindən birinə çevrildi.

Əvvəllər böyük nüfuza malik Kəlbəli xanı hakimiyyətə gətirməklə şah Naxçıvan diyarında öz nüfuzunu artırmağa cəhd edirdi. Lakin Kəlbəli xana olan bu münasibətlə İranın hakim dairələri ciddi səhvə yol verirdilər. Gözləri İran şahı Ağa Məhəmməd tərəfindən çıxarılmış Kəlbəli xan qəlbində şah hökumətinə nifrət bəsləyir, Rusiyanın himayəsi altında olmağı daha üstün tuturdu. Rus ordusunun düşmən üzərində qələbəsi azərbaycanlıların, o cümlədən Naxçıvan əhlinin də sevincinə səbəb oldu. İran şahından asılı vəziyyətə düşən Kəlbəli xan bir an belə Rusiyanın təbəəsi olmaq fikrindən əl çəkməmişdi. Onun Rusiyaya olan meyli İrana gedərkən yolüstü Naxçıvana gəlmiş general A.P.Yermolovla söhbətində bir daha özünü göstərdi.

A.P.Yermolovun diplomatikmissiyasının fəaliyyəti tədqiqat obyektinə daxil olmasa da, bu hadisə ilə əlaqədar bəzi məsələlərə toxunmağı məqsədəuyğun hesab edirik. Rusiya ilə müharibədə məğlubiyyətə baxmayaraq, İngiltərə hakim dairələri tərəfindən qızışdırılan İran hökuməti yenidən müharibəyə hazırlaşırdı. Dörd il keçdikdən sonra ingilis zabitləri tərəfindən təlim keçmiş İran ordusu qüvvə topladığından, şah yeni döyüşlərə başlamaq üçün bəhanə axtarırdı. Ona görə də şah Talış və Muğan torpaqlarını Rusiyadan tələb etdi və bu məqsədlə özünün səlahiyyətli səfirini Peterburqa göndərdi. Şahın nümayəndəsi hökumət adından Gülüstan müqaviləsinə yenidən baxılmağı tələb etdi.

Əvvəlcə Fransa və daha sonra İngiltərə tərəfindən qızışdırılan İran hökuməti Gülüstan müharibəsinin bağlanmasına baxmayaraq, mövcud sərhədlərə yenidən baxılmasını tələb edirdi. Rus dövləti şahın "xahişinin" yeni müharibəyə gətirib çıxarmasını istəmirdi. Ona görə də imperator I Aleksandr münasibətləri qaydaya salmaq üçün general A.P.Yermolovu xüsusi təlimatla İrana göndərdi.

İmperatorun Yermolova verdiyi təlimatın bir hissəsi xüsüsilə diqqəti cəlb edirdi: "Qarabağ və Şimali Talışın İrəvan və naxçıvan xanlıqları ilə dəyişdirilməsi məqsədə müvafiq olardı"[1].

Bu fikir göstərilən xanlıqların siyasi və strateji cəhətdən daha böyük əhəmiyyətə malik olduğunu göstərir. Qəribədir ki, rus diplomatları və konsulları, əsasən, İrana Volqa – Xəzər vasitəsilə gedirdilər. Lakin A.P.Yermolov başqa yol seçərək İrana Tiflis, İrəvan və Naxçıvan vasitəsilə getməyi qərara almışdı. A.P.Yermolov Gürcüstandan keçərək "...bir sıra sərhəd zonalarını gəzmiş və müəyyən yerlərin gələcəkdə iranlılara güzəşt edilməsini rus ordusunun bu sərhəd zonasında mövqelərinə necə təsir göstərəcəyini öyrənmişdi"[2].

Səlahiyyətli səfirin nümayəndə heyətində 200-dən artıq adam var idi. Mənşəcə erməni olan Mədətov, Nəzərov, praporşiklərdən Bəylərov və Əlixanov səfirin tərcüməçiləri kimi nümayəndə heyətinin tərkibinə daxil edilmişdilər. A.P.Yermolov öz nümayəndə heyəti ilə birlikdə 1816-cı ilin mayında Naxçıvan tərəfdən Azərbaycana daxil oldu.

A.P.Yermolovun İrana səfəri haqqında tarixi ədəbiyyatda lazımi məlumatlar vardır. Lakin onun Naxçıvanda olması və Kəlbəli xanla görüşü bu günə qədər Azərbaycan tarixi ədəbiyyatında bir sözlə belə xatırlanmır. Hüquqi cəhətdən İranın tabeliyində olsa da Kəlbəli xanın Naxçıvan torpağında A.P.Yermolovla görüşü və danışıqları Naxçıvan xanlığının siyasi cəhətdən müstəqilliyini göstərir.

Azərbaycanda birinci olaraq A.P.Yermolovun görüşünə "öz adamları ilə birlikdə Şərur kəndinin sahibi" çıxdı. Rus dövlətinin nümayəndə heyətini qonaqpərvərliklə qarşılayan şərurlular qonaqları onlar üçün Xok kəndində salınmış düşərgəyə qədər müşayiət etdilər. Rus nümayəndə heyətinin Xok kəndinə gəldiyini eşidən Kəlbəli xan, öz qaynı Maqsud xanı göndərdi ki, A.P.Yermolovu Naxçıvana qədər müşayiət etsin. Onları yolda Kəlbəli xanın iki qardaşı və nəvəsi süvari dəstəsi ilə qarşıladılar. Onlar rus nümayəndə heyətini silahlardan yaylım atəşi ilə salamladılar. Naxçıvanın yaxınlığında isə A.P.Yermolovu Kəlbəli xan özü qarşıladı[3].

---

[1] Mərkəzi Dövlət Hərbi Dəniz Donanması Arxivi, f. 19, siyahı 4, sənəd 441, vər. 14.

[2] Yenə orada.

[3] А.Е.Соколов. Дневные записки о путешествии российского императорского посольства в Персию в 1816-1817 гг., М., 1910, стр. 1.

Naxçıvanda A.P.Yermolov üçün Kəlbəli xanın qardaşı Kərim xanın evi ayrılmışdı. Kəlbəli xan səfiri həmin evə qədər müşayiət etdi. Nümayəndə heyətinin digər üzvləri gətirdikləri yüklərlə yaxınlıqdakı düşərgəyə aparıldı.

Bir gün sonra 1816-cı il may ayının 12-də general A.P.Yermolov öz adamlarının müşayiəti ilə Kəlbəli xanın görüşünə gəldi. Görüş qarşılıqlı anlaşma şəraitində keçdi. Bu diplomatik qəbulun iştirakçısı V.Borozna yazır ki, "bizi qızılgül suyu ilə hazırlanmış qəhvə və çaya qonaq etdilər... Hər şey bol idi". Kəlbəli xan haqqında isə V.Borozna belə yazır: "...xan özünün bütün bədbəxtliklərinə baxmayaraq, gülərüz və hazırcavab idi. O, söhbət zamanı, maraqlı lətifələrdən də misallar gətirirdi[1]. Çox güman ki, Kəlbəli xan lətifələri ümumi danışıqlar zamanı gətirirmiş. Lakin A.P.Yermolovla şəvsi söhbətlərində isə ciddi məsələlərə toxunur, özünün vəziyyəti, İrana və Rusiya dövlətinə olan münasibətləri ilə əlaqədar məsələlərdən danışırdı. Bu haqda səfirliyin jurnalında çox maraqlı faktlar verilir. A.P.Yermolov yazır: "Yaşlı ikən gözünü itirmiş bu bədbəxt qoca 20 il ərzində təbəqələrindən uzaqlaşdırılmış olsa da heç təsəlli tapa bilmirdi".

Kəlbəli xanın sözlərindən belə nəticəyə gəlmək olar ki, həmin dövrdə Naxçıvan xanlığı hüquqi cəhətdən İrandan asılı olsa da, əslində o, şaha nifrət bəsləyirdi. Heç də təsadüfi deyildi ki, "ehtiyatlı" İran dövləti Kəlbəli xanın oğlunu "sədaqət naminə girov saxlayırdı". A.P.Yermolov yazır ki, Naxçıvanda "...böyük məmnuniyyətlə kor xanla görüşdüm. O, İran idarəçiliyinin çürüklüyünü hiss edirdi. Yalnız zor gücünə şaha tabe olmağa məcbur idi". A.P.Yermolovla söhbət zamanı Kəlbəli xan iranlılar haqqında ciddiyyət və cəsarətlə danışır. Rusiya idarəçiliyinin üstün olduğunu tərifləyirdi.

A.P.Yermolov yazır ki, Kəlbəli xan mənim səmimi olduğumu hiss etdiyindən heç kimdən və heç nədən çəkinməyərək açıq söhbət edirdi. Xan rus generalı A.P.Yermolova demişdi: "Ağa Məhəmməd xan mənim gözlərimi çıxarmışdır. Mənim güclü əllərim qisas almağa hazırdır". A.P.Yermolov yazır ki, Kəlbəli xan yenidən Naxçıvanda hakimiyyətə qayıtdıqdan sonra xanlığın quruculuq işləri ilə məşğul olmuşdur. O, dünya işığından məhrum olsa da, yaxşı bilirdi ki, birinci Rusiya – İran müharibəsi dövründə nəinki onun şəhəri, habelə bütün doğma diyarı dağıdılmışdı.

---

[1] В.Борозна. Göstərilən əsəri, səh. 61; A.E.Соколов. Göstərilən əsəri, səh. 14.

A.P.Yermolovla söhbət zamanı Kəlbəli xan nəinki təkcə öz acı taleyindən, habelə bütün Naxçıvan xanlığının vəziyyətindən şikayətlənirdi. A.P.Yermolov yazır ki, Kəlbəli xan pəncərə qarşısında oturarkən deyirdi: "...vaxtilə Araz çayı vadisinin gözəlliyi və zənginliyinə heyrətlə baxırdım, gözəl bağları və meşəlikləri olan vadini çoxsaylı əhali canlandırırdı; indi mənə deyirlər ki, vadi boş səhralığa çevrilib, keçmiş zənginliyindən əsər belə qalmayıb. Yaxşı ki, tale mənim gözlərimi bağladı, vadinin belə bədbəxt gününü və tar-mar olmasını görmürəm. Bu vadini üç əsr mənim nəslim idarə etmişdir. Ara müharibələri və şahın ordusu bu bədbəxt torpağı boşluğa çevirdi, işğalçıların hər bir addımı xalqın bədbəxtliyinə səbəb oldu. Lakin bu yaxınlarda burada rus ordusu da olub. Lakin onlar burada göz yaşı tökdürməyiblər. Ona görə də mənim həmvətənlərim onları nifrətlə yad etmirlər"[1].

Kəlbəlin xanın danışığından aydın olur ki, Naxçıvan xanlığında İran ağalığı formal xarakter daşıyırmış. Nəinki xalq kütlələri, habelə şah tərəfindən Naxçıvana göndərilən və şahın adamı kimi Kəlbəli xanın özü də İran işğalçılarına nifrət bəsləyir.

Bu dövlət xadimi kimi Kəlbəli xan uzaqgörənliklə İranla Rusiya arasında yeni müharibə təhlükəsini sanki hiss edirdi. O, A.P.Yermolova demişdi: "İranlıları tanıdığımız üçün məndə belə bir fikir oyanmışdır ki, sizin yaratdığınız dostluq uzun müddət davam etməyəcək. İnanıram ki, ya onlar xəyanət edib bu dostluğu pozacaq və yaxud da sizi bu dostluğu pozmağa məcbur edəcəklər"[2]. Kəlbəli xanın bu fikrinin həqiqət olduğunu uzun müddət gözləmək lazım gəlmədi. Məlum olduğu kimi, 1826-cı ildə İran hökuməti Rusiyaya qarşı yeni müharibəyə başladı.

Açıq söhbətdən sonra A.P.Yermolov bir daha Kəlbəli xana təşəkkür edərək onunla xudahafizləşdi və öz istiqamətgahına qayıtdı. Rus səfirini daha vacib işlər gözlədiyindən o, Naxçıvanda uzun müddət qala bilmədi. Ertəsi gün səfir yola hazırlaşdı. Bundan xəbər tutan Kəlbəli xan A.P.Yermolovun yanına gəldi və onu Araza qədər müşayiət etmək arzusunda olduğunu bildirdi. Lakin general A.P.Yermolov yaşını və fiziki imkanlarını nəzərə alaraq xandan xahiş etdi ki, narahat olmasın və evinə qayıtsın.

---

[1] Журнал посольства в Персии генерала А.П.Ермолова, стр. 180-181

[2] Yenə orada.

Ancaq səfir razılıq verdi ki, Kəlbəli xanın iki qardaşı onu Araza qədər öz atlıları ilə müşayiət etsin. Beləliklə, A.P.Yermolov Naxçıvandakı görüşdən sonra öz heyəti ilə birlikdə İrana getdi.

Rus dövlətinin səfiri İrandan geri qayıdarkən Araz sahilində onu Kəlbəli xanın oğlanlarından biri qarşıladı və Naxçıvan şəhərinə qədər müşayiət etdi. Lakin səfirin Naxçıvanda qalmağa vaxtı olmadı. O, Peterburqa qayıdıb, İngiltərənin köməyi ilə İranın Rusiyaya qarşı hərbi əməliyyata hazırlaşdığını xəbər verməyə tələsirdi. Ona görə də Naxçıvanda qısamüddətli istirahətdən sonra öz yoluna davam etdi. Yola düşməzdən əvvəl A.P.Yermolov Kəlbəli xanla qısa görüş keçirdi.

1817-ci il sentyabrın 26-da A.P.Yermolov Naxçıvan tərk etdi.

General A.P.Yermolov İrandan getdikdən sonra İngiltərənin təzyiqi ilə İran şahı Rusiyaya qarşı müharibəyə ciddi hazırlaşmağa başladı. Bu münasibətlə, hər şeydən əvvəl, ordunun yenidən təşkil edilməsinə başladı. Bu sahədə İngiltərədən gəlmiş təlimatçılar xüsusilə fəallıq göstərirdilər. Yeni təlimatçılar birinci Rusiya – İran müharibəsi ərəfəsində fransızlar tərəfindən təşkil edilmiş qaydaları ləğv etdirirdilər. Əvvəlcə vəziyyətin əksinə olaraq, İran ordusunda İngiltərə tərəfindən yeni qaydalar tətbiq edildi. Beləliklə, ingilis zabitlərinin rəhbərliyi altında İran ordusu yeni döyüşlərə hazırlaşdı.

İran komandanlığı köhnə qalaların gücləndirilməsinə və yeni dayaq məntəqələrinin yaradılmasına diqqəti artırırdı. Belə qalalardan biri Abbas Mirzənin "şərəfinə" Naxçıvan yaxınlığında tikilmiş Abbasabad qalası idi. Bu qala fransızlar tərəfindən tamamilə yeni üsulda inşa edilmişdi. Mənbədə Abbasabadqalası haqqında deyilir: "...qala Abbas Mirzənin zövqünə uyğun avropasayağı tikilmişdir"[1]. Bu qala Rusiya sərhədində İranın dayaq məntəqəsi hesab olunurdu. Qalanın xarici görünüşü düzgün tikilmiş beş bucaqdan ibarət idi. Qala tikilənə qədər həmin yerdə Astabad adında böyük kənd yerləşirdi. O, Yevetski abbasabad qalası haqqında yazırdı: "Abbasabad qalası fransız və ingilis zabitləri tərəfindən möhkəmləndirilmiş beşbucaqlı qala idi"[2].

Ehtimal ki, Abbasabad qalası birinci Rusiya – İran müharibəsi dövründə tikilmişdi. Çünki 1834-1835-ci illərdə Naxçıvanda olmuş F.Korf yazmışdı:

[1] П.Зубов. Картина последней войны России с Персией. СПб., 1837 г., стр. 131.
[2] О.Евецкий. Статическое описание Закавказского края в исходе XVIII в. и сравнение оного с нынешним. СПб., 1835, стр. 200.

“Bu ölkədə 25 il əvvəl Abbas Mirzə tərəfindən tikilmiş qala gördüm. Bu qala Abbas Mirzənin xidmətində olmuş fransız mühəndisinin planı əsasında tikilmişdir”[1]. Abbasabad qalasının dəqiq təsvirini rus tarixçisi N.Nefedyev verir. O özünün 1839-cu ildə nəşr etdirdiyi yol qeydlərində yazır: “...Abbasabad qalası Naxçıvana gedən yolun qarşısında dayanmışdı. Mən bu qalaya getməyi özümə borc bilirdim. Fransız mühəndisinin bu əsərinə baxmaq və ehtiram etmək mənim borcum idi. Bu qalanın tikintisi 30 il əvvəl həyata keçirilmişdir. Dərin xəndəklər su ilə doldurulmuşdur. İki cərgəli divarlarda atəş açmaq üçün yerlər qoyulmuşdur. Sığınacaqlar və digər müdafiə mövqeləri xeyli gücləndirilmişdir. Bu cür müdafiə mövqeləri göstərir ki, bu qala İranın dostları tərəfindən tikilmişdir. Onlar çox uzaqgörənliklə qalanı tikərək nəzərə almışdılar ki, qalanın qarnizonu Arazın üstündəki körpünü görə bilsin və lazım gəldikdə geri çəkilərkən öz təhlükəsizliyini təmin edə bilsin”.

Belə qənaətə gəlmək olar ki, Abbasabad qalası əvvəlcə fransızlar tərəfindən tikilmiş, Gülüstan müqaviləsindən sonra isə ingilislər tərəfindən daha da möhkəmləndirilmişdi. Hər halda Abassabad qalası İran ordusunun Cənubi Qafqazdakı dayaq məntəqələrindən biri olmaqla bərabər Cənubi Azərbaycanın bir növ qapısı idi.

Bununla belə Kəlbəli xan İran dövlətinin bu cür tədbirlərinə baxmayaraq, öz oğlanlarının köməyi ilə xanlıqda daxili işləri qaydaya salmağa çalışırdı. Onun İran şahı qarşısında əsas vəzifəsi vaxtlı – vaxtında topladığı vergilərin müəyyən hissəsini xəzinəyə göndərməkdən ibarət idi.

20-ci ilin əvvəllərində qocalmış Kəlbəli xan Məkkəyə getməyi qərara aldığından, xanlığın idarəsini oğlanlarından birinə - Ehsan xana həvalə etdi. Ziyarətdən Təbriz vasitəsilə geri qayıdan ixtiyar yaşlı Kəlbəli xan 1820-ci ildə doğma vətəndən kənarda vəfat etdi.

Kəlbəli xanın ölümündən sonra Naxçıvan xanlığının idarəsini xanın qardaşı oğlu Kərim xan Kəngərli hakimiyyəti öz əlinə keçirdi. Lakin o da hakimiyyətdə iki ildən artıq qala bilmədi. 1822-ci ildə Hüseyn Mirzə Naxçıvan xanlığının hakimi oldu. Bir il sonra isə, 1823-cü ildə Kərim xan enidən hakimiyyətə qayıtdı. Kərim xan

[1] Ф.Корф. Воспоинание о Персии. 1834-1835, СПб., 1838, стр. 77.

Kəngərlinin hakimiyyətdə olduğu dövr (1823-1827) ikinci Rusiya – İran müharibəsinin başlandığı dövrə təsadüf edir.

Lakin Kərim xan yenə də hakimiyyətdə çox qala bilmədi. Şahzadə Abbas Mirzə onu Məhəmməd Bağırla əvəz etdi. O, şahzadənin etimadını doğrultmadığı üçün ikinci Rusiya – İran müharibəsi ərəfəsində sabiq Kərim xanla əvəz edildi.

Rusiyada baş vermiş dekabristlər üsyanı haqqında xəbər İrana 1826-cı ilin əvvəlində çatdı. İran hökuməti üsyanın rus dövlətini zəiflədəcəyini güman edib müharibəyə hazırlığı daha da sürətləndirdi.

Əvvəlki dövrlərdə olduğu kimi, yenə də ingilis burjuaziyası İranı yeni müharibəyə təhrik edirdi. Rusiyaya qarşı müharibə üçün İran feodalları və ingilis diplomatları yenidən dini fanatizmdən istifadə etdilər. 1826-cı il iyul ayının 13-də İranın şiə ali ruhanilərinin başçısı Seyid Məhəmməd müsəlmanları "müqəddəs müharibəyə" çağırdı.

Beləliklə, Abbas Mirzə 1826-cı il iyul ayının 16-da müharibə elan etmədən 60 minlik ordu ilə Araz çayını keçərək Şimali Azərbaycan ərazisinə soxuldu. Azərbaycan xalqı yenidən müharibə qurbanı oldu.

Müharibənin ilk günlərində İran ordusu Şimali Azərbaycanın içərilərinə, hətta Şamxora qədər gedib çıxsa da rus döyüşçülərinin güclü təzyiqi altında tezliklə geri çəkilməyə məcbur oldu. 1827-ci ilin əvvəli üçün, demək olar ki, Şimali Azərbaycanın bütün əyalətləri İran ordusundan təmizləndi.

Rus ordusunun müharibənin ilk çağlarında qazandığı qələbə Naxçıvan və İrəvan xanlıqlarının müqəddəratında əhəmiyyətli rol oynadı. Şah ordusuna qarşı bu bölgədə rus ordusunun hərbi əməliyyatlarına general – leytenant İ.F.Paskeviç komandanlıq edirdi. O, 1827-ci il mart ayının 29-da "...xüsusi Qafqaz korpusunun komanda heyətini qəbul etdi"[1].

Naxçıvan və İrəvan xanlıqları uğrunda döyüşlərin ilk mərhələsi rus ordusu üçün müvəffəqiyyətsizlik nəticələndi. Abbas Mirzənin İrəvan qalasında saxladığı qarnizon daha güclü müqavimət göstərirdi. İrəvan xanlığı uğrunda gedən döyüşlərin ilk mərhələsində Paskeviç uğur qazana bilmədi. Ona görə ki, bir tərəfdən İrəvanda ingilis silahı ilə silahlanmış qarnizon, digər tərəfdən isə rus ordusunun arxasında

[1] Подробно описание Персии и государств Кабула, Сеистана, Синда, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидских провинции, присоединенных к России, ч. III, М., 1829, стр. 26.

soyğunçuluqla məşğul olan kürd tayfaları komandanlığın diqqətini yayındırdı. İqlimin sərtliyi də rus əsgərlərinə mənfi təsir edirdi.

Yuxarıda deyilən vəziyyəti nəzərə alaraq, general – adyutant Paskeviç İrəvan qalasının mühasirəsindən müvəqqəti olaraq əl çəkdi və əsas gücünü səfərbər edərək Naxçıvan istiqamətində hücuma keçdi. İrəvan xanlığı ilə Türkiyə arasında əlaqəni kəsmək üçün Paskeviç general – leytenant Krassovskinin hissəsini burada saxladı. Krassovski həmçinin, İran ordusunun İrəvan qalasında, Sərdarabadda və Eçmiədzin monastırı ətrafında hərəkətini izləməli idi. Beləliklə, Krassovski həm də Araz çayı sahıllərinə nəzarət etməli idi. Krassovskinin sərəncamında 3000 soldat var idi. Onlar xüsusi Qafqaz korpusunun 20-ci diviziyasına məxsus idilər. Həmin soldatlar Rusiyadan yenicə gətirilmişdilər, lazımi döyüş təcrübəsinə malik deyildilər. Məhz buna görə də Krassovskinin sərəncamında qalmış soldatlar qarşıda duran vəzifənin öhdəsindən gələ bilmədilər. General – adyutant Paskeviç əsas qüvvələrlə Naxçıvan istiqamətində hərəkət etdikdən sonra İrəvan qalasındakı İran qarnizonu hücuma keçərək Krassovskinin qoşununa güclü zərbə endirdi. Bu hadisədən xəbər tutan Paskeviç öz qüvvələrinin bir hissəsini Krassovskiyə köməyə göndərməyə məcbur oldu. Naxçıvan istiqamətində əməliyyatı general – leytenant knyaz Eristovun komandanlığı altında rus qoşunları davam etdirirdi. Eristovun komandanlığı altında rus döyüşçüləri Araz çayı üzərindəki keçidi tutmalı, Abbas Mirzənin qüvvələrini Naxçıvana və ya Abbasabad qalasına buraxmamalı idilər.

İrəvan istiqamətində hərəkət edən orduya isə general – adyutant Benkendorf komandanlıq edirdi. Rus ordusunun keçdiyi yerlərdə əhali, hətta feodallar belə rus dövlətinin təbəəliyinə qəbul olunmalarını xahiş edirdilər. Bu da səbəbsiz deyildi. Həmin məsələ ilə əlaqədar mənbədə oxuyuruq: "Aprel ayının 30-da Asaln Sultan general – adyutant Bakendorfun yanına gələrək 300 ailədən ibarət Vedi kəndinin əlahəzrət imperatorun himayəsinə qəbul olunmasını xahiş etdi. Çünki Vedi kənd əhalisinin Arazın o tayına köçürülməsi təhlükəsi yaranmışdı"[1]. Tezliklə rus komandanlığı məlumat aldı ki, "Aslan Sultan Arazın o tayına köçürülmə təhlükəsini nəzərə alaraq

[1] Подробное описание Персии и государств Кабула, Сеистана, Синда, Бальха, Белуджистана, земли Хоросана, также Грузии и персидских провинции, присоединенных к России, ч. III, М., 1829, стр. 32.

öz adamları ilə birlikdə Göyçə gölü yaxınlığında Həsənqalada möhkəmlənmişdir"[1]. Yeri gəlmişkən qeyd etməliyik ki, İran hökmdarları həmişə yerli əhalini İranın içərilərinə köçürməyə çalışırdılar. Lakin İran işğalçılarının belə təşəbbüsü çox zaman baş tutmurdu. Müasirlərindən biri yazır: "Nağı xan və vəkil İsmayıl ağa Ağrı dağı yaxınlığında olan qarabağlılara (qarapapaqçılar – red.) naxçıvanlılarla birlikdə İrana köçürülməkdən ehtiyat etdikləri üçün müqavimət göstərməyə hazırdırlar"[2]. Onalrın əksəriyyətinin yeməyə çörəyi belə yox idi, yalnız süd və pendirlə qidalanırdılar. Buna baxmayaraq, müqavimət göstərir və doğma yurdlarından uzaqlaşmaq istəmirdilər. Göründüyü kimi, ikinci Rusiya – İran müharibəsi dövründə yerli əhali istər – istəməz nizami orduya qoşulmaqla rus ordusunun gücünü artırırdı.

Rus ordusunun yeni qüvvələrinin yaxınlaşması ilə İrəvan qarnizonu qalaya çəkilməyə məcbur oldu. İrəvan qalası yenidən mühasirəyə alındı. Paskeviçin komandanlığı altında olan hissələr isə qısa fasilədən sonra Naxçıvan istiqamətində hərəkət etməyə başladı.

Rus orodusunun hərəkəti çox çətin bir şəraitdə davam edirdi. Bir tərəfdən dəhşətli istilər, digər tərəfdən isə ordunun keçdiyi yolların çətinliyi rus ordusunun normal hərəkətinə mane olurdu. Rus ordusunun keçdiyi ərazidə yaşayan əhali əvvəlcədən zorla Arazın o tayına köçürülmüşdü. Ona görə də ərzaq çatışmırdı. Yayın isti keçməsinə, ərzağın və yemin çatışmamasına baxmayaraq, general–adyutant Paskeviçin komandanlığı altında yorğun, taqətdən düşmüş, lakin yeni torpaqlar əldə etmək hərisliyi rus soldatlarını altı günə Naxçıvana çatdırdı. Rus qoşunları hərəkət etdikləri zaman yolda heç bir düşmənə rast gəlmədilər. Yalnız Naxçıvan qalası yaxınlığında Həsən xanın və Nağı xanın komandanlığı altında olan İran süvariləri ilə rastlaşdılar. Knyaz Eristovun komandanlığı ilə rus döyüşçüləri hücuma keçərək İran süvarilərini geri oturtdular.

Darmadağın olmuş İran süvariləri qalada gizlənməyə macal tapmayıb Naxçıvan sərhədini tərk etdilər. Birinci – İran müharibəsi dövründə olduğu kimi, yenə də Naxçıvan əhalisi rus ordusuna

[1] Подробное описание Персии и государств Кабула, Сеистана, Синда, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидсх провинции, присоединенных к России, ч. III, М., 1829, стр. 32.

[2] Yenə orada, səh.36.

müqavimət göstərmədi. Nəticədə, 1827-ci il iyunun 26-da rus qoşunları Naxçıvana daxil oldular.

Rus qoşunları bir güllə belə atmadan şəhərə daxil olduqdan sonra yaxın kəndlərin 2000 ailədən artıq əhalisi Rusiyanın tabeliyində olmaq istədiyini bildirdi. Çünki İran sərbazlarından fərqli olaraq rus komandanlığı yerlərdə soyğunçuluğa və dağıntıya yol vermirdi. Təkcə bu faktı göstərmək kifayətdir ki, qələbə zəfəri ilə Naxçıvana daxil olmuş rus ordusunun komandanlığı 1000 başa qədər qaramalı əhalidən pul ilə aldı. Bundan sonra əhali də düşərgəyə gələrək ehtiyat etmədən əsgərlərə pul ilə ərzaq məhsulları satırdılar. Halbuki İran sərbazları yalnız yerli əhali hesabına dolanırdılar.

Rus qoşunları qalanı tutduqdan sonra, Abbas Mirzə danışıqlar aparmaq məqsədi ilə Nəcəf Əli Soltan Əşrəfi general – adyutant Paskeviçin yanına göndərdi. Danışıq zamanı Nəcəf Əli Sultan Əşrəfi bildirdi ki, Gülüstan müqaviləsinə görə Rusiya dövlətinin tərkibinə keçmiş Lənkəran və Başaparan kəndini Rusiyaya "güzəştə" getməyə razıdır. Lakin danışıqların gedişindən aydınlaşır ki, Əşrəfinin əsas məqsədi daha çox casusluq olmuşdur. O əsasən rus ordusunun sayı və vəziyyəti ilə maraqlanır və bu kimi məlumatlar toplamağa çalışırdı. Odur ki, barışıq haqqında danışıqlar baş tutmadı və müharibə davam etdi.

Paskeviç qoşunlarının müəyyən hissəsini Naxçıvanda saxlayaraq əsas qüvvələri Abbasabad qalası üzərinə yeritdi. Bu qala Naxçıvanın cənub-qərbində 10 km-lik məsafədə yerləşirdi. Bu qala Araz çayı üzərindəki keçidin qorunmasını təmin etməklə yanaşı, həm də Cənubi Azərbaycana gedən yolu bağlayırdı. İarn tarixçisi Mirzə Məhəmməd Tağı xan yazırdı ki, general Paskeviçi Abbasabad qalasına Kəlbəli xanın oğlu Ehsan xan dəvət etmişdi. Halbuki Abasabad qalasına İran dövləti onu komandan təyin etmişdi.Hadisələrin gedişi göstərir ki, onun rus komandanlığı ilə gizli əlaqəsi olmuşdur[1].

Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy də, demək olar ki, eyni fikirdə olmuşdur. Tədqiq olunan dövrdə rusların xidmətində olan Mirzə Adıgözəl bəy yazmışdır: "Həmin dövrdə Abbasabad qalasını qoruyan və müdafiə edən naxçıvanlı Ehsan xan... mənim yanıma aşağıdakı xahişlə adam göndərdi: "Knyaza xəbər verin ki, bizə doğru hərəkət etsin. O gələn kimi qalanı ona təsllim edəcəyəm"[2].

---

[1] Mirzə Məhəmməd Tağı xan. Nasih üt-təvarix.Tehan, 1359, I hissə, səh. 201-202.
[2] Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, səh. 124; Azərbaycan tarixi, 3 clddə, II c., səh. 40.

Sözsüz ki, Abbasabad qalasının təslim olmasından Ehsan xanın rolu olmuşdur.Məlumdur ki, rus komandanlığı qalanı tutmaq üçün xüsusi plan hazırlamışdı. 1827-ci il iyulun 1-dən 2-nə keçən gecə rus qoşunları Abbasabad qalası qarşısında səngərlər qazaraq qalanı mühasirəyə aldılar. Tezliklə məlum oldu ki, Abbas Mirzənin rəhbərliyi altında olan qüvvələr qalada mühasirəyə düşmənləri xilas etmək üçün cəhd göstərir. Bu xəbəri eşidən general Paskeviç mühasirə qüvvələrinin bir hissəsini Abbasabad qalası ətrafında saxlayaraq 8 batalyon piyada qoşun, artilleriyanın bir hissəsi və iki ulan süvari diviziyası ilə birlikdə düşmən yürüşünün qarşısını almaq məqsədilə hərəkət etdi.

Piyadalar sürətlə axan Araz çayını keçmək üçün Paskeviçin əmrilə hava ilə doldurulmuş tuluqlardan körpü düzəltdilər. Müasirlərin verdiyi məlumata görə, hava doldurulmuş tuluqlardan körpü düzəldilməsi Paskeviçin kəşfi idi. Bu körpü vasitəsilə piyadalar, süvari qüvvəkəri, hətta toplar da keçirildi.

1827-ci il iyulun 5-də Araz sahilində qanlı döyüş oldu. Sayca az olmasına baxmayaraq, hərbi texnikadan istifadə edən rus soldatları sayca daha çox olan düşməni üstələdi. "Cavan bulağı" yaxınlığındakı döyüşdə Abbas Mirzənin qoşunu məğlub olub geri çəkildi. Rus qoşunları düşmənin 2000 nəfər canlı qüvvəsini əsir aldı, çoxlu qənimət və bayraq ələ keçirdi. Ali baş komandan şahzadə Abbas Mirzənin özü də az qala əsir düşəcəkdi. Döyüşlərin gedişində Abbasabad qalasının qarnizonu İran sərbazlarına kömək etmək məqsədi ilə qaladan çıxmağa cəhd etsə də qalanın ətrafında saxlanılan rus qoşunlarının müqavimətinə rast gələrək geri çəkilməyə məcbur oldu.

"Cavan bulağı" yaxınlığında gedən döyüşdə rus ordusunun qələbəsi Abbasabad qarnizonunu büsbütün ruhdan saldı. Bu qələbədən bir gün sonra general – adyutant Paskeviç qalanın təslim olunmasını bir daha tələb etdi. Qaladakı qoşunların komandanı Məhəmməd Emin xan şahın və şahzadənin razılığını almaq üçün üç gün möhlət istədi. Lakin bu təklif rus komandanlığı tərəfindən rədd edildi. Tezliklə Ehsan xanın təzyiqi ilə Məhəmməd Emin xan rus ordusunun düşərgəsinə iki nəfərdən ibarət nümayəndə göndərdi. Onlar qalanın təslim olması haqqında Paskeviçə məlumat verdilər. "XVII-XIX əsrlərə aid Naxçıvan əlyazma sənədləri" adlı kitabın müqəddiməsində deyilir ki, "İranın hərbi xidmətində olan polkovnik (sərhəng) Ehsan xan 1827-1828-ci illərin müharibəsi dövründə İrana

xəyanət edərək rusların tərəfinə keçdi və Abbasabad qalasının edilməsinə təsir göstərdi”[1].

XIX əsrin İran tarixçisi Rza Qulu xan Hidayət yazır ki, Abbasabad qalasının idarəsi naxçıvanlı Ehsan xana tapşırılmışdı. Sərbazların baş komandanı Məhəmməd Emin xan, Dəvəli Qacar və Abbas xan Bəxtiyari qalanın müdafiəsinəcavabdeh idilər. Lakin Ehsan xan mərkəzi hakimiyyətin nümayəndələri ilə hesablaşmadan, Paskeviçi Abbasabada dəvət etmiş və qalanı ona təslim etmişdir. İran tarixçisi belə hesab edir ki, o, Ağa Məhəmməd xan tərəfindən kor edilmiş atasının intiqamını almışdır[2]. Tarixi ədəbiyyatda Ehsan xana münasibətdə müxtəlifliyə baxmayaraq, belə nəticəyə gəlmək olar ki, Abbasabad qalasının rus komandanlığına təslim edilməsində Ehsan xan əsas rol oynamışdı.Abbasabad qalasının rus ordusuna təsliminin şahidi bunu belə təsvir edir: “İyun ayının 7-də general – adyutant Paskeviç qərargah üzvlərinin müşayiətilə toplar düzülmüş meydana gəldi. Düşmən qarnizonunun döyüşçüləri silahlarını meydanda tökərək qaliblərin yanından keçib bayraqlarını təhvil verirdilər. Qalanın baş komandanı şahın yeznəsi Məhəmməd Emin xan şəhərin açarını gətirdi. Qənimətlərin içərisində 18 top və külli miqdarda hərbi sursat var idi”[3].

Abbasabad qalasının alınmasında Qafqaza sürgün edilmiş dekabrist Puşşin və Azərbaycanın görkəmli maarifçisi Abbasqulu Ağa Bakıxanov da iştirak etmişdilər. Abbasabad qalasının mühasirəsindəki döyüş rəşadətinə görə 1827-ci il iyulun 5-də Abbasqulu Ağa Bakıxanova ştabs-kapitan rütbəsi verildi. Xüsusi Qafqaz korpusundakı tərcüməçilərdən biri də mayor Mirzə Məhərrəm Hacıbəyov idi. Azərbaycanın mütərəqqi fikirli nadir ziyalılardan biri olan Mirzə Məhərrəm Hacıbəyov Rusiya – İran müharibəsində göstərdiyi qəhrəmanlığa görə ordenə layiq görülmüş və ona ömürlük təqaüd təyin edilmişdi[4].

---

[1] Н.А.Таир-заде. К участию кафказцев-студентов Московского Университета в революционном движении России в конце 60-х гг. XIX в. Изв. АН Азерб. ССР, серия общественных наук, 1964, № 4, стр. 32.

[2] Нахичеванские рукописные документы, стр. 10.

[3] Rza Qulu xan Hidayət. Rozzat üs-Safa-e Nasiri. Tehran, 1280, IX cild, səh. 272.

[4] Подробное описание Персии и государств Кабула, Сеистана, Синда, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидских провинции, присоединенных к России, ч. III, М., 1829, стр. 50.

Naxçıvanın və Abbasabadın sərbazlardan təmizlənməsi yerli əhalinin sevincinə səbəb oldu. Çünki İran hakimiyyəti tərəfindən yerli əhali dəhşətli dərəcədə istismar olunurdu. Məhz elə buna görədir ki, Naxçıvan xanlığının 50 nəfərdən ən hörmətli şəxsi bu hadisə ilə əlaqədar öz minnətdarlığını bildirmək üçün Paskeviçə məktub təqdim etmişdi. Onların məktubunu Abbasqulu Ağa Bakıxanov rus dilinə çevirmişdir.

Naxçıvan və Abbasabad qalası rus qoşunları tərəfindən işğal edildikdən sonra, iyulun 13-də Abbas Mirzə Paskeviçə təqdim etmək üçün öz nümayəndələri ilə məktub göndərdi. Məktubun məzmunu ilə tanış olan Paskeviç nümayəndələrə bildirdi ki, o, hücum əməliyyatını dayandırmağa hazırdır, bir şərtlə ki, İranla Rusiya arasında sərhəd Araz çayı üzrə müəyyənləşdirilsin və İran dövləti Rusiyaya təzminat versin.

İran hökuməti təklif olunmuş şərtlə razılaşmadığı üçün müharibə edən tərəflər arasında danışıqlar kəsildi. Lakin həmin dövrdə Türkiyə ilə münasibətlər kəskinləşdiyi üçün mərkəzdən Paskeviçə göstəriş verilmişdi ki, müəyyən müvəffəqiyyət qazandıqdan sonra düşmənlə sülh müqaviləsi bağlamağa çalışsın.

İran tərəfi ilə sülh müqaviləsi bağlamaq üçün Peterburqda hazırlanmış şərtlərlə əlaqədar məsələləri həll etməyi Paskeviç A.S.Qriboyedova həvalə etdi. Danışıqlara başlamaq üçün Qriboyedov 1827-ci il iyulun 30-da Abbas Mirzənin qərargahına getdi. Danışıqların gedişində bir sıra məsələlərə toxunuldu. Biz danışıqların yalnız Naxçıvan xanlığına aid hissəsindən bəhs edəcəyik. A.S.Qriboyedov aşağıdakı şəkildə bəyanat verdi: "...Keçən il İran ordusu bizim sahib olduğumuz Qafqaz istiqamətində çox irəlilədi. İndi isə biz İrəvan və Naxçıvan vilayətlərini keçərək Araz çayına çatdıq və Abbasabada sahib olduq..." Abbas Mirzə Qriboyedovla xeyli mübahisədən sonra, nəhayət tələb etdi ki, Rusiya zəbt etdiyi İrəvan və Naxçıvan xanlıqlarını İrana qaytarsın. "Siz ümumdünya işğalçısı kimi hər yeri işğal etmək istəyirsiniz . Vilayətləri tələb etməklə yanaşı, həm də pul istəyirsiniz və amma heç bir şərtlə razılaşmaq belə istəmirsiniz", - deyə Abbas Mirzə bildirmişdi. Qriboyedov bir diplomat kimi cavab vermişdi: "Hər hansı müharibə qurtardıqdan sonra baxmayaraq ki, tərəfinizdən ədalətsiz olaraq başlamışdır, biz öz sərhədlərimizlə bərabər rəqibin də sərhədlərini müəyyənləşdirdik. Elə ona görədir ki, hazırkı vəziyyətdə İrəvan və Naxçıvan

vilayətlərini bizə güzəşt edilməsini tələb edirik. Pul isə elə bir silahdır ki, onsuz nə müharibə etmək olar, nə də ticarət...pul tələb etməklə biz öz rəqibimizi bizə zərər vurmaq imkanından məhrum etmək istəyirik"[1].

Tərəflər uzunmüddətli danışıqlardan sonra, gələcək müqavilənin şərtlərinə qayıtdılar. Abbas Mirzə təklif etdi ki, ruslar Qarabağa, o isə Təbrizə doğru geri çəkilsin.Naxçıvan vilayəti Abbasabaddan savayı bitərəf elan olunsun. Abbasabad qarnizonunu ərzaqla təchiz etməyi də Abbas Mirzə öz üzərinə götürdü[2].

Uzun mübahisədən sonra tərəflər belə qərara gəldilər ki, Qriboyedov gələcək müqavilənin şərtlərini tərtib edərək Abbas Mirzəyə göndərsin. Lakin bir gün sonra qərarlaşdırılmış şərti pozaraq iranlılar barışıqlar barədə təklifi Qriboyedova təqdim etdilər.

Sonralar Qriboyedov yazırdı: "İranlılar tərəfindən tələb edilirdi ki, Abbasabaddan başqa Naxçıvan vilayətini, həmçinin Eçmiədzini tərk edək. Allahın bu iqamətgahını qorumaq üçün burada iki pristav – həm bizim, həm də onlar tərəfdən saxlamaq kifayətdir. Orada nə rus və nə də İran qoşunu saxlanılmalıdır"[3].

Beləliklə, tərəflər qəti qərara gələ bilmədilər. Qriboyedov Abbas Mirzənin qərargahını hədə ilə tərk etdi: "Biz əməliyyatı davam etdirərək Azərbaycanı ələ keçirdikdən sonra, bu geniş vilayətin müstəqilliyini təyin edəcək və heç kimə imkan verməyəcəyik ki, on fərsəng belə sərhədə yaxınlaşsın".

İranla danışıqları müvəffəqiyyətlə başa çatdıra bilməyən rus komandanlığı döyüşçülərə müvəqqəti olaraq istirahət verməyi və sonradan İranla hərbi əməliyyata başlamağı qərara aldı.

Ehsan xanı Naxçıvanın hakimi təyin etdikdən sonra, Eristovun komandanlığı altında rus qoşunları havaların çox pis keçməsi ilə əlaqədar Qarababa adlı yerdə cəmləşdilər. Rus ordusunun əsas hissəsi Paskeviçin komandanlığı altında İran qoşunlarının toplandıqları İrəvan, Sərdarabad və Eçmiədzin istiqamətində hərəkət etdi.

Rus ordusunun əsas hissəsi Naxçıvandan uzaqlaşan kimi knyaz Eristova xəbər çatdı ki, Abbas Mirzə öz qüvvələri ilə Naxçıvana

---

[1] Материалы к истории Персидской войны 1826-1828 гг. (Материалы для биографии А.С.Грибоедова). Кавказский сборник, т. XXX, Тифлис, 1910, стр. 3.

[2] Yenə orada, səh 10.

[3] Yenə orada.

hücum etmək üçün Şərurdan Xoka gəlmişdir. Maraqlıdır ki, rus qoşunlarının istirahət məqsədilə Qarababa düşərgəsinə köçmələri İran komandanlığı tərəfindən rusların geri çəkilməsi kimi qiymətləndirilmişdir.

1827-ci il sentyabrın 15-də knyaz Eristov qrenader rotası və piyada polkları ilə birlikdə rəqibi qarşılayaraq məğlub edib Abbasabad qalasının 30 verstliyindəki Qotçaçaya qədər izlədi. Abbas Mirzənin 4-5 minə qədər sərbazı Araz çayını keçərək intizamsız qaydada Xok yoluna çıxdılar. Bir neçə gündən sonra, sentyabrın 23-də Eristov öz qoşunlarını polkovnik Vısoskinin komandanlığı altında müharibədən əvvəl Şıxəli bəyin hakim təyin olunduğu Ordubada göndərdi. Müharibədən əvvəl Fətəli şah Naxçıvan diyarında böyük nüfuza malik olan Kəlbəli xanın oğlanları Ehsan xan və Şıxəli bəyi strateji cəhətdən əhəmiyyətli Abbasabada və Ordubada hakim təyin etməklə Naxçıvan feodallarının etimadını qazanmağa çalışırdı. Lakin Abbasabadda Ehsan xan, Ordubadda isə Şıxəli bəy şahın etimadını doğrultmadılar. Şıxəli bəy rus ordusunu müqavimətsiz olaraq şəhərə buraxdı. Bu münasibətlə müasirlərdən biri yazır: "...Tezliklə (rus qoşunları - red.) şəhərə yaxınlaşdılar, şəhərdə olan sərbazlar baş götürüb qaçdılar, orada yalnız Şıxəli bəy qaldı. Ordubad vilayətinin hakimi Şıxəli bəy Naxçıvan polkunun komandiri qardaşı Ehsan xan kimi bizə (ruslara – red.) sədaqətli idi"[1].

Şıxəli bəyin xidmətləri təkcə qeyd olunanlarla bitmir. O, 400 atlı ilə Naxçıvan polkunun döyüşçüləri ilə Araz çayını keçərək Naxçıvandan və Ordubaddan Arazın o tayına zorla köçürülmüş əhalinin geri qaytarmışdı. Daha sonra o, Dizmar bəylərini özünə tabe etməklə Cənubi Azərbaycan şəhəri Mərəndlə Ordubad arasında əlaqə yaratmışdı. Daha sonra Şıxəli bəy öz orudus ilə Mehridən cənubda yerləşən Kürdad qalasına getmişdi. Bu qala "yerli əhali tərəfindən ən güclü qala" hesab edilirdi. Şıxəli bəy çox da çətinlik çəkmədən qalanı tutmuş, orada 150 nəfərdən ibarət qarnizon saxlamışdı, yerli əhalini özünə tərəf çəkmişdi[2]. Şıxəli bəy Kürdad qalasında ələ keçirdiyi çoxlu barıt və topla rusların düşərgəsinə qayıtmışdı.

---

[1] Подробное описание Персии и государств Кабула, Сеистана, Синда, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидских провинции, присоединенных к России,ч. III, М.,1829, стр. 73.

[2] Yenə orada,səh. 75-93.

Sonralar Qriboyedov rusların qərargahında bildirmişdi: “Mən belə hesab edirəm ki, Şıxəli bəyin tərəfini saxlamaq lazımdır. Onlarla hörmətlə və mehribancasına davranırdım”[1]. Elə həmin dövrdən də Şıxəli bəy rus ordusunun sıralarında öz mövqeyini möhkəmlətdi.

Paskeviçin komandanlığı altında rus qoşunlarının əsas hissələri İrəvan xanlığına yola düşdüyü zaman general Eristov Ordubadı tutaraq Araz çayını keçdi və heç bir müqavimətə rast gəlmədən Cənubi Azərbaycan ərazisində irəliləməyə başladı. Təbrizə girərkən rus qoşunları, demək olar ki, heç bir maneəyə rast gəlmədilər. Paskeviçin raportundan və diplomatik agent Karqanovun məlumatından aydın olur ki, 1827-ci ilin başlanğıcında Təbriz şəhərində, həmçinin bütün Cənubi Azərbaycanda xalq Qacar sülaləsinə nifrət edirdi.

Paskeviçin komandanlığı altında rus ordusu buğda və digər ərzaq ehtiyatı çox olan Sərdarabad qalasını mühasirəyə aldı. Müasir Ermənistanın ərazisində rus ordusu ilə İran sərbazları arasında ilk döyüş 1827-ci il avqustun 17-də Aştarak və Uşqan kəndləri yaxınlığında oldu. Bu döyüşdə rus qoşunları erməni və gürcü könüllülərinin köməyi ilə düşmən üzərində qələbə çaldı.

Aştarak yaxınlığındakı döyüş əslində Sərdarabad qalasının taleyini həll etdi. Qala 1827-ci il sentyabrın 20-də təslim oldu. Bundan sonra rus qoşunları İrəvan qalasını mühasirəyə aldılar. Altı gün müqavimət göstərdikdən sonra yerli əhalinin təzyiqi altında 1827-ci il oktyabrın 21-də qala təslim oldu. 3 min nəfər İran sərbazı əsir alındı, qalanın komendantı Sübhanqulu xan, 46 top və 4 bayraq rus qoşunlarının əlinə keçdi.

İrəvan xanlığının əhalisi, xüsusilə azad olduqları üçün rus komandanlığına minnətdarlıqlarını bildirir, özlərinin ərzaq ehtiyatlarını rus qoşunlarına verirdilər. Arxi sənədlərində yerli əhalinin, o cümlədən feodalların Rusiyaya meyilli olduqları təsdiq edilir. İrəvan qalasını almış rus bölmələrinin komandiri general Paskeviçə “...erməni cəmiyyəti arxiyepiskop Nerses vasitəsilə hərəkəti müsəlmanları bir qədər ehtiyatlı olmağa ə diplomatik

---

[1] Подробное описание Персии и государств Кабула, Сеистана, Синда, Бальха, Белуджистана, земли Хорасана, также Грузии и персидских провинции, присоединенных к России, ч. III, М., 1829, стр. 75-93.

addım atmağa məcbur etdi. Onlar da öz aralarında sözləşib min manat gümüş pul toplayıb Paskeviçə verdilər ki, qalib xristianlar yerli müsəlmanlardan şübhələnməsinlər"[1].

İrəvan qalasını tutduqdan sonra rus qoşunları 1827 və 1828-ci illərdə Cənubi Azərbaycanın ərazisində gedən döyüşlərdə İran sərbazları üzərində bir sıra qələbələr qazandılar.

Rus qoşunlarının yeni hücumları İranın hakim dairələrini daha çox təşvişə saldı. A.V.Fadayevin yazdığına görə, həmin dövrdə "Qacarlar hərbi və diplomatik müqaimət göstərməkdən tamamilə məhrum olmuşdular"[2]. İranın məğlubiyyətini görən İngiltərə döyüşən tərəflər arasında vasitəçilik etməyə məcbur oldu.

Beləliklə, 1828-ci il fevralın 10-da Türkmənçay kəndində (Cənubi Azərbaycanda) bağlanmış müqavilə ikinci Rusiya – İran müharibəsinə son qoydu.

Türkmənçay müqaviləsinə görə, İran gümüş pulla 20 milyon manat həcmində təzminat verməli idi. Həmçinin Gülüstan müqaviləsinin şərtlərinə görə, Naxçıvan və İrəvan xanlıqları Rusiyaya birləşdirildi. Maraqlıdır ki, bu məsələ 1829-cu il sentyabrın 2-də Rusiya ilə Osmanlı Türkiyəsi arasında bağlanmış Ədirnə müqaviləsində də bir daha təsdiq edildi. 1828-1829-cu illərdə Rusiya ilə savaşda məğlub edilmiş Türkiyə belə bir təsdiqlə razılaşmağa məcbur oldu. Naxçıvan xanlığının işğalı ilə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı başa çatdı.

İlk dövrlərdə çar hökuməti Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Naxçıvanda da eyni siyasət yeridir və xanlıqdaxili muxtariyyət hüququ verirdi. Azərbaycan xanlıqlarını öz torpaqlarına qatdıqdan sonra, yerlərdə xan üsuli-idarəsirus ordusunun polkovniki rütbəsini almış Ehsan xana tapşırıldı.

Naxçıvan xanlığını əvvəlki qanunlarla idarə etməklə yanaşı, Ehsan xan rus dövlətinin qanunlarına tabe olmağa məcbur idi. Ehsan xanın "xidmətini" səmimiyyət kimi qəbul edən Rusiyanın hakim dairələri ona etibar edirdilər.

---

[1] MDHTA, f. VUA, sənəd 1735, vər.4.
[2] А.В.Фадеев. Göstərilən əsəri, səh.213.

Rusiya hökuməti özünü “səxavətli” göstərsə də Cənubi Qafqazda işğal etdiyi torpaqlarla müstəmləkəçilik siyasətini tədriclə həyata keçirirdi.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı nəticəsində burada rus çarizminin müstəmləkəçilik siyasəti bərqərar olsa da, ölkədə uzun müddət davam edən feodal pərakəndəliyinə son qoyuldu.

Çar Rusiyası özünün cənub sərhədlərini möhkəmlətmək məqsədilə Naxçıvan və İrəvan xanlıqlarını ləğv etdi. I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən ləğv olunmuş bu iki Azərbaycan xanlığının ərazisində süni şəkildə “erməni vilayəti” yaradıldı. Həmin inzibati bölgü 1840-cı ilə kimi davam etdi.

Rusiya ilə İran dövlətləri arasında gedən müharibələrdə İran məğlub olsa da torpaq itirmədi. Əksinə, Cənubi Azərbaycanı əldə etdi. Azərbaycanın şimal torpaqlarını isə çar Rusiyası sahib oldu. Bu müharibələr nəticəsində yalnız Azərbaycan xalqı itirdi – müstəqilliyini, özü də uzun müddətə.

## MÜNDƏRİCAT

Naxçıvan tarixi. Xanlıq dövrünün yeri və roluna dair…….
Giriş……………………………………………………………………….
Xanlığın yaranma tarixindən…………………………………….
Xanlığın sosial-iqtisadi vəziyyəti
(XVIII əsrin II yarısı – XIX əsrin I rübü) …………………….
Naxçıvan xanlığının siyasi tarixi……………………………….
Xanlığın Rusiya tərəfindən işğalı

1. Naxçıvan xanlığı Birinci Rusiya – İran müharibəsi dövründə (1804-1813)…………………………
2. Naxçıvan xanlığı Gülüstan müqaviləsindən sonra və İkinci Rusiya – İran müharibəsi dövründə……….

**FUAD ƏLİYEV**
**MİRABDULLA ƏLİYEV**

# NAXÇIVAN XANLIĞI

"ŞƏRQ-QƏRB"
BAKI
2007

| | |
|---|---|
| Buraxılışa məsul: | Əziz Güləliyev |
| Texniki redaktor: | Rövşən Ağayev |
| Kompyuter səhifələyicisi: | Samir Qocayev |
| Korrektorlar: | Fəridə Səmədova |
| | Pərinaz Musaqızı |

Yığılmağa verilmişdir 21.06.2007. Çapa imzalanmışdır 20.07.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 7,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 193.
DÜST 5773-90, DÜST 4.482-87

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi,3.